ƏLİXAN MUSAYEV

# ELMİN FƏZİLƏTİ

Bakı – 2002

**MÜƏLLİF**: **ƏLİXAN MUSAYEV**

Redaktor: **Əzim Hüseyn**

# MÜQƏDDİMƏ

Şükr və tərif Allaha məxsusdur, biz Ona şükr edirik, Onu tərif edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma diləyirik, nəfslərimizin şərindən və pis əməllərdən qorunmaq üçün Allaha sığınırıq. Allahın haqq yoluna yönəltdiyi şəxsi azdıran, azdırdığı şəxsi isə haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ حَقَّ تُقَاتِهِۦ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم
مُّسْلِمُونَ ﴿١٠٢﴾ ﴾

**«Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün!»**[1]

﴿ يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱتَّقُواْ رَبَّكُمُ ٱلَّذِى خَلَقَكُم مِّن نَّفْسٍ وَٰحِدَةٍ
وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالًا كَثِيرًا وَنِسَآءً ۚ وَٱتَّقُواْ ٱللَّهَ ٱلَّذِى
تَسَآءَلُونَ بِهِۦ وَٱلْأَرْحَامَ ۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا ﴿١﴾ ﴾

**«Ey insanlar! Sizi tək bir şəxsdən** (Adəmdən) **xəlq edən, ondan zövcəsini** (Həvvanı) **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!** (Adı ilə) **birbirinizdən** (cürbəcür şeylər) **istədiyiniz Allahdan, həmçinin qo-**

[1] «Ali İmran» surəsi, 102.

**humluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir!»**[2]

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱتَّقُوا۟ ٱللَّهَ وَقُولُوا۟ قَوْلًا سَدِيدًا ﴿٧٠﴾ يُصْلِحْ لَكُمْ أَعْمَـٰلَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَمَن يُطِعِ ٱللَّهَ وَرَسُولَهُۥ فَقَدْ فَازَ فَوْزًا عَظِيمًا ﴿٧١﴾ ﴾

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** (Əgər belə etsəniz) **Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə** (cənnətə) **nail olar».**[3]

Əziz həmvətənlərim, müsəlman bacı və qardaşlarım!

Sizə təqdim etdiyim bu risalədə cəmiyyətdə elmin rolu, elmin fəziləti və bu yolda qarşıya çıxan çətinliklər, elmi layiqincə qiymətləndirməyə gücü çatmayan və ya təhrifçiliyə meyl edən insanlara münasibət, ümumiyyətlə elmlə bağlı bir çox mətləblərə dini nöqteyi nəzərdən yanaşmanı diqqətinizə çatdırıram.

Elm çox çətinliklə əldə olunan nemət olduğu üçün, bu nemətə sahib çıxmağı qarşısına məqsəd qoyan gənclərimizin müəyyən tövsiyələrə ehtiyacı olacağı da şübhəsizdir. Bizim hər birimiz insanıq və elə buna görə də müəyyən dərəcədə səhvlər də edə bilərik. Lakin fikirlərin ən doğrusu Allahın dedikləri və yolların ən düzgünü və xeyrlisi Peyğəmbərimiz Məhəmmədin **- səllallahu aleyhi və səlləm -** yolu olduğu üçün bu kitabda onlara daha çox istinad olunur. Ümid edirəm ki,

---

[2] «ən-Nisa» surəsi, 1.

[3] «əl-Əhzab» surəsi, 70-71.

Uca Allahın yeganə Yaradıcı, qəlbləri və nəfsləri bilən İlahi olduğunu yəqin edən oxucum bu istinadlara da biganə qalmayacaq, elmə yiyələnmək kimi çətin bir vəzifəni üzərinə götürdüyü üçün onlardan faydalanacaq. Həqiqətən də elm Allahın nemətidir. Buna nail olmağı da ilk öncə Ondan istəmək, sonra isə bu yolda mücadiləyə qatılmaq lazımdır. Həqiqətən kimə elm verilibsə o çox şeyə nail olub. Bu barədə Uca Allah belə buyurur:

﴿ يُؤْتِي الْحِكْمَةَ مَن يَشَاءُ ۚ وَمَن يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِيَ خَيْرًا
كَثِيرًا ۗ وَمَا يَذَّكَّرُ إِلَّا أُولُو الْأَلْبَابِ ﴿٢٦٩﴾ ﴾

**«Allah istədiyi şəxsə hikmət** (elm, mərifət, müdriklik) **bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir** (əbədi səadət) **verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!»**[4]

Elmsiz insan sükanı nasaz maşına bənzəyir. Sükansız maşını idarə etmək qeyri-mümkün olduğu kimi, elmsiz də bu dünyada yaşamaq çox çətindir. Elmsiz söylənilən fikir çox zəif və təsirsizdir. Uca Allah hətta peyğəmbərlərinə belə elmsiz fikir söyləməməyi tövsiyə etmiş və belə buyurmuşdur:

﴿ فَتَعَالَى اللَّهُ الْمَلِكُ الْحَقُّ ۗ وَلَا تَعْجَلْ بِالْقُرْآنِ مِن قَبْلِ أَن يُقْضَىٰ
إِلَيْكَ وَحْيُهُ ۖ وَقُل رَّبِّ زِدْنِي عِلْمًا ﴿١١٤﴾ ﴾

**«Həqiqi hökmdar olan Allah** (hər şeydən) **Ucadır! Həm də sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və: «Ey Rəbbim! Mənim elmimi artır!»- de».**[5]

4 «əl-Bəqərə» surəsi, 269.

Bu kitabı yazmaqda digər bir məqsədim də İslamın elmə verdiyi qiyməti, alimə olan xüsusi münasibəti nəzərinizə çatdırmaqla yanaşı, həm də təmiz və saf dinimizin cahillikdən, xurafatdan, terrordan və s. bu kimi əsassız ittihamlardan uzaq olmasını ortaya qoymaqdır. İslam bütün gözəl keyfiyyətləri insanlara hələ bəşəriyyət onlar barəsində xəbərsizkən çatdıran bir dindir. Elmə yiyələnməyin vacibliyi İslamın əsas prinsiplərini təşkil edir. Dinimiz elmi bilgiləri iki böyük qrupa ayırır: Bunlardan birincisi fardul-ayn olan elmdir ki, bu elmi bütün insanlar bilməlidirlər. Bu məsələdən kiminsə qafil olması heç cürə qəbul edilməzdir və dinimiz belə insanları axirət əzabı ilə qorxudur. Bu elm də Allahın tanınması və qəbul edilməsidir. Bu barədə Uca Allah belə buyurur:

فَٱعۡلَمۡ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا ٱللَّهُ

**«Bil ki, Allahdan başqa ilahi yoxdur»** [6]

Bu çox əzəmətli ayədir və İslamın beş əsasından biri olmaqla bərabər həm də çoxşaxəli və bir neçə bölməni özündə birləşdirən bir prinisipdir. Bu prinsip özünün çox məntiqli ifadəsini bir cümlədə tapsada, bu bir cümləyə islam alimləri cild-cild kitablar yazmışlar. İkinci növ elm isə fardul-kifayə adlanan elmdir ki, bu elmi hamının bilməsi bir o qədər də vacib deyildir. Yəni bu elmi həmin sahəyə aid bir qrup mütəxəssisin bilməsi kifayətdir. Bu elmi öyrənmək istədikdə mütləq həmin sahəyə aid mütəxəssisə müraciət edilməli və bu məsələdə də bilgisiz hərəkət edilməməlidir. Bu barədə Uca Allah belə buyurur:

---

[5] «Ta Ha» surəsi, 114

[6] «Məhəmməd» surəsi, 19.

فَسۡـَٔلُوٓاْ أَهۡلَ ٱلذِّكۡرِ إِن كُنتُمۡ لَا تَعۡلَمُونَ ﴿٧﴾

**«Əgər bilmirsinizsə, zikr əhlindən** (alimlərdən) **soruşun!»**[7]

İslam elmlərə yiyələnməyi təkcə tövsiyə etmir, bunu hətta insanlardan tələb edərək yollarını da izah edir. Bu səmavi din elmsiz, elm isə bu dinsiz təsəvvür edilməzdir. Elmli insanla cahil arasında çox böyük fərq olduğunu önə çəkən Uca Allah belə buyurur:

قُلۡ هَلۡ يَسۡتَوِي ٱلَّذِينَ يَعۡلَمُونَ وَٱلَّذِينَ لَا يَعۡلَمُونَۗ

**«De ki, heç bilənlərlə bilməyənlər** (alimlə cahil) **eyni ola bilərmi?»**[8]

Bu sualın cavabı əslində hamıya aydın olsa da Usa Allah insanı daim düşünməyə və elmə meyl etməyə səsləyir. Allahın elçisi olan Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm -** insanları bu yolda müxtəlif cür həvəsləndirər və onlarda elmə məhəbbət oyadardı. Başqa cür ola da bilməzdi. Çünki insanların ən xeyirlisi olan Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm -** gətirdiyi dinin elmsiz dərk olunmaz olduğunun fərqində idi. Peyğəmbərimizdən **- səllallahu aleyhi və səlləm -** bu barədə bizə gəlib çatan hədislər də bunu açıqca sübut edir. Əbu Hüreyrədən (r.ə.) rəvayət edilən hədisdə Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm -** belə buyurur: «Kim elm öyrənmək üçün yola düşərsə Allah da onun üçün Cənnətə gedən yolu asanlaşdırar. Və o qövm ki, Allahın evlərinin birində yığışıb Onun kitabını oxuyar və öz aralarında onu araşdırarsa

---

[7] «əl-Ənbiya» surəsi, 7.
[8] «əz-Zumər» surəsi, 9.

onlara Allah tərəfindən sükunət nazil olar, Allahın rəhməti onları bürüyər, mələklər onları əhatə edər və Allah onları Öz dərgahında olanların yanında xatırlayar».[9] Əbu Hüreyrədən (r.a.) rəvayət olunan digər bir hədisdə isə Peyğəmbərimiz - **səllallahu aleyhi və səlləm** - belə buyurur: «Adəm övladı vəfat etdikdən sonra əməl dəftəri bağlanır. Yalnız üç şeydən başqa: (Yəni vəfatından sonra da bu üç şey ona savab qazandırır) Ardı kəsilməyən sədəqə (yol çəkdirmək, su quyusu qazdırmaq, və s.), fayda verən elm və valideyn üçün dua edən əməlisaleh övlad».[10] Peyğəmbərimiz - **səllallahu aleyhi və səlləm** - elmə olan ehtirası öz səhabələrinin də qəlbində oyadmışdır. Raşidi xəlifələrdən olan (Allah onların dördündən də razı olsun) Ömər ibnul-Xəttab (r.a.) deyir ki; «Həqiqətən hər bir kəs mənzilindən dağ boyda günahla çıxa bilər və elm aldıqdan sonra Allahdan qorxub günahlardan çəkinər və tövbə edər və beləliklə də mənzilinə günahsız qayıdar. Elm məclislərini tərk etməyin!»[11] Baxın görün Əli ibn Əbi Talibin (r.a.) elmə münasibəti necə gözəldir: «Elm var-dövlətdən daha xeyirlidir. Elm səni qoruyar, var-dövləti isə sən qoruyarsan, elm hakimdir, var-dövlət isə məhkumdur, var-dövlət yığanlar məhv oldu, elm öyrənənlər isə həmişə yaşayırlar, özləri ölüb getsələr də şəxsiyyətləri (adları) daima qəlblərdədir».[12]

Bu cür hədis və rəvayətlərin sayını hələ çox uzatmaq olar. Bütün bunlar İslam cəmiyyətinin, İslam əxlaqının, digər inanclardan üstün olmasını bir daha sübut edir. İslam məhz

---

9 Muslimin «Səhih» əsəri 6793.

10 Muslimin «Səhih» əsəri 1631.

11 «Miftahu-d-daru-s-səadə», 1/77.

12 «Ədəbu-d-dünya vəd-din», səh48.

elm sayəsində gənc nəslin ideya, mənəvi simasının formalaşacağını vurğulayır. İslam Peyğəmbərinin - **səllallahu aleyhi və səlləm** - bizə qoyub getdiyi zəngin əmanəti (elmi) ecazkar qüvvə sayılmaqla bərabər istər ailə, istərsə də ictimai tərbiyə üçün əvəzsiz bilgilər toplusudur. Bu bilgilər müstəqil Azərbaycanın yetişən nəslinin mənəvi simasının formalaşması, onlarda əqidə və dünya görüşünün dərinləşməsi üçün misilsiz vasitədir. Böyüyən balalarımızın gələcəyi üçün məktəb, ailə və ictimaiyyətin birgə işinin təşkilində İslam dəyərlərindən də istifadə edilməsi bu yolda yüksək təsirə malik olardı. Ailədə boya-başa çatan vətəndaşımızın tərbiyəsinə təsir edəcək amil kimi İslam qadının, ananın rolunu da xüsusi qeyd edir. Körpədə uşaq yaşlarından uzun müddətli diqqətin formalaşması, ilkin elmi biliklərin (Lə iləhə illəllah, Muhəmmədən Rəsulullah kəliməsi ilə başlayan) təlqin edilməsi uşağın daimi yanında olan ananın üzərinə düşdüyü danılmazdır. İslam bu mənada qadının da elmli, savadlı olmasını vacib sayır. Çünki məhz ananın malik olduğu keyfiyyətlər gələcək körpədə, müstəqil dövlətimizin gələcək vətəndaşınıda onu bətnində gəzdirdiyi andan dünyaya gətirdikdən sonra qayğısına qalacağı günlərdə də öz təsirini göstərir. Bu gün cəmiyyətimizdə layiqli insan yetişdirmək üçün, onlarda ilk növbədə Allaha möhkəm inam, müsbət əxlaqi keyfiyyətlər və adətlər formalaşdırılması zəruridir. Bu baxımdan İslam qadının savadlı olmasına xüsusi önəm verir. Elə bu səbədən də dinimiz bəşəriyyəti maariflənməyə səsləyir. Kitabın giriş bölməsini Peyğəmbərimizin - **səllallahu aleyhi və səlləm** - səhabəsi olmuş Müaz ibn Cəbəlin (r.a.) elm haqqında dediyi fikirlərlə tamamlayıram: «Elm öyrənin! Həqiqətən elmi Allah xatirinə öyrənmək təqvadır, elm tələb etmək ibadətdir, elmi müzakirə etmək təsbihdir, (yəni Allahı zikr etməkdir) elmi axtar-

maq cihaddır, bilməyənlərə elm öyrətmək sədəqədir. Çünki, məhz elm halal və haramın öyrənilməsi üçün səbəbdir, cənnət əhlinin yolunu işıqlandıran nurdur, vəhşilər arasında insandır, qəriblikdə isə dostdur, xəlvətdə sənə həmdəmdir, sevinc və kədərində sənə yol göstərən vasitə, düşmənlə mübarizədə silah, dostlar yanında zinətdir. Onunla Uca Allah bir qism insanlara xeyir nəsib edir, onları aparıcı qüvvəyə çevirir və digərləri də onların ardınca gedir, mələklər onları sevir və onları əhatə edir, hər bir canlı və cansız onlar üçün bağışlanma diləyir. Hətta dənizlərdəki balıqlar və qurudakı heyvanlar belə. Elm qəlbləri cəhalətdən oyadır, gözləri də zülmətdən nura açır. Bəndə, elmin fəziləti ilə ən xeyirli insanların dərəcəsinə çatır, dünya və axirətdə olan ən yüksək məqamlara nail olur. Elmdə təfəkkür orucu, müzakirə etmək isə qiyamı (gecə namazını) əvəz edir. Onun vasitəsilə qohumluq əlaqələri möhkəmlənir. Elm hər bir əməlin imamı hesab olunur və əməl də ona tabe olur. Elmə nail olan insan xoşbəxt, ondan məhrum olan isə bədbəxt olur».[13]

[13] «Cami bəyanul-elm və fədlihi», 1/52.

## **Elmə yiyələnmək yolunda atacağımız ilk addımlar**

Heç kəsə sirr deyil ki, elm şüura və nitqə malik olan varlığın onsuz keçinə bilməyəcəyi zəruri bir tələbatdır. Yəni hər bir insan dünyaya göz açdığı andan ona əbədi olaraq göz yumacağı ana qədər bu və ya digər məsələlərlə bağlı olan fəaliyyətini məhz görüb, duyub, dərk etdikdən sonra həyata keçirir. Əgər bu fəaliyyət körpəlik yaşlarında müəyyən vərdişlərin, davranış formalarının aşılanması ilə başlayırsa, artıq yetkinlik yaşından sonrakı dövr hər bir fərdin müəyyən biliklər sisteminə, dünya görüşünə, yüksək əxlaqa və davranışa malik fəaliyyət göstərməsini tələb edir. Yəni bu gün rastlaşdığımız hər hansı bir elmli, əxlaqlı, mömin bir insan dünənin Uca Allah tərəfindən hidayət olunduğu, valideynləri və cəmiyyət tərəfindən düzgün tərbiyələndirildiyi və istiqamətləndirildiyi uşaq olması məntiqini ortaya qoyur. Yəni gələcəkdə elmə həvəs göstərən, bu sahədə uğurlar əldə edəcək fərdin yetişdirilməsi onun düzgün tərbiyəsi, ifrat əyləncə atmosferindən uzaq mühitin yaradılması, uşaqda möhkəm iradənin formalaşdırılmasından birbaşa asılıdır. Problemin bu hissəsinin məsuliyyətini bilavasitə valideynlər daşıdığı üçün bir neçə məsləhəti qeyd etmək yerinə düşərdi. Hər bir valideyn ilk öncə uğurun və xeyirin məhz Allahın əlində olduğunu qəbul edib övladı üçün Ona dua etməlidir. Həm də bu duanın övlad hələ dünyaya gəlməmişdən öncə edilməsi daha səmərəlidir. Bu barədə Uca Allah belə buyurur:

﴿ وَٱلَّذِينَ يَقُولُونَ رَبَّنَا هَبۡ لَنَا مِنۡ أَزۡوَٰجِنَا وَذُرِّيَّٰتِنَا قُرَّةَ
أَعۡيُنٖ وَٱجۡعَلۡنَا لِلۡمُتَّقِينَ إِمَامًا ٧٤ ﴾

**«Və o kəslər ki, "Ey Rəbbimiz bizə zövcələrimizdən və uşaqlarımızdan** [sənə itaət etməklə bizi sevindirib] **gözümüzün işığı** [bəbəyi] **olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam** [rəhbər] **et!" – deyərlər»**[14]

Bu ayədən sonrakı ayədə Uca Rəbbimiz bu cür insanların axirət həyatında ehtiramla, salamla qarşılanacağını qeyd edir. Övlad üçün dua etmək onun dünyaya gəlməsindən sonra da davam etdirilməli, ona gözəl nəsihətlər edilməlidir. Nəsihətlərin ən gözəli isə Allah kəlamıdır:

﴿ وَإِذْ قَالَ لُقْمَٰنُ لِٱبْنِهِۦ وَهُوَ يَعِظُهُۥ يَٰبُنَىَّ لَا تُشْرِكْ بِٱللَّهِ ۖ إِنَّ ٱلشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ ﴿١٣﴾ ﴾

«[Ya Məhəmməd!] **Yadında olsun ki, bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdi: «Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür!** [Ağır günahdır]!»[15];

﴿ يَٰبُنَىَّ أَقِمِ ٱلصَّلَوٰةَ وَأْمُرْ بِٱلْمَعْرُوفِ وَٱنْهَ عَنِ ٱلْمُنكَرِ وَٱصْبِرْ عَلَىٰ مَآ أَصَابَكَ ۖ إِنَّ ذَٰلِكَ مِنْ عَزْمِ ٱلْأُمُورِ ﴿١٧﴾ ﴾

**«Oğlum! Namaz qıl, [insanlara] yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. [Bu yolda] sənə üz verəcək müsibətlərə döz. Həqiqətən bu [dediklərim] vacib əməllərdəndir!»**[16]

---

14 «əl-Furqan» surəsi, 74.
15 «Loğman» surəsi, 13.
16 «Loğman» surəsi, 17.

Bu ayələrdə zikr olunan əməllər – Allaha şərik qoşmamaq, namaz qılmaq, yaxşı işlər görüb pis işlərdən çəkinmək və ən nəhayət, bu yolda çətinliklərə səbr etmək kimi keyfiyyətlər uşağa kiçik yaşlarından aşılanarsa, bu uşaqda tədricən gözəl əxlaq və möhkəm iradə formalaşdırmış olar ki, bu da gələcəkdə elm tələb edəcək insan üçün çox zəruridir. Həqiqətən də dərindən düşünsək görərik ki, elmi biliklərə mükəmməl yiyələnməyimiz iman, əxlaq və iradəmizin nə dərəcədə səfərbər etməyimizdən asılıdır. Bunların isə kökündə Allaha və Onun Rəsuluna - **səllallahu aleyhi və səlləm** - itaət durur. Yəni gələcək uğurlarımızı təmin etmək üçün təxirə salmadan yuxarıdakı keyfiyyətlərə malik olmağımız gərəkdir.

Elmə yiyələnmək yolunda atılması vacib olan digər bir amil də təmiz niyyət və məqsədin olmasıdır. Bu barədə Uca Allah belə buyurur:

﴿وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ وَيُقِيمُواْ
ٱلصَّلَوٰةَ وَيُؤۡتُواْ ٱلزَّكَوٰةَۚ وَذَٰلِكَ دِينُ ٱلۡقَيِّمَةِ ٥﴾

**«Halbuki onlara əmr edilmişdi ki, Allaha – dini yalnız Ona məxsus edərək, digər bütün batil dinlərdən islama dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!»**[17]

Ömər ibnu-l-Xattab (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Əməllər niyyətlərə görədir və hər bir kəsin etdiyi əməl niyyəti ilə ölçülür».[18]

---

[17] «əl-Bəyyinə» surəsi, 5.
[18] Buxarinin «Səhih» əsəri 1; «Səhih Müslim» 4904.

Niyyətin özü isə insanın əqidəsi ilə birbaşa bağlıdır. Yəni hər bir insanın sahib olduğu etiqada uyğun niyyətlərə malikdir. Məsələn, hər hansısa bir insan bu və ya digər bir xeyriyyəçiliklə məşğul olursa və bunu ixlasla, Allah rizasını qazanmaq üçün deyil, ətrafdakıların nəzərində «xeyriyəçi insan» imicini yaratmaq üçün edirsə bu onun əqidəsinin düzgün olmamasına dəlalət edir. Bu cür əqidə isə görüləcək işi elə niyyət mərhələsində korlayır. Yəni hər bir elm əhli ilk öncə Allaha itaətkar olmalı, Onun Rəsulunun **- səllallahu aleyhi və səlləm -** qoyduğu yolla hərəkət etməli, görəcəyi bütün işləri dini, yaşayışı, axirət üçün faydalı olan tərzdə həyata keçirərək vətəninə və millətinə xidmət etməli və heç bir zaman bu niyyəti başqası ilə əvəz etməməlidir. Bu barədə Mirzə Şəfi Vazehin bir fikrini də qeyd etmək yerinə düşərdi:

Gərək ola əvvəldən nəcib məqsədin,
Qarşıdakı amalını edəsən yəqin.[19]

Elmlə məşğul olan insanın işini yüngülləşdirəcək bir amil də onun nə dərəcədə zəhmətkeş olub-olmamasıdır. Tənbəllikdən uzaq olmaq, nəfsinin qulu olmamaq, onu iradəyə tabe etdirmək elm əhlinin gündəlik qayğılarını təşkil etməlidir. Tənbəllik və bekarlıq insanı son anda çox zəiflədir. Və ya Nizaminin təbirincə desək:

Bu nə tənbəllikdir, giriş tez işə,
Bekarlıq insanı sıxar həmişə.

başqa yerdə isə:

---

[19] M. Cəfərin «Estetik tərbiyə-ailə və məktəb» əsəri, səh.43.

Həyatın mənası hünər deməkdir,
Nə şöhrət nə yuxu nə də yeməkdir.
Yatmağı yeməyi bu aləmdə sən,
Atda, öküzdə də görə bilərsən.[20]

Əlbəttə, elm əhli nəinki elm sahəsində, həmçinin fiziki işlərə münasibətdə də zəhmətkeş olmalıdır. Bu onun gələcək fəaliyyətinə müsbət təsir göstərir. Fiziki əməkdən söz açdıqda Həsən bəy Zərdabinin bir fikri yadıma düşür. O, yazırdı ki: «Fiziki əmək necə deyərlər, xəstəlikləri müalicə edir, şərə qalib gəlir, insanda əxlaqi intibah əmələ gətirir».[21]

Bir məsələni də heç zaman unutmamalıyıq ki, elmə yiyələnməyə başladığımız andan etibarən müəyyən çətinliklərin ortaya çıxması təbiidir. Bu zaman görüləcək ilk tədbir bu amilləri tanımaq və onunla mübarizə aparmaqdır.

## Elmə yiyələnmək yolunda qarşıya çıxan maneə və çətinliklər

Elm hər şeydən öncə ibadətin bir növüdür. İbadət isə niyyətsiz təsəvvür olunmur. Niyyət hər bir əməlin əsasıdır və buna görə də onsuz yerinə yetirilən istənilən ibadətin heç bir faydası yoxdur. Uca Allah buyurur:

---

[20] Nizami Gəncəvinin «Leyli və Məcnun» əsəri, səh.40.
[21] A. Mikayılovun «Əməyin estetikası» əsəri, səh.23.

﴿ وَمَآ أُمِرُوٓا۟ إِلَّا لِيَعْبُدُوا۟ ٱللَّهَ مُخْلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ وَيُقِيمُوا۟
ٱلصَّلَوٰةَ وَيُؤْتُوا۟ ٱلزَّكَوٰةَ ۚ وَذَٰلِكَ دِينُ ٱلْقَيِّمَةِ ﴿٥﴾

**«Halbuki onlara əmr edilmişdi ki, Allaha – dini yalnız Ona məxsus edərək, digər bütün batil dinlərdən islama dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgun din budur!»[22]**

Ömər ibnu-l-Xəttab (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Əməllər niyyətlərə görədir və hər bir kəsin etdiyi əməl niyyəti ilə ölçülür[23]….»[24]

Bu ayə və hədis niyyətin vacib olduğunu bəyan edir. Niyyətsiz əməl olmadığı kimi sonradan dəyişdirilmiş niyyət əmələ xələl gətirir. Daha dəqiq desək elmə yiyələnməyə mane olan başlıca amillərdən biri də niyyətin dəyişdirilməsidir. İnsan daim niyyəti üzərində nəzarətçi olmalı, onun başqa istiqamətə (əmələ xələl gətirəcək və ya onu batil edəcək) yönəlməsinə yol verməməlidir. Bu çətinliyi nəzərə alan Süfyan əs-Səuri demişdir: «Ən çətin islah etdiyim şey niyyətimdir».[25]

Elm öyrənməyə mane olan digər bir amil də şan-şöhrətə həris olmaqdır. Bu çox qorxulu bir bəladır. Çünki şan-şöhrətə hərislik insanı riyakara çevirir. Riyakarlıq isə kiçik şirkdir. Əbu Hureyrə (r.a.) rəvayət edir ki, mən Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - belə dediyini eşitdim: «Qiyamət günü üç sinif insan ilk mühakimə olunan insanlardan olacaqlar. Şəhid Allahın hüzuruna gətiriləcək və Allah ona bəxş etdiyi nemət-

---

[22] «əl-Bəyyinə» surəsi, 5-ci ayə.

[23] Günah və ya savab qazanır.

[24] Buxarinin «Səhih» əsəri 1; Muslimin «Səhih» əsəri 4904.

[25] «Təzkiratu-s-sami vəl-mutəkəllim», səh.68.

lər haqqında xəbər verib deəyəcək: "Bu nemətlərin müqabilində nə etmisən?" O deyəcək: "Sənin yolunda vuruşub şəhid olmuşam". Allah da ona deəyəcək ki; "Yalan deyirsən, sənə “qəhrəmandır„ deyilsin deyə vuruşmusan və ona da nail olmusan". Sonra əmr olunacaq və o üzü üstə sürüklənib cəhənnəmə atılacaq. Sonra elm öyrənmiş və onu insanlara öyrətmiş, çoxlu Quran oxumuş bir şəxs Allahın hüzuruna gətiriləcək və Allah ona bəxş etdiyi nemətlər haqqında xəbər verib deyəcək: "Bu nemətlərin müqabilində nə etmisən?" O deyəcək: "Sənin xatirinə elm öyərənib onu insanlara öyrətmişəm və Quran oxumuşam". Allah da ona deyəcək ki; "Yalan deyirsən, sənə “alimdir„ deyilsin deyə elm öyrənmisən və sənə “qaridir„ (gözəl Quran oxuyan) deyilsin deyə Quran oxumusan və ona da nail olmusan". Sonra əmr olunacaq və o üzü üstə sürüklənib cəhənnəmə atılacaq. Sonra, Allah tərəfindən çoxlu var-dövlət verilmiş bir şəxs Onun hüzuruna gətiriləcək və Allah ona bəxş etdiyi nemətlər haqqında xəbər verib deyəcək: "Bu nemətlərin müqabilində nə etmisən?" O deyəcək: "Var-dövlətimi Sənin xatirinə, Sənin istədiyin yerlərə sərf etmişəm". Allah da ona deəyəcək ki; "Yalan deyirsən, sənə “necə səxavətli insandır„ deyilsin deyə var-dövlətini sərf etmisən və ona da nail olmusan". Sonra əmr olunacaq və o üzü üstə sürüklənib cəhənnəmə atılacaq».[26] Bişr ibnu-l-Haris demişdir: «Şan-şöhrət sevən Allahdan qorxmaz».[27] Əhməd ibn Hənbəl demişdir: «Özünü tanıyan insana başqalarının tərifi fayda verməz».[28] Şan-şöhrətə aludə olmağın nə dərəcədə təhlükəli olması yuxarıdakı ayə, hədis və əsərlərin mətnindən açıq-ay-

[26] Muslimin «Səhih» əsəri 4900.
[27] «Siyəru aləmu-n-nubələ», 11/216.
[28] «Siyəru aləmu-n-nubələ», 11/211.

dın görünür. Şöhrətpərəst insanlar sırasına düşməkdən Allaha sığınıram!

Elm məclislərində iştirak etməyə səhlənkar yanaşmağın özü də insanı tədricən elmdən iraq salır. Uca Allah buyurur:

فَسْـَٔلُوٓاْ أَهْلَ ٱلذِّكْرِ إِن كُنتُمْ لَا تَعْلَمُونَ ﴿٧﴾

**«Əgər bilmirsinizsə, zikr əhlindən** (alimlərdən) **soruşun!»**[29]

Bu barədə *sələf* (keçmişdə yaşamış islam) alimləri demişlər: «Elm özü gəlmir, elmə nail olmaq üçün ona tərəf getmək lazımdır!»[30]

Dünyəvi işləri, müxtəlif məişət problemlərini bəhanə gətirmək də elmə yiyələnməyə mane olan növbəti amillərdəndir. Dəyərli oxucum, bir şeyi tam yəqinliklə deyə bilərəm ki, problem, çətinlik heç zaman bitmir. Çünki biz bu dünyaya imtahan olunmaq üçün gəlmişik. Odur ki, nə vaxtsa problemin bitməsini, qarşıdakı maneələri birdəfəlik olaraq aradan qaldırılacağını düşünmək düzgün olmazdır. Əlbəttə ki, biz çalışmalıyıq ki, bütün maneələri dəf edək. Lakin unutmamalıyıq ki, hər bir işi öz vaxtında görməyimiz, hər bir kəsin üzərimizdə olan haqqlarını vaxtında ödəməyimiz lazımdır. Belə olduqda gündəlik planlarımızın tərkibində elmə də vaxt ayırmağımız istisna edilməməlidir. Çünki, dərs vaxtı başqa işlə məşğul olan və dərsdə iştirak etməyən şəxs tədris yerindən məhrum olduğu kimi, həyatını faydasız işlərə (əxlaqsız film və teleseriallara, qeybət etmək və s.) sərf edən insan da, nəticədə elmdən məhrum olur. Dünyaya imtahan olunmaq üçün gəlməyimizə çox ciddi yanaşmalı və buna

---

29 «əl-Ənbiya» surəsi, 7.

30 «Məalimu fi tariqi taləbi-l-elm» səh:23.

laqeyid olmamalıyıq. Bu məsələ Qurani Kərimdə insanlara bir neçə dəfə xatırladılır. Biz aqibətimiz üçün nəyin faydalı nəyin zərərli olduğunu yalnız öyrənməklə, oxumaqla əldə edə bilərik. Yalnız oxumaqla, öyrənməklə, sözün həqiqi mənasında nəyin halal nəyin isə haram olduğunu bilmək olar. Hərdən məsələ o qədər mürəkkəb olur ki, insanın hətta ağlına belə gəlməz ki, onun gördüyü bu iş haramdır. İslamda bəzən halal buyrulmuş şeylərə belə ifrat dərəcədə meyl etmək bəyənilmir. Qaldırılan problemin anlaşılması üçün Qurani Kərimdən bir ayəni qeyd edək:

﴿ زُيِّنَ لِلنَّاسِ حُبُّ ٱلشَّهَوَٰتِ مِنَ ٱلنِّسَآءِ وَٱلۡبَنِينَ وَٱلۡقَنَٰطِيرِ
ٱلۡمُقَنطَرَةِ مِنَ ٱلذَّهَبِ وَٱلۡفِضَّةِ وَٱلۡخَيۡلِ ٱلۡمُسَوَّمَةِ وَٱلۡأَنۡعَٰمِ
وَٱلۡحَرۡثِۗ ذَٰلِكَ مَتَٰعُ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَاۖ وَٱللَّهُ عِندَهُۥ حُسۡنُ ٱلۡمَـَٔابِ
﴿١٤﴾

**«Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Lakin bütün bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır».**[31]

Bacı və qardaşlarım, itirdiyiniz vaxtın qiymətini bilin! Onu heç nə ilə geri qaytarmaq mümkün olmadığı kimi, yaşanan hər bir günün bizi axirətə yaxınlaşdırmasının qarşısını almaq da mümkün deyil. Vaxtın dəyərini qiymətləndirən əs-Sənani öz şerində belə deyir:

---

[31] «Ali İmran» surəsi, 14.

Təcrübə etməyən bilmir vaxtın dəyərini fəqət,
Sınasan taparsan fikrimizə təsdiq əlbət.[32]

Uşaqlıq çağlarında oxumağa ciddi yanaşmamaq da, gələcəkdə bu sahədə problemlərin yaranmasına səbəb olan amillərdəndir. Əgər nəzərə alsaq ki, ən şərəfli elm Yaradanı tanımaq, Onun tələblərini öyrənmək və həyatda tətbiq etməkdir onda heç şübhəsiz ki, bu bilgilərin elə uşaqlıq yaşlarında mənimsənilməsinin daha səmərəli olması ortaya çıxır. Uca Allah insanın bilgiləri içərisində ən vacib olanına toxunaraq buyurur:

فَٱعۡلَمۡ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا ٱللَّهُ

**«Bil ki, Allahdan başqa ilahi yoxdur».**[33]

Yəni hər bir elmin, hər bir məşğulluq sahəsindəki insan fəaliyyətinin, ümumiyyətlə insan yaşamının əsasını «Allahdan başqa ibadətə layiq haqq məbud olmaması» fikri təşkil etməlidir. Və son dönüşün də məhz Şəriksiz Yaradana olacağı üçün Onun nazil etdiyi birinci növbədə oxunmalı, öyrənilməli və hökümləri həyata keçirilməlidir. Çox təsüflər olsun ki, dövrümüzdə elə insanlara rast gəlirik ki, həyatı boyu bir çox kitablar oxumasına baxmayaraq Allahın nazil etdiyi kitabı – kitabların ən alisini ya hələ oxumamış, ya oxuyub yarımçıq qoymuş və ya heç oxumaq fikrinə belə düşməmişdir. Görəsən on illikləri arxada qoymuş, bir neçə ali məktəb bitirmiş, həyatda müxtəlif vəziyyətlərə düşmüş, bəzən səhv

---

[32] əs-Sən'aninin həcc mərasimindəki şerləri, səh:83.
[33] «Məhəmməd» surəsi, 19.

və bəzən də düzgün hərəkət etmiş kəsin bu müddət ərzində Allahın bu günə qədər təhrifsiz və toxunulmaz qalmış yeganə kitabı olan Quranı oxumamasını hansı məntiqlə izah etmək olar? Görəsən onlar Rəbbimizin hüzurunda duracaqları gün nə cavab verəcəklərinin, özlərinin bu hərəkətlərinə necə haqq qazandıracaqlarının fərqindədirlərmi? Mən hələ elmdən uzaq, bütün həyatını əyləncəyə, eyş-işrətə, çalıb-oxumağa həsr etmiş insaları gözləyən aqibət barəsində bir söz demirəm. Yaradanın onlara münasibəti Onun kitabında açıq-aydın göstərilib. Dinimiz bizə daim oxuyb öyrənməyi və ibadət etməyi tövsiyə edir. Bu barədə Uca Allah belə buyurur:

﴿ وَٱعۡبُدۡ رَبَّكَ حَتَّىٰ يَأۡتِيَكَ ٱلۡيَقِينُ ﴾ ٩٩

**«Və ölənəcən** (əcəlin gəlib çatana qədər) **Rəbbinə ibadət et!»**[34]

Odur ki, oxumaq, öyrənmək üçün vərdişlərin əsasını elə uşaqlıqdan çox möhkəm qoymaq lazımdır ki, sonralar bu əsaslar üzərində qurulacaq elm də uzun ömürlü olsun. Həsən əl-Bəsri təsadüfən deməmişdir ki, «Uşaqlıq çağlarında öyrənilən elm daş üzərində oyulmuş naxışlara bənzəyir».[35] Həmçinin Ömər ibnu-l-Xəttab (r.a.) cavanlıqda elm öyrənməyi nəsihət edib demişdir: «Evlənməmişdən öncə elm öyrənin».[36] Lakin Ömər (r.a.) özü və bir çox digər səhabələr, həmçinin bir çox islam alimləri yaşa dolduqdan sonra elmə yiyələnmişdilər. Bu o deməkdir ki, nə uşaqlıq çağlarında fürsəti əl-

---

34 «əl-Hicr» surəsi, 99.
35 «Camiu bəyanu-l-elm və fadluhu», səh:99.
36 «Fəthu-l-Bari» 1/991.

dən vermək lazımdır nə də yaşa dolduqdan sonra ümidi kəsmək. Oxumaq üçün yaş məhdudiyyəti olmamalıdır.

İnsanı elmdən məhrum edən bir səbəb də onun elmə və elm əhlinə olan nifrətidir. Ən böyük elm peyğəmbərlərdə və sonra onların səhabələrində olub. Peyğəmbərləri yalançı sayanlar nəinki elmdən məhrum olub, hətta Allahın qəzəbinə də düçar olublar: Bu məsələnin aydın olması üçün bir ayəni nəzərdən keçirək:

﴿ وَلَقَدْ ءَاتَيْنَا مُوسَى ٱلْكِتَـٰبَ وَقَفَّيْنَا مِنۢ بَعْدِهِۦ بِٱلرُّسُلِ ۖ
وَءَاتَيْنَا عِيسَى ٱبْنَ مَرْيَمَ ٱلْبَيِّنَـٰتِ وَأَيَّدْنَـٰهُ بِرُوحِ ٱلْقُدُسِ ۗ
أَفَكُلَّمَا جَآءَكُمْ رَسُولٌۢ بِمَا لَا تَهْوَىٰٓ أَنفُسُكُمُ ٱسْتَكْبَرْتُمْ
فَفَرِيقًا كَذَّبْتُمْ وَفَرِيقًا تَقْتُلُونَ ﴿٨٧﴾ وَقَالُوا۟ قُلُوبُنَا غُلْفٌۢ ۚ بَل
لَّعَنَهُمُ ٱللَّهُ بِكُفْرِهِمْ فَقَلِيلًا مَّا يُؤْمِنُونَ ﴿٨٨﴾ ﴾

«[Ey İsrail övladı!] **Biz Musaya** [Tövrat] **verdik, ondan sonra da bir-birinin ardınca peyğəmbərlər göndərdik. Məryəm oğlu İsaya aşkar möcüzələr** [dəlillər] **bəxş etdik və onu müqəddəs ruhla qüvvətləndirdik. Hər dəfə ürəyinizə yatmayan bir əmrlə gələn peyğəmbərə təkəbbür göstərmirdinizmi? Məhz buna görə də onların bir qismini təkzib etdiniz, bir qismini isə öldürdünüz** [Zəkəriyya və ya Yəhya kimi]. **Yəhudilər** [Quranı anlamaq və qəbul etmək barəsində] **dedilər: «Bizim qəlblərimiz örtülü və pərdəlidir». Lakin bu heç də belə deyildir. Əksinə, Allah onlara**

**küfrlərinə görə lənət etmişdir. Buna görə də onların ancaq az bir hissəsi** [İbn Səlam və yoldaşları kimi] **iman gətirər».**[37]

Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** səhabələrinə gəlincə isə onlar Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm –** sonra da dinə heç bir yenilik gətirməmiş, elmi insanlardan gizlətməmiş İslamın nurunu bir çox yerlərə yaymışlar. Elə bu səbəbdən də Allah Qurani Kərimdə belə buyurur:

﴿ وَٱلسَّٰبِقُونَ ٱلۡأَوَّلُونَ مِنَ ٱلۡمُهَٰجِرِينَ وَٱلۡأَنصَارِ وَٱلَّذِينَ ٱتَّبَعُوهُم
بِإِحۡسَٰنٖ رَّضِيَ ٱللَّهُ عَنۡهُمۡ وَرَضُواْ عَنۡهُ وَأَعَدَّ لَهُمۡ جَنَّٰتٖ تَجۡرِي تَحۡتَهَا
ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدٗاۚ ذَٰلِكَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ ١٠٠ ﴾

**«**(İslamı) **ilk əvvəl qəbul edib** (başqalarını bu işdə) **qabaqlayan mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar. Allah onlar üçün əbədi qalacaqları,** (ağacları) **altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, ən böyük qurtuluş və uğurdur!»**[38]

Ona görə Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm -** onların əməyini qiymətləndirərək demişdir: «Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə), hətta yarısına belə çata bilməz».[39] Əli ibn Əbu Talib (r.a.) belə demişdir: «Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm –** səhabələrini söyməməyi sizə tövsiyə edirəm. Onlar Peyğəmbərdən **- səllallahu**

---

[37] «əl-Bəqərə» surəsi, 87-88.
[38] «ət-Tövbə» surəsi, 100.
[39] Buxarinin «Səhih» əsəri, 7/25, 3673-cü hədis.

**aleyhi və səlləm -** sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** də belə vəsiyyət etmişdir».[40] Həqiqətən də İslam dünyası elmə və alimə daim yüksək qiymət verib və alimin şərəfini uca tutub. Məşhur şairlər, yazıçılar, ədiblər öz əsərlərində, şerlərində, məqalələrində alimləri və elm əhlini daim vəsf ediblər. Bunu biz Əhvədinin məşhur İslam alimi Şafei haqqında dediyi misralarda da görürük:

Alim ədalətə meyl etsə özü,
Baxmaz var-dövlətə heç zaman gözü.
Tamah göstərsəydi Şafei vara,
Malilə dolardı Dəclə, aşkara.
Dini yaymaq idi ancaq arzusu,
Odur, əbədidir adı, doğrusu.[41]

Dahi Nizami isə Buxari, Təbəri kimi alimlərin əsərlərindən bəhrələndiyini gizlətmir. Bu isə dahi şairdə elmə və elm əhlinə, alimə hörmətini və onun təvazökar olmasını göstərən amillərdəndir.

Dünyada nə qədər kitab var belə,
Çalışıb əlləşib gətirdim ələ.
Ərəbcə, dəricə yeri düşərkən,
Buxari, Təbəri əsərlərindən…
İzlədim yolunu səyyarələrin,
Nə ki, elmlər var gizli və dərin,
Oxudum xəbərdar oldum da vardım

---

40 «Biharu-l-Ənvar», 22/305-306.
41 Əhvədinin «Cami-cəm» əsəri, səh.115.

Varlıqlar sirrini yer-yer axtardım.[42]

Öyünmək və tərif olunmağı sevmək də elmə nail olmağı əngəlləyən amillərdəndir. Bu barədə Uca Allah buyurur:

﴿ لَا تَحۡسَبَنَّ ٱلَّذِينَ يَفۡرَحُونَ بِمَآ أَتَواْ وَّيُحِبُّونَ أَن يُحۡمَدُواْ بِمَا لَمۡ
يَفۡعَلُواْ فَلَا تَحۡسَبَنَّهُم بِمَفَازَةٖ مِّنَ ٱلۡعَذَابِۖ وَلَهُمۡ عَذَابٌ أَلِيمٞ ١٨٨ ﴾

**«Etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən kimsələrin əzabdan xilas olacaqlarını güman etmə. Onları şiddətli bir əzab gözləyir!»**[43]

فَلَا تُزَكُّوٓاْ أَنفُسَكُمۡۖ هُوَ أَعۡلَمُ بِمَنِ ٱتَّقَىٰٓ ٣٢

**«Özünüzü təmizə çıxartmayın. O, Allahdan qorxub pis əməllərdən çəkinənin kim olduğunu ən gözəl biləndir!»**[44]

﴿ أَلَمۡ تَرَ إِلَى ٱلَّذِينَ يُزَكُّونَ أَنفُسَهُمۚ بَلِ ٱللَّهُ يُزَكِّي مَن يَشَآءُ وَلَا
يُظۡلَمُونَ فَتِيلًا ٤٩ ﴾

**«Özlərini təmizə çıxaranları görmürsənmi? Xeyr elə deyil. Allah istədiyini təmizə çıxardar və onlara xurma çərdəyindəki nazik tel qədər zülm olunmaz!»**[45]

---

42 Nizami Gəncəvinin «Yeddi gözəl» əsəri, səh.26.
43 «Ali İmran» surəsi, 188.
44 «ən-Nəcm» surəsi, 32.
45 «ən-Nisa» surəsi, 49.

Bütün bu ayələr özündən razı olmağın, təkəbbürlü yaşamağın, lüzumsuz özünütərifin yasaq edilməsinə açıq aydın dəlildir. Lakin bununla belə qeyd etmək lazımdır ki, hər hansı bir yaxşı əməl sahibinin – Allaha və Onun rəsuluna - **səllallahu aleyhi və səlləm** - sözsüz itaət edən, elmli, əxlaqlı, qeyrətli, namuslu, vicdanlı, zəhmətkeş, tabeliyində olduğu rəhbərlərə qarşı itaətkar və sədaqətli olan, üzərinə düşən Allahın, Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - valideyinin, həyat yoldaşın, övladın, qonşunun, qohumun və hətta kafirin belə haqqlarını lazımınca ödəyən və s. bu kimi həqiqi möminə layiq xüsusiyyətləri özündə cəmləşdirən bir kimsənin özündən aslı olmayaraq tərif olunması bu ayələrdə toxunulan tərifə aidiyyatı yoxdur. Bu iki tərif arasındakı fərqi aşağıdakı hədisdən də açıq aydın görmək olar:

Əbu Zər (r.a.) rəvayət edir ki, Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - soruşdular: «Ey Allahın elçisi, bəs xeyirxah əməl edən və buna görə də insanlar tərəfindən təriflənən necə?» O dedi: «O möminin hal-hazırkı müjdəsidir!»[46]

Həmçinin qeyd etmək lazımdır ki, lazım gəldikdə kiminsə öhdəsindən gələ biləcəyi işin ona etibar edilməsi üçün özünün yaxşı keyfiyyətlərini mübaliğəsiz, ifrata varmadan qeyd etməsində heç bir qəbahət yoxdur. Bu barədə Uca Allah belə buyurur:

﴿قَالَ ٱجْعَلْنِى عَلَىٰ خَزَآئِنِ ٱلْأَرْضِ ۖ إِنِّى حَفِيظٌ عَلِيمٌ ﴿٥٥﴾﴾

**«Yusif dedi: "Məni Misirin xəzinələrinə məmur təyin et** (Misir xəzinələrini mənə tapşır)**, çünki mən** (özümə etibar

[46] Muslimin «Səhih» əsəri 6663.

edilən mal-dövləti) **qoruyan və** (işləri idarə etməyi) **billənəm!"»**[47]

Öyrənilən elmə əməl etməmək də son nəticədə mənimsənilən bilgilərin unudulmasına, bu da öz növbəsində kamil elm xadimi olmamasına səbəb olan amildir. Yəni elm təcrübədə möhkəmlənir, əks təqdirdə isə unudulur. Bu barədə Uca Allah belə buyurur:

﴿ وَٱلْعَصْرِ ۝١ إِنَّ ٱلْإِنسَـٰنَ لَفِى خُسْرٍ ۝٢ إِلَّا ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّـٰلِحَـٰتِ وَتَوَاصَوْا۟ بِٱلْحَقِّ وَتَوَاصَوْا۟ بِٱلصَّبْرِ ۝٣ ﴾

**«And olsun axşam çağına ki, insan ziyan içndədir! Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!»**[48]

Əziz həmvətənlərim! İstərdim ki, bu surədə sadalanan əməllərin ardıcıllığına diqqət edəsiniz. Bu surədə iman gətirməyin yaxşı əməllər etməkdən əvvəl gəlməsi, «mənim heç kəsə pisliyim keçmir, ürəyim təmizdir odur ki, ibadət etməsəm də Allah məni bağışlayar» deyənlərin fikirlərinin əsassızlığına daha bir sübutdur. Yəni Uca Allah yaxşı əməli, xeyirxahlığı, səxavətli olmağı və s. digər əməlləri yalnız və yalnız iman gətirdikdən sonra qəbul edəcəyini vurğulayır. «İman gətirdim» deyən şəxs isə 4 şərti özündə birləşdirməlidir: Birincisi – qəlbdə etiqad etmək (iman gətirmək), ikincisi – dillə təsdiq etmək, üçüncüsü – əməllə həya-

---

47 «Yusif» surəsi, 55.
48 «əl-Əsr» surəsi, 1-3.

ta keçirmək (və ya əməldə sübut etmək) və nəhayət dördüncüsü – bütün bunları həyata keçirdikdə, artıq qədərə yazılmış, olacaq çətinliklərə səbr etmək. Deməli əməl imandandır. Bu barədə Uca Allah belə buyurur:

﴿ مَثَلُ ٱلَّذِينَ حُمِّلُواْ ٱلتَّوْرَىٰةَ ثُمَّ لَمْ يَحْمِلُوهَا كَمَثَلِ ٱلْحِمَارِ
يَحْمِلُ أَسْفَارَۢا ۚ بِئْسَ مَثَلُ ٱلْقَوْمِ ٱلَّذِينَ كَذَّبُواْ بِـَٔايَـٰتِ ٱللَّهِ ۚ وَٱللَّهُ لَا
يَهْدِى ٱلْقَوْمَ ٱلظَّـٰلِمِينَ ۝٥ ﴾

**«Tövrata əməl etməyə mükəlləf oldüqdan sonra ona əməl etməyənlər** (Tövrata iman gətirdikdən, onu oxuyub öyrəndikdən sonra hökmlərini lazımınca yerinə yetirməyənlər) **belində çoxlu kitab daşıyan** (lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan) **ulağa bənzərlər.** (Məhəmmədin həqiqi peyğəmbər olmasına dair) **Allahın ayələrini yalan sayanlar barədə çəkilən məsəl necə də pisdir! Allah zalim** (kafir) **qövmü doğru yola yönəltməz!»**[49]

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لِمَ تَقُولُونَ مَا لَا تَفْعَلُونَ ۝٢ كَبُرَ
مَقْتًا عِندَ ٱللَّهِ أَن تَقُولُواْ مَا لَا تَفْعَلُونَ ۝٣ ﴾

**«Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar».**[50]

---

[49] «əl-Cumə» surəsi, 5.
[50] «əs-Səff» surəsi, 2-3.

Əməl etmək məsələsinə toxunan ibn Məsud (r.a.) rəvayət edir ki, «bizdən birimiz on ayə öyrəndikdən sonra onların mənasını dərk edib (hökmlərinə) əməl etməyincə başqa ayə öyrənməzdik».[51] Əli ibn Əbu Talib (r.a.) demişdir: «Elm əməl ilə cilovlanır, əks halda isə (elmə əməl etmədikdə) sahibini tərk edir».[52]

Hicri tarixi ilə səkkizinci əsrdə yaşamış Zəhəbi əməlin azlığından narahat olaraq demişdir: «Artıq bu gün bizə əvvəllərdən məlum olan elmdən cüzi bir elm qalıb ki, bu elmin az bir hissəsi tək-tək adamlara məlumdur. Onların içərisində bu cüzi qalan elmə belə əməl edən nə qədər də azdır! Allah bizə bəs edər. O nə gözəl vəkildir!»[53]

Elm öyrənməyə mane olan və ya onun yolunu çətinləşdirən amillərdən biri də ümüdi kəsmək günah işlərdən çəkinməməkdir. Elm öyrənməyi qarşısına məqsəd qoyan bacı və qardaşlarım! Unutmayın ki, biz də bu gün bəşəriyyətə məlum olan alimlər kimi bir insanıq və onlar kimi ola bilməyimiz Allahın izni ilə öz əlimizdədir. Bunun üçün bir neçə xüsusiyyətə malik olmaq lazımdırsa onlardan biri də etdiyimiz günahlara son qoymağımızdır. Digər bir xüsusiyyət də qulaq, göz, qəlb və s. kimi bizə verilən nemətləri xatırlayıb buna görə Allaha şükr etməli və onlardan səmərəli istifadə etməyimizdir. Uca Allah belə buyurur:

---

51 İbn Kəsirin təfsiri, səh:1/2.

52 «əl-Cami»,2/11.

53 «Təzkiratu-l-huffaz» 2/1031.

﴿ وَٱللَّهُ أَخۡرَجَكُم مِّنۢ بُطُونِ أُمَّهَٰتِكُمۡ لَا تَعۡلَمُونَ شَيۡـٔٗا وَجَعَلَ
لَكُمُ ٱلسَّمۡعَ وَٱلۡأَبۡصَٰرَ وَٱلۡأَفۡـِٔدَةَ لَعَلَّكُمۡ تَشۡكُرُونَ ٧٨ ﴾

**«Allah sizi analarınızın bətnlərində heç bir şey bilmədiyiniz** (dərk etmədiyiniz) **halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki,** (Allahın əmrlərini eşidib, qüdrətini və əzəmətini görüb, vəhdaniyyətini duyub) **bəlkə şükr edəsiniz!»**[54]

Bu məsələ ilə bağlı bir neçə alimin dediklərinə nəzər yetirək:

Əbu Hilal əl-Askəri demişdir: «Mənim hafizəm çox zəif idi. Mən özümü o qədər öyrəşdirdim ki, artıq günlərin birində iki yüz beytə yaxın "rubə" qəsidəsini bir gecədə əzbərlədim».[55]

Şafei öz şerində demişdir:

Şikayət etdim Vakiyə hivzin zəyifliyindən,
Tövsiyəsi bu oldu: «Əl çək asiliyindən».
Sonra bəyan eylədi; «elm deyərlər nura»,
Bil ki, Allahın nuru verilməz asi qula.[56]

Buxaridən unutqanlığın əlacı haqqında soruşduqda o dedi: «Bunun əlacı kitablara daima nəzər salmaqdır».[57]

Bu günün işini sabaha qoymaq elm öyrənməkdə başlıca maneələrdən sayılır. Bu fikri özünə yaxın buraxmayan öyrənci heç şübhəsiz ki, Allahın köməyi ilə uğura yetişəcəkdir. Bu fikri bir də sabaha sağ çıxacağımıza zəmanətimiz olma-

---

54 «ən-Nəhl» surəsi, 78.
55 «əl-Həssu alə taləbi-l-elm vəl-ictihadu fi təhsilihi» səh:71.
56 «Məalimu fi tariqi taləbi-l-elm» səh:31.
57 «Məalimu fi tariqi taləbi-l-elm» səh:31.

dığımız üçün özümüzə yaxın qoymamalıyıq. Həqiqətən də bir dəqiqə sonra nə olacağını Allahdan başqa heç kəs bilə bilməz. Gələcəyi bilən yalnız Allahdır.

Abdullah ibn Ömər (r.a.) rəvayər edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm -** ona belə demişdir: «Dünyada sanki qərib və ya səyyah kimi ol!»

Abdullah ibn Ömər (r.a.) də (hər dəfə bu hədisi rəvayət etdikdən sonra öz sözlərini əlavə edib) deyərdi: «Axşam olduqda səhərə sağ qalacağına və səhər olduqda da axşama sağ qalacağına arxayın olma! Sağlamlığından xəstəlik gələnədək, həyatından da ölüm gələnədək istifadə et!»[58]

İbn Məsud (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm -** dedi: «Qiyamət günü hər bir qul beş şey haqqında, ömrünü nəyə sərf etdiyini, cavanlığını necə keçirdiyini, var-dövləti haradan qazanıb, nəyə xərclədiyini və öyrəndiyi elmə necə əməl etdiyi barəsində soruşulmayınca ayağını Rəbbinin hüzurundan çəkməyəcək».[59]

Odur ki, əziz bacı və qardaşlarım! Elm öyrənmək üçün xüsusi bir gün və ya həftə arama. Unutma ki, hər gün elmə yiyələnmək üçün əlverişlidir. Bu gün görməli olduğun işi ertəsi günə saxlama, çünki hər açılan sabah səni öz qayğıları və öz problemləri ilə salamlayır.

Hədəfimiz elmə yiyələnməyə mane olan digər bir amilədir. Bu da bütün dövrlər üçün aktual bir məsələ olan insanın dostu haqqındadır. Zaman-zaman bir çox mübahisələrin, anlaşılmazlıqların mövzusu olan dostluq məfhumunun dərk edilməsi insanın həyat təcrübəsi ilə bağlı bir problemdir. Bu gün cəmiyyətimizdə elə bir insan tapılmaz ki, bu problemin

---

[58] Səhihu-l-Buxari, 6416.

[59] «əl-Musnəd» 2/254; «Sunənu-t-Tirmizi» 2/67; «Silsilətu-l-əhadisi-s-sahihə» 2/629 – 946-cı hədis.

yükünü bircə dəfə də olsun öz çiynində daşımış olmasın. Bu bir insanın digər bir insanın qəlbindən keçənləri duya bilməməsinə görədir. Bu xüsusiyyət yalnız Allaha xas olduğu üçün insan burada acizdir. Bu barədə Uca Allah belə buyurur:

﴿ أَلَآ إِنَّهُمۡ يَثۡنُونَ صُدُورَهُمۡ لِيَسۡتَخۡفُواْ مِنۡهُۚ أَلَا حِينَ يَسۡتَغۡشُونَ
ثِيَابَهُمۡ يَعۡلَمُ مَا يُسِرُّونَ وَمَا يُعۡلِنُونَۚ إِنَّهُۥ عَلِيمُۢ بِذَاتِ ٱلصُّدُورِ
٥ ﴾

**«Allah onların gizli saxladıqları və aşkar etdikləri hər şeyi bilir. Allah ürəklərdə olanları biləndir».**[60]

Elə bu səbəbdəndir ki, bəzən on illərlə oturub durduğumuz insanları tanıya bilmirik. Onların həqiqi sifətini anladıqda bəzən sarsılır, bəzən sevinir, bəzən isə onun bu halına sadəcə acıyaraq təəssüf hissləri keçiririk. Dost seçdiyimiz insanlarla nə cür münasibətdə olmağımız, onun ilk öncə hansı xüsusiyyətlərini nəzərə alıb dost qəbul etdiyimiz kimi vacib problemlərə, ümumiyyətlə həqiqi dost deyəndə nəyi başa düşməliyik kimi məsələlər cəmiyyətin ən ali yaradılışı olan insanın bir qaçılmaz tələbatı olduğu üçün kamil bir din olan İslamda öz əksini tapmaya bilməzdi. Bu problemin həllində qazanacağımızın itirəcəyimizdən çox olmasını istəyiriksə hər şeyi bilən Allahın qoyduğu qanunlara riayət etməkdən başqa çarəmiz qalmır. Bu məsələyə Qurani Kərimdə bir neçə dəfə toxunulur:

---

[60] «Hud» surəsi, 5.

وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُۥ عَن ذِكْرِنَا وَٱتَّبَعَ هَوَىٰهُ وَكَانَ أَمْرُهُۥ فُرُطًا ﴿٢٨﴾

**«Qəlbini bizi xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və** [hər] **işində ifrata varan bir kimsəyə itaət etmə!»**[61]

﴿ فَأَعْرِضْ عَن مَّن تَوَلَّىٰ عَن ذِكْرِنَا وَلَمْ يُرِدْ إِلَّا ٱلْحَيَوٰةَ ٱلدُّنْيَا ﴿٢٩﴾ ﴾

**«Artıq** [Ya Peyğəmbər] **Bizim Quranımızdan üz çevirib dünya həyatından başqa bir şey istəməyənlərdən üz döndər!»**[62]

Bu ayələr dost seçəndə onun hansı keyfiyyətlərinə fikir verməli olmağımızı bizə açıqca göstərir. Uca Allah bu məsələdə imanı əsas göstərərək nəfsinin tələblərinə uyan, nəfsinin qulu olan, dindən, elmdən uzaq, Onun endirdiyi kitaba inanmayan, göndərdiyi Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** yolu ilə (sünnəsi ilə) getməyənlərdən uzaq olmağı əmr edir. Çünki belə insanlarla dostluq etmək səni də zəiflədə və imandan döndərə bilər. Bu insanlara sən təsir edə bilməsən onlar sənə mütləq təsir edəcəkdir. Bu işdə şeytan da onlara yardımçı olur. İnsan cahil dostlarla oturub-durduqda tədricən elmdən uzaq düşür və bu onun zəifləməsi ilə nəticələnir. Ona görə də dinimiz bizə Allaha və Onun Rəsuluna **- səllallahu aleyhi və səlləm –** asi olan insanlarla çox yaxın olmağı məsləhət görmür. Əbu Musa (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** belə demişdir: «Yaxşı dostla pis dost misalı ətir satanla, körük vuranın misalına bənzəyir. Ətir satanla ünsiyyətdə olduqda ondan ətir almasan belə ətrin

---

61 «əl-Kəhf» surəsi, 28.
62 «ən-Nəcm» surəsi, 29.

iyindən ləzzət alacaqsan, körük vuranla bərabər olduqda isə paltarını yandırmasan da tüstüsündən əziyyət çəkəcəksən».[63]

Bu həqiqətən də belədir. Əgər özünü dost adlandıran hər hansısa bir insan səni elm məclisinə, savab qazanmağa deyil, əyləncəyə, eyş-işrətə və ümumiyyətlə dinin qadağan etdiyi şeylərə dəvət edirsə bil ki, o artıq sənə düşmən kəsilib. Düzdür səndəki nəfs səni belə şeylərə çəkir və «dostun» da buna səbəb olur, bununla sənə həqiqi dost olmasını sübut etməyə çalışır. Bil ki, baxmayaraq ki, siz bu dünyada bir-birinizə haram işlərə görə dostsunuzsa heç şübhə yoxdur ki, qiyamət günü düşmən olacaqsınız. Allaha və Onun rəsuluna **- səllallahu aleyhi və səlləm -** asilik üzərində qurulan əməllərlə bir-birinə bağlı olan dostlar qiyamət günü bir-birilərinə düşmən olacaqlar. Onlardan olan biri digərini onu azdırmaqda ittiham edəcək, ona daha çox əziyyət verilməsini tələb edəcək, lakin onların heç birinin sözlərinə əhəmiyyət verilməyəcək. Çünki onlar verilmiş vaxtdan istifadə edə bilmədilər. Dünya həyatı onları aldatdı. İndi isə onların dostluğundan söhbət gedə bilməz. Bu barədə Uca Allah belə buyurur:

﴿ ٱلْأَخِلَّآءُ يَوْمَئِذٍۭ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلَّا ٱلْمُتَّقِينَ ٦٧ ﴾

**«Müttəqilər müstəsna olmaqla, o gün dostlar bir-birinə düşmən kəsiləcəklər!»[64]**

Əziz bacı və qardaşlarım! Mən sizə bu cür rəfiqə və dostlardan uzaq olmağı arzulayıram. Gəlin elə insanlarla dostluq edək ki, bizdə oxumağa, elmə həvəs oyatsın. Çünki məhz

---

[63] Buxarinin «Səhih» əsəri, 2101; Muslimin «Səhih» əsəri, 6635.
[64] «əz-Zuxruf» surəsi, 67.

elmli insan Allahdan daha çox qorxur. Uca Allah belə buyurur:

إِنَّمَا يَخۡشَى ٱللَّهَ مِنۡ عِبَادِهِ ٱلۡعُلَمَٰٓؤُاْۗ

**«Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar!»[65]**

Gəlin elə insanlarla dostluq edək ki, onları görəndə imanımız artsın. Unutmayaq ki, kimi sevirsənsə, kiminlə oturub-durursansa, kimə itaət edirsənsə qiyamət günü də onunla birlikdə olacaqsan. Elə buna görə də İslam Peyğəmbəri - **səllallahu aleyhi və səlləm** – insanların ən xeyirlisi, dostların ən yaxşısı, ideal tutulmağa layiq yeganə insan belə demişdir: «Kişi sevdiyi kəslə birgə olacaqdir».[66]

Sizə dinimizdə olub onun qanunları ilə yaşayan dostlar arzulayıram!

## Elm məclislərindən faydalanmağın yolları

Müxtəlif elmlərə, xüsusilə də elmlərin ən alisi olan İslam elminə yiyələnməyi qarşısına məqsəd qoyan bacı və qardaşlarımın qarşılaşacaqları ehtimal olunan müxtəlif maneə və çətinliklərə toxundum. Qeyd etməliyəm ki, bu çətinliklərlə mübarizənin daha səmərəli olması üçün elm məclislərində müntəzəm olaraq iştirak etmək və bu məclislərdən faydalanmağın yollarını bilmək lazımdır.

Bu gün cəmiyyətin həyatında elmin rolunun durmadan artması başlıca olaraq elmi-texniki tərəqqi, inkişaf etmiş

---

65 «Fatir» surəsi, 28.
66 Buxarinin «Səhih» əsəri, 6168.

ölkələrlə əlaqələrin genişlənməsi, insanın maddi təlabatının ödənilməsi üçün yeni texnalogiyaların yaradılması ilə bağlıdır. Azad bazar münasibətlərinin yaranması, rəqabətin güclənməsi, bacardıqca az işçi qüvvəsinin köməyi ilə daha çox məhsul əldə edilməsinə olan meylin artması təbii olaraq yüksək elmi kadr potensialının hazırlanmasını tələb edir. Bütün bu sadalanan amillərin fonunda elmin inkişafının qarşısı alınmazdır. Deməli şərait bizdən də bir fərd olaraq elmi cəhətdən inkişaf etməyi tələb edir. Belə olan halda fərqi yoxdur hansı sahə olursa-olsun həmin sahəni mükəmməl bilməyimiz lazımdır. Bu cür elmi inkişaf atmosferində «qoy desinlər ki, filankəsin oğlu filan məktəbdə oxuyur», və ya «qızımın cehizi üstünə bir ali məktəb diplomu da qoydum» kimi primitiv düşüncə tərzinə malik insanların övladlarının nəyin bahasına olursa olsun mütləq ali məktəbdə oxutmasına can atması da mənasız görünəcəkdir. Çünki mərkəzi dövlət iqtisadi idarəçiliyinin xüsusi mülkiyyətçilərə verilməsi, orta təbəqənin formalaşdırılması, daha çox gəlir götürməyə meylin artacağı şəraitdə savadsız, bacarıqsız lakin diplomlu kadr heç kəsə lazım olmayacaqdır. Belə olan təqdirdə təbii ki, elm ocaqlarına sözün həqiqi mənasında elm almağa gedənlərin sayı artacaqdır. Odur ki, gələcəyini düşünən və vaxtının qədrini bilən kəs ləngimədən elm məclislərindən möhkəm yapışmalıdır. Mən elm dedikdə həm dünyəvi, həm də dini elmləri nəzərdə tuturam. Çünki dini elmlərdən uzaq olan şəxs əldə etdiyi dünyəvi biliklərlə (əgər əldə edibsə) yalnız maddi tələbatını ödəyəcək, dünyası üçün çox işlər görsə də axirəti üçün heç bir hazırlıq görməyəcəkdir. Dini biliklər həm də bir stimul rolu oynayır. Din mənəviyyatdır. Mənəviyyatı zəngin, iradəsi güclü olan insan cəmiyyət üçün, vətəni və ailəsi üçün daha əzmlə çalışır və yüksək nailiyyətlər əldə edir. Elə isə

vaxtı itirmədən elm məclislərinə tələsin. Allahın iradəsindən kənarda baş verə biləcək heç bir hadisə olmadığı üçün cəmiyyətin inkişafı və bu inkişafla bağlı qanunauyğynluqların həqiqi mahiyyətini anlamaq üçün dini bilgilər əvəzsizdir. Dahi Nizaminin oğlum Məhəmmədə nəsihət başlığı altında yazdığı beytlərə diqqətinizi yönəltməklə fikrimi əsaslandırardım:

Bilik kəsb etməklə dünyanı qazan.
Əsmanı oxu ki, məna alasan.
Qaç o sözlərdən ki, mənası boşdur,
İlahi elmlər öyrənmək xoşdur.[67]

Nizamiyə məxsus bu əvəzsiz sətirlərdə çoxlu hikmətlər vardır. Əvvəlcə biliyin rolunu yüksək qiymətləndirən ədib oğluna dünyanı dərk etmək, gündəlik yaşayışında qarşılaşdığın hadisələrin, təbiətdə baş verənlərin mahiyyətini anlamaq üçün əsmanı-yəni Allahın ad və sifətlərini öyrənməyini məsləhət görür. Təbii ki, Nizami bu məsələdə xəta etməyin nə dərəcədə təhlükəli olmasının fərqindəydi. Sonda ilahi elmlərin rolunu qiymətləndirməklə şair əslində özünün ilham mənbəyinin sirlərini açmış olur.

Mən Nizaminin bu fikirləri ilə tamamilə razıyam. Əlbəttə ki, yaradılışın həqiqi mahiyyətini yalnız dini bilgilərlə yəni, Qurani Kərim və Peyğəmbərimizin - **səllallahu aleyhi və səlləm** - sünnəsini öyrənməklə dərk etmək olar. Hesab edirəm ki, cəmiyyətin inkişaf qanunlarını Allah və Onun rəsulunun - **səllallahu aleyhi və səlləm** - verdiyi bilgilər əsasında öyrənsək bu məsələdə səhv etmək ehtimalını da sıfra endirmiş olarıq. Bu

---

[67] Nizami Gəncəvinin «Xosrov və Şirin» əsəri, səh.348.

işin də rahat yolu məhz elm məclislərində iştirak etmək və faydalanmaqdır. Bunun üçün hər bir insan özündə bir neçə xüsusiyyətləri birləşdirməlidir ki, bunlar da əsasən aşağıdakılardır.

**– İxlaslı (səmimi) olmaq;**

Elm məclisindən səmərəli isdifadə etmək üçün ilk öncə elmə Allahın rizasını qazanmaq, xeyirxah işlər görmək üçün yiyələnmək lazımdır. Bütün bu gördüyün işlərin əvəzini yalnız Allahdan istəmək də başlıca amillərdəndir. Təəssüflər olsun ki, bir çox «elm öyrənmək istəyənlər» belə məclislərə tamam başqa məqsədlər üçün gedirlər. Bu cür insanlar bilməlidirlər ki, onlar istədiklərinə bu dünyada hətta çata bilsələr belə qiyamət günü bu «nailiyyətlərin» heç bir faydası olmayacaq. Uca Allah buyurur:

﴿ وَقَدِمْنَآ إِلَىٰ مَا عَمِلُوا۟ مِنْ عَمَلٍ فَجَعَلْنَٰهُ هَبَآءً مَّنثُورًا ﴿٢٣﴾ ﴾

**«Biz onların etdikləri əməlləri qəsdən zərrələrə döndərərik!»[68]**

﴿ وُجُوهٌ يَوْمَئِذٍ خَٰشِعَةٌ ﴿٢﴾ عَامِلَةٌ نَّاصِبَةٌ ﴿٣﴾ تَصْلَىٰ نَارًا حَامِيَةً ﴿٤﴾ تُسْقَىٰ مِنْ عَيْنٍ ءَانِيَةٍ ﴿٥﴾ ﴾

«[O gün] **bir çox üzlər zəlil görkəm alacaq. Zəhmət çəkib yorulacaq. Yanar oda girəcəkdir. Və onlara qaynar bulaqdan** [su] **içirdiləcəkdir».[69]**

---

[68] «əl-Furqan» surəsi, 23.
[69] «əl-Ğaşiyə» surəsi, 2-5.

İbn Abbas (r.a.) və Qatadə bu ayəni izah edib demişlər: «Onlar çox əməllər etmiş və üzülüb əldən düşmüşlər, lakin nəticə də (bu əməllər Allah xatirinə olmadığından) qiyamət günü yanar oda düçar olacaqlar».[70]

**– Elm məclislərində davamiyyətli iştirak etmək;**

Tarixə nəzər salsaq görərik ki, müsəlman sözü daim elmlə yanaşı işlənib. Müsəlman elmsiz təsəvvür edilməzdir. Lakin acınacaqlı haldır ki, yabançı davranış və hadisələrin təsiri nəticəsində müsəlmanlar tədricən elmdən uzaqlaşmışlar. Əgər yeddinci əsrdə bu qövmə (müsəlmanlara) bildirilən elm yer kürəsinin sükunətdə deyil məhz hərəkətdə olduğunu nəzərə çatdırıbsa, bunun əksinə olaraq çox-çox əsrlər sonra bu fikrə düşən yabançı qövm alimləri tonqallarda yandırılırdı. Bəs necə ola bilər ki, bu gün alimə daim hörmət qoyan bir qövm, haqq sözü dediyi üçün alimi tonqalda yandıran qövmdən geri qalır? Necə ola bilər ki, bir zamanlar bütün dünyaya elm ixrac edən müsəlmanlar bu gün bir çox hallarda eyni adlı neməti idxal etmək məcburiyyətində qalır? Bütün bunlar bizim əbədi deyil müvəqqəti hisslərin dalınca qaçmağımız, dünyanın aldadıcı həzzinə uymağımız və ən başlıcası isə islamın bizdən tələb etdiklərindən uzaq düşməyimizə görədir. İslamın düşünən beyinləri bilərəkdən və ya bilməyərəkdən çox zaman faydasız sahələrə - keçmişdə baş verən ixtilafları araşdırıb, nəticə çıxarmaq üçün yox, aralarında olan birliyi pozmaq üçün yönəldilibdir. Əslində elə bu ixtilafların mütəmadi olaraq qabardılması müsəlmanları daim parçalanmış vəziyyətdə saxlamış və müsəlman ümmətini elm öyrənməkdən çox bu məsələlərdə kimin

[70] İbn Kəsirin təfsiri, 4/648.

günahgar olmasının araşdırılmasına yönəltmişdir. Bu ixtilaflarda haqlı-günahgar axtaranlar bilməlidirlər ki, biz geriyə deyil irəliyə addımlayırıq. Bizi qarşılayan gələcək bizdən elmli olmağı, yüksək mədəniyyətə və əxlaqa malik olmağı tələb edir. Keçmişdəkilərə gəlincə isə arxayın olun ki, siz onlar barəsində soruşulmayacaqsınız. Necə ki, keçmiş qövmə münasibətdə Uca Allah buyurur:

﴿ تِلْكَ أُمَّةٌ قَدْ خَلَتْ ۖ لَهَا مَا كَسَبَتْ وَلَكُم مَّا كَسَبْتُمْ ۖ وَلَا تُسْأَلُونَ

عَمَّا كَانُوا يَعْمَلُونَ ﴿١٣٤﴾ ﴾

**«Onlar bir camaat idilər ki, keçib getdilər. Onların kəsb etdikləri** [qazandıqları əməllər] **özlərinə, sizin kəsb etdiyiniz isə sizə aiddir. Onların əməlləri barəsində sizdən sorğu-sual olunmaz».**[71]

İslam tarixində şanlı səhifələrin sayı həddən artıq çoxdur. Lakin bununla belə bu tarixdə hər bir müsəlmanın ürəyini ağrıdacaq hadisələr və çəkişmələr də olmuşdur. Lakin heç vaxt düşünməyin ki, bir-birinə qılınc qaldıran qardaşlar arasında əqidə ayrılığı olmuşdur. Onlarda əqidə ayrılığı heç zaman olmayıb. Çəkişmələrin əsas səbəbi isə vahid amala, ali məqsədə çatmaqda hər bir döyüşən tərəfin öz mövqeyi olmasında idi. Yəni problem dini-ideoloji ayrıseçkilik deyil, məhz siyasi xarakter daşıyıb. Bu onların Allah tərəfindən müəyyən etdiyi taleləri idi. Bizim qarşımızda duran vəzifə isə onların buraxdıqları səhvləri buraxıb ixtilafa düşməmək, dinimizin mənafeyi, millətimizin gələcəyi naminə elmin bütün sahələrində elə nailiyyətlər əldə etməkdir ki, bu, xalqı-

[71] «əl-Bəqərə» surəsi, 134-cü və 141-ci ayələr.

mızı irəliyə apararaq tərəqqiyə qovuşdursun. Bu həm dinimizin tələbidir, həm də bu günün reallığıdır. Elmdə nəaliyyətlər əldə etmək üçün isə elm məclislərində davamlı iştirak etmək lazımdır. Hər bir insan dərslərdə davamiyyətli, müntəzəm olaraq iştirak edirsə Allah onun bərəkətini artırır, işlərini yüngülləşdirir və ona elmi mənimsəməyə kömək edir. Cəmiyyətdə maarifçilik işləri artdıqca cəhalətə artıq yer qalmır. Elə isə gəlin bu gözəl nemətdən özümüzü məhrum etməyək. Heç kəs zənn etməsin ki, elm irsən keçən bir nemətdir. Xeyr! Atası alim olanın övladının da bir gün mütləq alim olacağını düşünmək ən azı sadəlövhlük olardı. Elmə yalnız səy göstərməklə nail olmaq olar. Bu məsələyə toxunan Malik ibn Ənəs demişdir: «Elmi miras etməyən Allaha həmd olsun!»[72] Hər bir insan bu yolda var gücünü ortaya qoymalı, nəfsini xeyirxah işlərə yönəltməli və şər işlərdən çəkindirməlidir. Əbu Hüreyrə (r.a.) rəvayət edir ki, «Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: Elmə öyrənməklə, həlim olmağa isə mülayimliklə yiyələnmək olar. Xeyrə nail olmaq üçün səy göstərən onu əldə edər, şərə düşməmək üçün səy göstərən də ondan qorunar.»[73] Zəhəbi rəvayət edir ki, «Ənəs ibn Malik (r.a.) məsciddə səhər-axşam dərs deyirdi. Onun tələbələri[74] iki qismə bölünmüşdülər. Bir qismi səhər, digər qismi isə axşam bu dərslərdə iştirak edirdi. Qatadə ibn Dəamətə-s-Sədusi də Ənəsin (r.a.) tələbələrindən idi. O, kor idi, lakin buna baxmayaraq dərslərin hər ikisində (səhər və axşam) iştirak edirdi. Bir gün Ənəs ibn Malik (r.a.) axşamkı dərsə gecikdi və Qatadə səhər Ənəs ibn Malikdən (r.a.)

[72] «Məalimu fi tariqi taləbi-l-elm» səh:56.

[73] «Silsilətu-l-əhadisi-sahihə» 342, «Səhihu-l-cami» 2328. **[Hədis həsəndir]**

[74] Tabiinlər.

eşitdiklərini əvvəldən axıra qədər onlara danışdı. O danışarkən Ənəs (r.a.) kənarda sakit durub ona tamaşa edirdi. Onun belə gözəl başa düşmə qabiliyyətinə və güclü hafizəyə malik olduğunu görən Ənəs (r.a.) ona yaxınlaşıb dedi: «Artıq sən mənim elmimə yiyələndin!»[75]

**– Elm məclisinə vaxtında gəlmək;**

Ümumiyyətlə hər bir müsəlman çalışmalıdır ki, xeyirxah işlər görməkdə birincilərdən olsun. Uca Allah buyurur:

فَٱسْتَبِقُوا۟ ٱلْخَيْرَٰتِ ۚ

**«Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın!»**[76]

﴿ أُو۟لَـٰٓئِكَ يُسَـٰرِعُونَ فِى ٱلْخَيْرَٰتِ وَهُمْ لَهَا سَـٰبِقُونَ ﴿٦١﴾ ﴾

**«Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə** (başqalarından) **öndə gedərlər.»**[77]

Yeri gəlmişkən nəzərinizə satdırım ki, həftəlik elm məclisi sayıla bilən Cümə namazı və onun xütbəsinə tələsmək lazımdır. Çünki Uca Allah Qurani Kərimdə belə buyurub:

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓا۟ إِذَا نُودِىَ لِلصَّلَوٰةِ مِن يَوْمِ ٱلْجُمُعَةِ
فَٱسْعَوْا۟ إِلَىٰ ذِكْرِ ٱللَّهِ وَذَرُوا۟ ٱلْبَيْعَ ۚ ذَٰلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ

[75] «Siyəru aləmu-n-nubələ», 6/362.
[76] «əl-Bəqərə» surəsi, 148.
[77] «əl-Muminun» surəsi, 61.

تَعۡلَمُونَ ﴿٩﴾ فَإِذَا قُضِيَتِ ٱلصَّلَوٰةُ فَٱنتَشِرُواْ فِي ٱلۡأَرۡضِ وَٱبۡتَغُواْ
مِن فَضۡلِ ٱللَّهِ وَٱذۡكُرُواْ ٱللَّهَ كَثِيرًا لَّعَلَّكُمۡ تُفۡلِحُونَ ﴿١٠﴾

**«Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir! Namaz qılınıb qurtardıqdan sonra yer üzünə dağılıb Allahın kərəmindən ruzi diləyin!** (yenə öz işinizə qayıdın!) **Və Allahı çox zikr edin ki, bəlkə nicat tapıb səadətə qovuşasınız!»**[78]

Həmçinin qeyd etməliyəm ki, Cümə namazının özü bir elm məclisidir. Çünki, cümə günü məscidin imamı ötən həftə ərzində hazırladığı xütbə vasitəsilə müsəlmanlar qarşısında nitq söyləyir. İmamın hazırladığı bu çıxışa bir dərs kimi də baxılmalıdır. Hər dərs yeni bir mövzu ilə bağlı olduğu üçün hər bir müsəlman da, bu bilgilərdən faydalanmadan özünü məhrum etməməli, qüsl edib, təmiz və təzə paltarlarından geyinib bu məclisdə iştirak etməlidir. Cümə namazına Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** buyurduğu kimi hazırlaşıb iştirak etmək hər bir müsəlmana çox böyük savab qazandırır. Təsəvvür edin ki, cümə namazına getmək niyyəti ilə evdən çıxıb məscidə gedən müsəlman atacağı hər addıma görə savab qazanır. Bundan başqa Əbu Hüreyrə (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Cənabət qüslü (kimi qüsl) edib, cümə gününün *ilk saatında*[79] məscidə gedən şəxs bir dəvə, ikinci saatında gedən bir öküz, üçüncü saatında gedən bir qoç, dördüncü saatında gedən bir xoruz,

---

78 «əl-Cumuə» surəsi, 9-10.

79 Bu əlavəni müəllif imam Malikin «Muvatta» əsərindən götürüb.

beşinci saatında gedən isə bir yumurta qurban etmiş[80] kimidir. İmam minbərə çıxdıqda isə artıq mələklər onun xütbəsini dinləyər».[81]

Bu hədis İslam dininin elmə, öyrənməyə necə diqqət yetirdiyinə, İslam Peyğəmbərinin - **səllallahu aleyhi və səlləm** - elmə həvəsləndirməyinə bir dəlildir. Peyğəmbərimiz - **səllallahu aleyhi və səlləm** - isə özündən heç nə uydurmamışdır. Onun dedikləri də vəhydir. Peyğəmbərimizə - **səllallahu aleyhi və səlləm** - itaətin vacibliyinə toxunan Uca Allah belə buyurur:

﴿ وَمَا يَنطِقُ عَنِ ٱلْهَوَىٰٓ ۝٣ إِنْ هُوَ إِلَّا وَحْىٌ يُوحَىٰ ۝٤ ﴾

**«O, kefi istəyəni** (havadan) **danışmır. Bu ancaq** (Allahın dərgahından) **nazil olan bir vəhydir».[82]**

Odur ki:

وَمَآ ءَاتَىٰكُمُ ٱلرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَىٰكُمْ عَنْهُ فَٱنتَهُوا۟ ۚ وَٱتَّقُوا۟ ٱللَّهَ ۖ إِنَّ ٱللَّهَ شَدِيدُ ٱلْعِقَابِ ۝٧

**«Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə ondan əl çəkin. Allahdan qorxun! Həqiqətən, Allahın cəzası çox şiddətlidir».[83]**

Dinimiz elm məclisinə gecikməyi yaxşı hal kimi qəbul etmir. Əgər hər hansısa bir məclisdən insan özü üçün, ailəsi,

---

80 Sədəqə vermiş.
81 Buxarinin «Səhih» əsəri 881; Muslimin «Səhih» əsəri 1961.
82 «ən-Nəcm» surəsi, 3-4.
83 «əl-Həşr» surəsi 7.

dini, millәti, vәtәni üçün faydalı ola bilәcәk nә isә öyrәnәcәksә o bu mәclisә bacardıqca tez tәşrif buyurmalıdır. Fәr'ani rәvayәt edir ki: «Biz Abdu-s-Samәd ibnul-Fadldan hәdis öyrәnirdik. Bir gün dәrs әsnasında qapı döyüldü vә Abdu-s-Samәd bizdәn birimizә dedi: "Dur bax gör kimdi! Әgәr kәlam[84] әhlindәndirsә qapını aç, yox hәdis әhlindәndirsә qapını açma!" Biz: "Mәgәr hәdis әhlindәn olan, bu dәrsdә iştirak etmәyә daha çox layiq deyilmi?" deyә soruşduq. O dedi: «Xeyr! Kәlam әhlindәn olan, bu dәrsdә iştirak etmәyә daha çox layiqir. Çünki, dәrsә vaxtında gәlmәk hәdis әhlindәn olanların üzәrinә düşәn haqdır. Kәlam әhlindәn olanlar isә әksinә cahildirlәr vә üzrlü hesab olunurlar».[85]

Odur ki, müsәlman bacı vә qardaşlarım, sizi dünya vә axirәtdә nicat tapmaq üçün elm mәclislәrindә iştirak etmәyә çağırıram.

**– Buraxılmış dәrslәri әldә etmәk;**

Allahın müsәlman adını daşımağa layiq bildiyi bәndәsi, öyrәndiyi elmin mәsuliyyәtini dә düzgün anlayır. Hәqiqәtәn dә elm öyrәnmәk çox böyük mәsuliyyәtdir. Tәәssüflәr olsun ki, bir çox insanlar buna sәhlәnkar yanaşır, elmi tam qavramaq üçün sәy göstәrmir. Yәni elmә yiyәlәnmәyә çalışan şәxs bu vә ya digәr sәbәb üzündәn dәrsdә iştirak edә bilmәyibsә o bu dәrsi mütlәq әldә edib öyrәnmәlidir. Әslindә mәn belә bir tövsiyә ilә çıxış etmәklә özümdәn yeni bir şey kәşf etmirәm. Bu bizә peyğәmbәrimizdәn **- sәllallahu aleyhi vә sәllәm** – qalan mirasın (sünnәnin) tәrkib hissәsidir. O miras ki, onun **- sәllallahu**

[84] Hәr şeyi (xüsusәndә qeyb alәmindә olanları) ağıl ilә ölçәn cahil.
[85] «әr-Rihlәtu fi talәbi-l-hәdis» sәh:196.

**aleyhi və səlləm -** sələfləri bunu sonra gələn nəslə ötürməyə borcludurlar.

**– Əldə edilən faydaları kitaba və s. qeyd etmək;**

Əziz müsəlman qardaşım, bu qeyd olunan məsələdə də tənbəllik etməməyi sənə tövsiyə edirəm. Elm öyrənən hər bir kəs bu faydaları qeyd etdikdə oxuduqlarının hamısına yenidən qayıtmağa ehtiyac qalmır və hər hansı bir fakta, mənbəyə, dəlilə ehtiyac olduqda o bir dəfə oxuyub yazdığı qeydlərinə müraciət etməklə kifayətlənir. Qeydlərə mütəmadi olraq müraciət etmək isə mütləq lazımdır. Bu qeydlərin olduğu kitabı oxuduqda vaxtının xeyli bir hissəsinə qənaət edən qardaşım bu vaxtı digər bir səmərəli işə yönəltmək imkanını da qazanır. Unutmaq olmaz ki, bizə verilən vaxt çox məhduddur. Onun müddəti heç kəsə məlum olmadığı üçün vaxt itirməyə dəyməz. Dünya və axirətimiz üçün bacardıqca daha çox tədarük görməliyik. Bu tədarük elmə əsaslanarsa daha faydalı olar. Çünki elmsiz görülən işlə, bilib gördüyünüz iş eyni ola bilməz. Bu barədə Uca Allah belə buyurur:

قُلْ هَلْ يَسْتَوِى ٱلَّذِينَ يَعْلَمُونَ وَٱلَّذِينَ لَا يَعْلَمُونَ ۗ

**«De ki: «Heç bilənlərlə bilməyənlər** (alimlə cahil) **eyni ola bilərmi?».**[86]

Bu məsələyə toxunduqda çox hörmət etdiyim müsəlman qardaşımın daim söylədiyi bir fikri də qeyd etmək istərdim: O, həmişə deyir ki; «İslam elmi sahili çox-çox uzaqlarda yerləşən bir dəryaya bənzər ki, sənin ömrün o sahilə üzüb çatmaq üçün kifayət deyildir. Bacardıqca

[86] «əz-Zumər» surəsi, 9.

elmi öyrənməyə tələs və bu işdə digərlərini ötməyə çalış».

**– Elm məclislərində susmaq və başqa işlə məşğul olmamaq;**

Elm məclislərində diqqətli olmaq da müsəlman əxlaqının tərkib hissəsidir. Xüsusən də Quran ayələri oxunduğu zaman onu dinləmək və susmaq olduqca vacibdir. Bu barədə Uca Allah belə buyurur:

﴿ وَإِذَا قُرِئَ ٱلْقُرْءَانُ فَٱسْتَمِعُوا۟ لَهُۥ وَأَنصِتُوا۟ لَعَلَّكُمْ تُرْحَمُونَ ﴿٢٠٤﴾ ﴾

**«Quran oxunan zaman onu dinləyin və susun ki, bəlkə,** [onun sayəsində] **rəhm olunasınız! »**[87]

Keçmiş sələflərimizin həyatına nəzər salsaq bu məsələyə necə ciddi riayət olunduğuna bir daha şahid olarıq. Məsələn, Əhməd ibn Sinan rəvayət edir ki: «Abdurrəhman ibn Məhdinin məclisində heç kəs danışmaz, qələm yonmaz, ayağa qalxıb dərsə mane olmaz və sanki namaz qıldıqları vəziyyətdə olardılar»[88]

Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** səhabələri onun yanında olduqda səslərini Allahın elçisinin **- səllallahu aleyhi və səlləm -** səsindən artıq qaldırmağa belə utanardılar. Bu gün çox təəssüflər olsun ki, bir çox şagirdlər və tələbələr bu məsələyə həddindən artıq məsuliyyətsiz yanaşır və özündən yaşlı müəllimlərə qarşı kobud hərəkətlərə belə yol verirlər.

---

87 «əl-Ə'raf» surəsi, 204.
88 «Təzkiratu-l-huffaz» 1/331.

**– Elm məclislərindən mümkün olan qədər istifadə etmək;**

Elm öyrənən şəxs vaxtının qədrini bilməli və onu səmərəsiz keçirməməlidir. O, Allahın insanlara bəxş etdiyi bu nemətindən lazımı qədər faydalı istifadə etməlidir. Artıq bu risalədə yuxarıda qeyd olunan məsələlərə bir neçə dəfə toxunmuşam. Bu da onunla bağlıdır ki, çoxları bu neməti itirdikdən sonra bir daha onu əldə edə bilməyəcəklərinin fərqində deyillər. Bir çoxları bunu, yalnız qocaldıqdan sonra dərk etsə də, itirilən vaxtı geri qaytara bilməyəcəklərini anlayıb, vaxtlarını səmərəsiz keçirdiklərinə görə peşman olurlar. Sonrakı peşmanlıq da, təbii olaraq fayda vermir. Hər bir işi vaxtında yerinə yetirmək hikmətdəndir. İslam alimi ən-Nəvəvi gün ərzində on iki elm məclisində iştirak edirdi. O rəvayət edir ki, «Mən dərs əsnasında olan bütün şərh və qeydləri, bəzi kəlmələrin düzgün oxunuşunu və izahını özümdə qeyd edirdim. Uca Allah da mənim vaxtımı bərəkətli etmişdir.»[89]

Qardaşlarıma bir məsələni də unutmamağı məsləhət görürəm: Bilin ki, elm məclisində iştirak edib faydalananla, bu mühazirəni başqalarından alıb oxuyanın və ya kasetdən dinləyənin savabı eyni dərəcədə deyildir. Çünki elm məclisində iştirak edənlərin üzərinə sükunət nazil olur, onları Allahın rəhməti bürüyür, mələklər də o məclisi əhatə edir və Uca Allah onları öz dərgahında yad edir. Uca Allah belə buyurur:

فَٱذۡكُرُونِيٓ أَذۡكُرۡكُمۡ

**«Məni xatırlayın ki, Mən də sizi yada salım!»[90]**

---

[89] «Təzkiratu-l-huffaz» 4/1470.

[90] «əl-Bəqərə» surəsi, 152.

Əbu Hureyrənin (r.a.) rəvayət etdiyi hədisdə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - demişdir: «…Həqiqətən Allahın evlərindən birində yığışıb Onun kitabını oxuyan və onu müzakirə edən qövmün üzərinə sükunət nazil olar, onları rəhmət bürüyər, mələklər o məclisi əhatə edər və Uca Allah onları Öz dərgahında yad edər…»[91]

**– Ümidsizliyə qapılmamaq;**

Həqiqətən də elmə nail olmaq asan iş deyil. Lakin hər kəs bilməlidir ki, hər bir dərdin dərmanı olduğu kimi bu məsələnin də, həlli mövcuddur. Bu çətinliklərin öhdəsindən yalnız Uca Allaha ümid bəsləməklə, öyrənilən elmi səbr və təmkinlə təkrar etməklə, başa düşülməsi çətin olan məsələlərin izahını bilənlərdən soruşmaqla və öyüd nəsihət almaqla gəlmək mümkündür. Uca Allah buyurur:

وَقَالَ رَبُّكُمُ ٱدْعُونِىٓ أَسْتَجِبْ لَكُمْ ۚ

**«Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!"»[92]**

فَسْـَٔلُوٓا۟ أَهْلَ ٱلذِّكْرِ إِن كُنتُمْ لَا تَعْلَمُونَ

**«Əgər bilmirsinizsə, zikr əhlindən soruşun!»[93]**

---

91 Muslimin «Səhih» əsəri 6793.
92 «əl-Ğafir» surəsi, 60.
93 «Ən-Nəhl» surəsi, 43.

﴿ وَلَقَدْ يَسَّرْنَا ٱلْقُرْءَانَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ ۝١٧ ﴾

**«And olsun ki, Biz Quranı** [ondan] **ibrət almaq, öyüd-nəsihət qəbul etmək üçün belə asanlaşdırdıq. Amma hanı ibrət alan, öyüd-nəsihət qəbul edən?!»**[94]

Bacı və qardaşlarım! Bu ayələrdən açıqca görünür ki, Rəbbimizin bizə bəxş etdiyi ağıldan onun buyurduğu şəkildə istifadə edilməlidir ki, insan muradına çatsın. Tələbə çətinlikdən qorxmamalı, elm öyrənməkdən yorulub usanmamalıdır. Əhməd ibn Hənbəl rəvayət edir ki, «Mən heyz fəslini doqquz il ərzində öyrənib başa düşdüm»[95] İnsan elmə qarşı qəlbində daim bir ehtiras hiss etməli, öyrənməyə daim can atmalıdır. Elə dahi Nizami kimi:

Nə qədər oxuyub öyrəndim, heyhat
Yenə də qəlbimi görmədim rahat.[96]

Bacı və qardaşlarım! Sizə bir məsləhətim də budur ki, elmi bilgilər öyrəndikdə nə utanın nə də təkəbbürlük göstərin. Həqiqətən insanlar içərisində bilmədiyi məsələləri özlərindən yaşca kiçik olanlardan soruşmaqda utancaqlıq nümayiş etdirənlər çoxdur. Bəziləri bunu təkəbbürlüyündən etmir. Lakin bu insanın özünün əleyhinə yönəlmiş hisslərdir. Mücahid demişdir: «Nə utanan, nə də təkəbbürlü olan şəxs elmə yiyələnə bilməz!»[97]

Şübhəsiz ki, bu cür əməl insanın nadanlığına dəlalət edir. Başa düşmək lazımdır ki, Allah öz elmindən hər kəsə istədiyi

---

[94] «əl-Qəmər» surəsi, 17, 22, 32, 40-cı ayələr.
[95] «Təbəqatu-l-hənabilə» 1/268.
[96] Nizami Gəncəvinin «Leyli və Məcnun» əsəri, səh.42.
[97] «Fəthu-l-Bari» 1/276.

qədər verir. Ümumiyyətlə, Allah istədiyinə elm bəxş edir və burada yaş fərqi və məhdudiyyəti qoymur. bu barədə hər şeyi görən və bilən Uca Allah belə buyurur:

﴿ يُؤۡتِي ٱلۡحِكۡمَةَ مَن يَشَآءُۚ وَمَن يُؤۡتَ ٱلۡحِكۡمَةَ فَقَدۡ أُوتِيَ
خَيۡرٗا كَثِيرٗاۗ وَمَا يَذَّكَّرُ إِلَّآ أُوْلُواْ ٱلۡأَلۡبَٰبِ ٢٦٩ ﴾

**«Allah istədiyi şəxsə hikmət** [elm, mərifət, müdriklik] **bəxş edir. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir** [əbədi səadət] **verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!»**[98]

**– Alimin sözünü kəsməmək;**

Hər bir şagird və ya tələbə bilməlidir ki, elm məclisində danışanın sözünü kəsmək və ya onu rədd etmək ədəbsizlikdir. Düzgün ədəb qaydalarına Peyğəmbərimizdən **- səllallahu aleyhi və səlləm -** sonra onun sələfləri daim riayət edib. Çünki müsəlman dedikdə ilk öncə onun elmli və əxlaqlı olması bir keyfiyyət kimi təsəvvürümüzdə canlanır. Mömin olan kəs bu keyfiyyətlərsiz təsəvvür edilməzdir. Əgər dərs əsnasında bir məsələyə etirazın varsa təmkinlə məclisin sona çatmasını gözlə, sonra isə öz iradlarını ehtiramla ona bildir. Hətta bu cür hərəkət edəndə belə vəziyyəti düzgün qiymətləndir və etirazını lazımı şəkildə, vəziyyətə uyğun olaraq et. Əgər bunu məclisdə elan etmək fitnə-fəsad törədəcəksə məsləhətdir ki, etirazını məclisdən kənarda bildirəsən. Bütün məsələlərdə bizə örnək olan Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm -** belə de-

[98] «əl-Bəqərə» surəsi, 269.

mişdir: «Böyüklərimizə hörmət etməyən, kiçiklərimizə rəhm etməyən, alimlərimizin haqqını ödəməyən bizdən deyildir!»[99]

Bu məsələyə İmam Buxari də toxunmuş və elm fəslində «Nitq söyləyən şəxsə sual verdikdə o, nitqini tamamlamalı sonra suala cavab verməlidir» başlığı altında Peyğəmbərdən **- səllallahu aleyhi və səlləm** – hədis rəvayət etmişdir. Əbu Hureyrə (r.a.) rəvayət edir ki, «Peyğəmbər **- səllallahu aleyhi və səlləm** – səhabələrlə söhbət edirdi, bu vaxt bir ərəb gəlib ondan qiyamətin nə zaman vaqe olacağı barədə soruşdu. Peyğəmbər **- səllallahu aleyhi və səlləm** – cavab verməyib söhbətini davam etdi. Məclisdə iştirak edənlərin bir qismi onun suala cavab vermək istəmədiyini, digər qismi isə onun eşitmədiyini zənn etdilər. Peyğəmbər **- səllallahu aleyhi və səlləm** – söhbətini bitirdikdən sonra dedi: – Sual verən haradadır? Ərəb dedi: – Mən buradayam, ey Allahın elçisi. Peyğəmbər **- səllallahu aleyhi və səlləm** – dedi: «Əmanətə xəyanət olduğu zaman qiyamət qopacaq!...»[100]

**– Sualı ədəb-ərkanla vermək;**

Bu gün həqiqətən də bəzi tələbələrin elm məclislərində müsəlman əxlaqına yaraşmayan şəkildə davranış nümayiş etdirdiyinin, ədəbsiz hərəkətlərə yol verdiyinin və kobud şəkildə sual verdiyinin şahidi oluruq. Qurani Kərimdə də, Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm** – sünəsində də, bu məsələyə sərt münasibət bildirilir. Uca Allah buyurur:

---

[99] «əl-Musnəd» 5/323; «əl-Mu'cəmu-l-kəbir» 8/236; «əl-Mustədrək» 1/211; «Məcməu-z-zəvaid» 1/127. **[Hədis həsəndir]**

[100] Buxarinin «Səhih» əsəri 59.

يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَسۡـَٔلُواْ عَنۡ أَشۡيَآءَ إِن تُبۡدَ لَكُمۡ
تَسُؤۡكُمۡ

**«Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın.»[101]**

Zəhəbi rəvayət edir ki, elm məclislərindən birində Əndəlüsün islam alimlərindən olan Şəbətuna vərəqdə yazılmış "Qiyamət günü olan tərəzinin gözləri qızıldan olacaq, yoxsa gümüşdən?" sualı verildi. O, vərəqi büküb Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** – bu hədisini onun üzərinə yazdı: «Müsəlmanın islamının gözəlliyi ondadır ki, ona aid olmayanı tərk etsin.[102]»[103]

Müsəlman qardaşlarım! Unutmayın ki, sual kimisə rüsvay etmək, dini oyuncağa çevirmək, qarşındakının elmdə zəif olduğunu üzə çıxarmaq üçün deyil, yalnız elmi öyrənmək xatirinə verilməlidir.

**– Alimin əxlaqından ibrət almaq.**

Alimlərə tarixən böyük hörmət və ehtiram olub. Xüsusən də İslam dünyası, müsəlman icması alimi hər zaman qiymətləndirib. İnsanlar müxtəlif sahələr üzrə alimlik dərəcəsinə yüksələ bilər. Mən bu yerdə insanların ən şərəflisi, ümumiyyətlə bütün bəşəriyyətin önündə duran, əxlaqı Quran olan Peyğəmbəri - **səllallahu aleyhi və səlləm** – xüsusi qeyd etməyi özümə borc bilirəm. Bu da təbiidir, çünki, o seçilmiş bir insandır. Bu insan İslam adlanan bir nuru bizə çatdıran

---

101 «əl-Maidə» surəsi, 101.

102 «Sunənu-t-Tirmizi» 2317, «Sunən ibn Macə» 3976, **[Hədis həsəndir].**

103 «Siyəru aləmu-n-nubələ», 9/312.

alimdir. O alim ki, bütün canlılara qarşı diqqətli və rəhmli, o alim ki, bütün bəşəriyyətə rəhmət olaraq göndərilən, o alim ki, əxlaqı bütün insanlara nümunə edilən... Bu barədə Uca Allah belə buyurur:

﴿ لَقَدۡ جَآءَكُمۡ رَسُولٞ مِّنۡ أَنفُسِكُمۡ عَزِيزٌ عَلَيۡهِ مَا عَنِتُّمۡ حَرِيصٌ
عَلَيۡكُم بِٱلۡمُؤۡمِنِينَ رَءُوفٞ رَّحِيمٞ ١٢٨ ﴾

**«Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə, məşəqqətə düşməyiniz ona ağırdır, o** [sizin iman gətirməyinizi] **çox istəyir, möminlərə şəfqətli və mərhəmətlidir!»**[104]

﴿ لَّقَدۡ كَانَ لَكُمۡ فِي رَسُولِ ٱللَّهِ أُسۡوَةٌ حَسَنَةٞ لِّمَن كَانَ يَرۡجُواْ ٱللَّهَ
وَٱلۡيَوۡمَ ٱلۡأٓخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرٗا ٢١ ﴾

**«Həqiqətən, Allahın Rəsulu Allaha, Qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir!»**[105]

لَقَدۡ كَانَ فِي قَصَصِهِمۡ عِبۡرَةٞ لِّأُوْلِي ٱلۡأَلۡبَٰبِۗ

**«Peyğəmbərlərin hekayətlərində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır.»**[106]

---

104 «ət-Tövbə» surəsi, 128.
105 «əl-Əhzab» surəsi, 21.
106 «Yusif» surəsi, 111.

## Elm öyrənən şəxsin əsaslı danışması

Təmiz niyyət ilə elm öyrənən şəxsin uğurlar əldə edəcəyi şübhəsizdir. Yüksəliş yalnız elmlə mümkündür. Elmli insanın davranışı, əxlaqı, söylədiyi sözlərin mənası ilə cahil insanın eyni adlı hərəkətlərini heç cürə eyniləşdirmək olmaz. Təbii ki, elmli insan cahil insandan hər mənada üstündür. Burada müqaisə aparmaq gülünc görünərdi. Kitabın bu bölməsində toxunmaq istədiyim məsələ elmli insanın daha bir keyfiyyəti – onun adil olması və əsaslı danışması ilə bağlıdır. Bu məsələni qabartmağım bir neçə səbəblə bağlıdır. Günümüzdə özünü elm əhli kimi qələmə verib əsassız fikirlər söyləyən «ziyalılara» da rast gəlmək olar. Onların «xidmətləri» sayəsində yer kürəsində kifayət qədər münaqişəli ərazilər meydana çıxmışdır. Bilərəkdən təhrif etdikləri tarixi faktlar, dini dəlilləri vasitəsilə yaratdıqları qarşıdurmalarda minlərlə insanlar həyatlarını qurban vermişlər. Vaxtı ilə «dənizdən dənizə Ermənistan» kimi əsassız, qondarma bir ideologiyanın təsiri ilə millətini ruhlandıran «ziyalıların» «əməyi» sayəsində iki əsrə yaxındır ki, vətənimizin torpaqlarının qarış-qarış zəbt edilməsi buna ən bariz misaldır. Müsəlmanlara qarşı bu cür ədalətsizliklərə dünyanın bir çox yerlərində rast gəlinir. Əvvəlcə saxtalaşdırılmış tarixi faktlara söykənən müəyyən ideoloji təbliğat aparılır, sonra isə silahlı müdaxilə yolu ilə torpaqlar zəbt edilir, günahsız insanlar qırılır. Heç şübhəsiz ki, Allaha və axirət gününə inanan hər bir müsəlman onların mütləq Allah qarşısında cavab verəcəklərinə və layiqli cəzalarını alacaqlarına əmindir. Bu barədə aləmlərin Rəbbinin bizə vədi var. O isə vədinə xilaf çıxan deyil. Uca Allah belə buyurur:

﴿ وَلَا تَحْسَبَنَّ ٱللَّهَ غَٰفِلًا عَمَّا يَعْمَلُ ٱلظَّٰلِمُونَ ۚ إِنَّمَا يُؤَخِّرُهُمْ
لِيَوْمٍ تَشْخَصُ فِيهِ ٱلْأَبْصَٰرُ ﴿٤٢﴾ مُهْطِعِينَ مُقْنِعِى رُءُوسِهِمْ لَا
يَرْتَدُّ إِلَيْهِمْ طَرْفُهُمْ ۖ وَأَفْـِٔدَتُهُمْ هَوَآءٌ ﴿٤٣﴾ ﴾

«[Ya Məhəmməd!] **Allahı zalimlərin etdikləri əməllərdən əsla qafil sanma! Allah onların cəzasını yubadıb elə bir günə saxlayır ki, həmin gün gözləri hədəqəsindən çıxar; Belə ki, onlar başlarını yuxarı qaldırıb durar, gözlərini də qırpa bilməzlər. Onların qəlbləri də boşdur».**[107]

﴿ فَلَا تَحْسَبَنَّ ٱللَّهَ مُخْلِفَ وَعْدِهِۦ رُسُلَهُۥٓ ۗ إِنَّ ٱللَّهَ عَزِيزٌ ذُو ٱنتِقَامٍ
﴿٤٧﴾ ﴾

«[Ya Məhəmməd!] **Allahın peyğəmbərlərə verdiyi vədə xilaf çıxacağını sanma! Həqiqətən, Allah yenilməz qüvvət və intiqam sahibidir!»**[108]

Bəli, bu, Allahın peyğəmbərlərə və onların ardıcıllarına verdiyi vəddir. Biz isə bir müsəlman kimi öz üzərimizə düşən vəzifələri yerinə yetirməliyik. Elm öyrəndikdə mütləq dəlillərə, faktlara əsaslanmalıyıq. Elm öyrənən şəxs bilməlidir ki, onun elminin səviyyəsi söylədiyi nitqin əsaslı olub-olmaması ilə bağlıdır. Heç şübhəsiz ki, yalnız əsaslı biliklərə söykənən nitq insanlarda inam yaradır. Tarix boyu o qədər natiqlər olub ki, bir əsassız fikrinə görə tamamilə qiymətdən düşüb.

---

107 «İbrahim» surəsi, 42-43.
108 «İbrahim» surəsi, 47.

Əsassız fikir və ümumiyyətlə yalan barəsində həm Qurani Kərimdə həm də peyğəmbərimizin sünnəsində çoxlu dəlillər vardır. Uca Allah buyurur:

﴿وَلَا تَقۡفُ مَا لَيۡسَ لَكَ بِهِۦ عِلۡمٌۚ إِنَّ ٱلسَّمۡعَ وَٱلۡبَصَرَ وَٱلۡفُؤَادَ كُلُّ
أُوْلَٰٓئِكَ كَانَ عَنۡهُ مَسۡـُٔولٗا ٣٦﴾

**«Bilmədiyin bir şeyin ardınca getmə** [bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü demə]. **Çünki qulaq, göz və ürək – bunların hamısı** [sahibinin etdiyi əməl, dediyi söz barəsində] **sorğu-sual olunacaqdır.»**[109]

فَلَا تَسۡـَٔلۡنِ مَا لَيۡسَ لَكَ بِهِۦ عِلۡمٌۖ إِنِّيٓ أَعِظُكَ أَن تَكُونَ مِنَ
ٱلۡجَٰهِلِينَ ٤٦

**«Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı nəsihət edirəm.»**[110]

﴿هَٰٓأَنتُمۡ هَٰٓؤُلَآءِ حَٰجَجۡتُمۡ فِيمَا لَكُم بِهِۦ عِلۡمٞ فَلِمَ تُحَآجُّونَ
فِيمَا لَيۡسَ لَكُم بِهِۦ عِلۡمٞۚ وَٱللَّهُ يَعۡلَمُ وَأَنتُمۡ لَا تَعۡلَمُونَ ٦٦﴾

**«Bir baxın, siz o kimsələrsiniz ki, bildiyiniz şeylər barəsində mübahisə edirsiniz** [bu aydındır]. **Bəs bilmədiyiniz şeylər**

---

109 «əl-İsra» surəsi, 36.
110 «Hud» surəsi, 46.

**barəsində niyə mübahisəyə girişirsiniz. Əlbəttə,** [həqiqəti] **Allah bilir, siz bilməzsiniz!»**[111]

فَسْـَٔلُوٓا۟ أَهْلَ ٱلذِّكْرِ إِن كُنتُمْ لَا تَعْلَمُونَ ۝٧

**«Əgər bilmirsinizsə, zikr əhlindən** (alimlərdən) **soruşun!»**[112]

Abdullah ibn Amr (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm -** dedi: «Məndən öyrəndiyiniz bir ayə olsa belə, onu insanlara təbliğ edin. İsrail övladlarından varid olan rəvayətlərdən də danışın, bu sizin üçün günah sayılmaz. Mənim adımdan bilərəkdən yalan danışan isə cəhənnəmdə oddan olan yerini hazırlasın!»[113]

Əsassız danışmağın necə yasaqlandığı ayə və hədislərdən aydın görünür. Əsasla danışmağa gəldikdə isə Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** yuxarıdakı hədisi buna çox gözəl sübutdur. Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm** – sünnənin insanlara çatdırmasını önə çəkərək, bununla yanaşı kitab əhlindən varid olan rəvayətlərin ixtiyari şəkildə insanlara çatdırılmasını da tövsiyə edir. Hədisdə öz əksini tapmış bu fikir bir tərəfdən İslam dinin necə demokratik bir din olmasına açıqca sübutdursa, digər tərəfdən də Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm** – ümmətinin, müsəlmanların hərtərəfli məlumatlı olmağa çağırışıdır. Kitab əhlindən olan rəvayətlər üç qismə ayrılır:

Birincisi: Quran və mötəbər hədislərə müvafiq olan və müsəlmanlar tərəfindən məqbul sayılan rəvayətlər.

---

[111] «Ali-İmran» surəsi, 66.
[112] «əl-Ənbiya» surəsi, 7.
[113] Buxarinin «Səhih» əsəri 3461.

İkincisi: Quran və mötəbər hədislərə zidd olan və müsəlmanlar tərəfindən məqbul sayılmayan rəvayətlər.

Üçüncüsü: Quran və mötəbər hədislərdə nə təsdiqi, nə də inkarı olan rəvayətlər. Hədisdə qeyd olunan rəvayətlər də bu qismə aiddir.

Belə bir sual meydana çıxır: «İnsanı əsassız fikirlər söyləməyə vadar edən nədir?» Cavab isə birmənalı olaraq belədir: Bu insanın əqidəsi ilə bağlı bir məsələdir. İnsan belə bir hərəkətə yol vermək fikrinə düşdükdə ilk addımda o öz elmsizliyini ört-bastır etmək istəyir. Bu fikirlər Quran və sünnə ilə təsdiq olunmayanda bidətə,[114] faktlar gətirmədikdə isə böhtana çevrilir. Bidət əhli belə hərəkətlərə yol verməklə Allaha və Onun Rəsuluna **- səllallahu aleyhi və səlləm -** qarşı çıxmış olurlar. Uca Allah belə buyurur:

ٱلۡيَوۡمَ أَكۡمَلۡتُ لَكُمۡ دِينَكُمۡ وَأَتۡمَمۡتُ عَلَيۡكُمۡ نِعۡمَتِي وَرَضِيتُ لَكُمُ ٱلۡإِسۡلَٰمَ دِينٗاۚ

**«Bu gün dininizi tamamlayıb mükəmməl etdim, sizə olan nemətimi başa çatdırdım və bir din kimi sizin üçün İslamı bəyənib seçdim».[115]**

Bundan başqa Aişədən (r.a.) rəvayət olunan hədisdə Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** demişdir: «Bizim etdiyimiz əməllərə yenilik əlavə edən kimsənin əlavəsi rədd olunur»[116]

---

[114] Lüğəti mənası, yeni bir şeyin ixtira olunması deməkdir. Dində isə (istilahi mənada) Allahın və Onun rəsulunun qanunilaşdirmədiyi bir əməli ibadətə aid etməkdir.

[115] «əl-Maidə» surəsi, 3.

[116] Müslimin «Səhih» əsəri, 4467.

Ayədən və hədisdən aydın görünür ki, dinimizə aid olan hökmlər artıq Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm** – dövründə tamamlanıb. Allah İslamı kamil şəkildə Peyğəmbəri **- səllallahu aleyhi və səlləm** – vasitəsilə bizə çatdırıb. Bu hökmlərə nə isə yeni fikir əlavə edənin əlavəsi dinimizdə sanki boşluğun olduğunu və dinin həmin şəxsin əlavəsi ilə kamil olduğunu ortaya qoyur ki, bu yuxarıda qeyd olunan ay əvə hədisə ziddir. Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm** – başqa bir hədisi ilə belə bir fikir də insanlara çatdırıb. İrbad ibn Sariyə (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm** – səhabələrə (r.a.) tövsiyə edərək demişdir: «Sizə Allahdan qorxmağı (təqvalı olmağı), üzərinizdə qəyyum olan rəhbəri dinləyib itaət etməyi tövsiəyə edirəm! Həqiqətən məndən sonra yaşayanlarınız çoxlu ixtilaflar görəcəklər. O zaman mənim və raşidi xəlifələrimin yolu ilə gedin. Bu yoldan azı dişlərinizlə bərk yapışın.[117] Dinə əlavə olunmuş yeniliklərdən (bidətlərdən) çəkinin! Həqiqətən hər bir bidət insanı zəlalətə aparır!»[118]

Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm** – bu tövsiyyəsini nəzərə aldıqda bidət əhli ilə mübarizə aparmağın düşmənlə mübarizə aparmaqdan (cihaddan) əfzəl olması aydın olur. Çünki, düşmən yeri, yurdu xarabalığa çevirsədə onu sonradan bərpa etmək çox asandır. Bidət əhli isə qəlbləri xarab edir və onu isə bərpa etmək çox çətindir. Düşmənin fəsad törətməsi açq aydın hamıya bəlli olduğu üçün hamı ona qarşı mübarizəyə qalxır. Bidət gizli olduğundan hamı ona qarşı səfərbər ola bilmir və hətta bəziləri onun hədəfinə

---

[117] Burada Peyğəmbər **- səllallahu aleyhi və səlləm** – bu yoldan dönməməyin son dərəcədə vacib olduğunu vurğulamışdır.

[118] Əbu Davudun «Sünən» əsəri, 4607; Tirmizinin «Sünən» əsəri, 2676; Əhmədin «Müsnəd» əsəri, 4/126-127.

də keçir. Düşməni hamı tanıyır və onlarla mübarizə aparır. Bidət əhlini isə yalnız alimlər tanıyır və onlara qarşı mübarizə aparır.

Dini məsələlərdə bidət etməyin təhlükəsindən qorxan Əhvədi öz şerində belə buyurur:

> Çevirmə bidətə, füzulluğa üz,
> Allah və peyğəmbər nə deyib et düz.
> Göyün kitabı da düzlüyü sevir,
> Ey qafil bu yoldan tez ol üz çevir.[119]

Bidət əhli fikirlərinə bir əsas tapmadıqda guya artıq zəmanənin dəyişməsini, cəmiyyətin artıq inkişaf etməsini əsas gətirməklə özlərinin hərəkətlərinə bəraət qazandırırlar. Bu həm savadsız həm də əsassız bir mövqedir. Birincisi sələf bidəti yalnız şəriətə münasibətdə haram sayır. Dünyavi məsələlərdə isə yenilik, inkişaf lazımdır və zəruridir. İkincisi Uca Allah bu əsrarəngiz yaradılışın Xaliqi olaraq cəmiyyətin inkişafını da qabaqcadan bilib müəyyən etmişdir. Lakin bununla belə Rəbbimiz Öz hökmlərini bu günə kimi dəyişməz etdi. Göndərdiyi Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** və nazil etdiyi kitab da sonuncu oldu. Bu günə qədər bir-birini əvəz edən əsrlər boyu Allah və Rəsulunun **- səllallahu aleyhi və səlləm –** elə bir hökmü olmamışdır ki, o, hansısa bir zamana uyğun olmasın. Bu gələcəkdə də belə olacaqdır. Odur ki, bidətə yol verən insanın cəmiyyətin inkişafını əsas gətirməsi yersizdir. Allahın hökmləri bütün dövrlər üçün aktualdır, zamanından və məkanından aslı olmayaraq Ona təslim olub əmrlərinə

---

[119] Əhvədinin «Cami-cəm» əsəri, səh.117.

itaət olunmalıdır. Dində bidət etmək insanın malik olduğu əqidə ilə də bağlıdır. Bu da Quran və sünnəyə düzgün yanaşma tərzinin olmaması ilə izah olunur. Quran və sünnə Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm –** izah etdiyi və səhabələrin (r.a.) başa düşüb əməl etdiyi kimi anlaşılmalıdır. Uca Allah bu barədə belə buyurur:

وَأَنزَلْنَآ إِلَيْكَ ٱلذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ ﴿٤٤﴾

**«Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni** [hökmləri, halal-haramı] **izah edəsən və, bəlkə, onlar da düşünüb dərk edələr!»**[120]

Bu ayə Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm –** sünnəsinə riayət etməyə bir göstərişdir. Əgər Quranı sünnəsiz (mötəbər hədislərsiz) oxuyub anlamaq, başa düşmək mümkün olsaydı Allah onun izah etməsini Peyğəmbərimizə **- səllallahu aleyhi və səlləm –** əmr etməzdi. Quran məlum olduğu kimi ərəb dilindədir və Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm –** səhabələrinin də böyük əksəriyyəti də ərəblər idi. Onlar Quranın dilini asanlıqla başa düşürdülər, çünki bu onların ana dili idi. Lakin Allahın Quranı izah etməyi əmr etməsi Qurana bu izahsız, yəni sünnəsiz yanaşmağın səhv olmasına bir dəlildir. Allahın hökmlərində naqislik, çatışmamazlıq olmaz. Onun hökmləri tam dəqiq və kamildir. Allah bütün nöqsanlardan uzaqdır. Onun əmrlərində, hökmlərində nöqsan axtaranlar isə düz yolda deyillər. Odur ki, hər bir kəs dediyi fikrin mə-

---

[120] «ən-Nəhl» surəsi, 44.

suliyyətini dərk etməlidir. Xüsusilə də əgər bu fikirlər şəriətə aiddirsə. Digər sahələrə gəlincə isə məsələn, məişət, ticarət, müxtəlif xidmət sahələri, yeni texnologiyaların tətbiqi və s. əvvəl qeyd etdiyim kimi burada insan azaddır. O, istədiyi yeniliyi tətbiq etmək ixtiyarındadır və bu bəyənilən əməldir. Çünki dinimiz insan yaşayışını yüngülləşdirə biləcək hər bir əməli dəstəkləyir. Buradakı yeniliyi alqışlamaq olar. Yeniliyə meyli olan insanlara da məsləhətim budur: Əgər doğrudanda ixtiraçısınızsa buyurun yuxarıda adları sadalanan sahələrdə öz bacarığınızı nümayiş etdirin. Dinə, şəriətə isə toxunmaq olmaz. O, elə məhz Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm –** çatdırdığı kimi gözəldir. Qiyamətə qədər bizə dəyişməz və kamil hökmlər nazil edən Rəbbimizə həmd olsun!

İnsanı əsasız fikirlər söyləməyə vadar edən hisslərdən biri də həsəddir. Yəni kiminsə əldə etdiyinə, nail olduğuna həsəd aparmaq. Bu da çox təhlükəli günahdır. Bilirik ki, Uca Allah hər bir insanın anadan olandan ta ölənədək olacaq fəaliyyətini onun ruzisi də daxil olmaqla lövhi-məhfuzda yazmışdır. İnsanın qədəri deyilən bu anlam öz əksini Quranda belə tapıb:

﴿ إِنَّا كُلَّ شَىْءٍ خَلَقْنَـٰهُ بِقَدَرٍ ﴿٤٩﴾ ﴾

**«Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə** [lazım olduğu qədər] **yaratdıq».**[121]

Yəni bu gün kiminsə nail olduğu nəticə onun Allah tərəfindən müəyyən olunan qədərinin tərkib hissəsidir. Kiminsə buna həsəd aparması Allahın müəyyən etdiyi (qədər) ilə razılaşmaması kimi qiymətləndirilə bilər. Belə olan halda, həsəd

---

121 «əl-Qəmər» surəsi, 49.

xəstəliyinə düçar olan şəxs elmli insanın nail olduqlarını kölgə altına almaq üçün əsassız fikirlərə əl atır. Uca Allah insanların bir-birinə həsəd aparacaqlarını əzəldən bilmiş və bu hallar baş verəcəyi təqdirdə Ona pənah aparmağı əmr etmişdir:

﴿ قُلْ أَعُوذُ بِرَبِّ ٱلْفَلَقِ ۝١ ﴾.....﴿ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ۝٥ ﴾

**«De ki: "Pənah aparıram sübhün Rəbbinə!"»……..«Və bir də paxılın şərindən»[122]**

أَمْ يَحْسُدُونَ ٱلنَّاسَ عَلَىٰ مَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضْلِهِۦ ۖ

**«Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeyə görə insanlara həsəd aparırlar? »[123]**

وَدَّ كَثِيرٌ مِّنْ أَهْلِ ٱلْكِتَٰبِ لَوْ يَرُدُّونَكُم مِّنۢ بَعْدِ إِيمَٰنِكُمْ
كُفَّارًا حَسَدًا مِّنْ عِندِ أَنفُسِهِم مِّنۢ بَعْدِ مَا تَبَيَّنَ لَهُمُ ٱلْحَقُّ ۖ

**«Kitab əhlindən bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, nəfslərindəki həsəd ucundan sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər.»[124]**

Ənəs ibn Malik (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** dedi: «Bir-birinizə həsəd aparmayın, bir-birini-

---

122 «əl-Fələq» surəsi, 1-5.
123 «ən-Nisa» surəsi, 54.
124 «əl-Bəqərə» surəsi, 109.

zə nifrət etməyin, bir-birinizə arxa çevirməyin! Ey Allahın qulları, qardaş olun!»[125]

Məhşur islam alimi, İbn Teymiyyə demişdir: "Həsədsiz insan olmur, lakin alicənab və əxlaqlı olan onu gizlədir, alçaq və əxlaqsız isə onu büruzə verir."[126]

Həsəd elmin bərəkətini azaldır və elm əhlinin son aqibətinə təsir göstərir. Çünki insan Allahın və Onun rəsulunun - **səllallahu aleyhi və səlləm** – əmrlərinə asi olmaqla öz axirətini puç edir. Həsəd insanın qəlbini sərtləşdirərək onu insafsız edir ki, nəticədə o xeyirxah işlər görməkdən çəkinir. Dinimiz bu cür xəstəliyə düçar olmuş insanlardan qaçmaqdansa onlara nəsihət etməyi daha məqsədə uyğun hesab edir. Əhnəf ibn Qeys demişdir: «Tənbeh etmək nifrət etməkdən daha xeyirlidir».[127] Həsəd probleminə toxunduqda bir məsələni də qeyd etməyi özümə borc bilirəm. İstəyirəm ki, bacı və qardaşlarım bilsinlər ki, İslamın qadağan etdiyi həsəd olduğu kimi, dinimizin rüxsət verdiyi iki növ həsəd də mövcuddur ki, bu da qibtə hesab olunur. Ömər ibnu-l-Xattab (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** – dedi: «Yalnız iki şəxsə həsəd aparmaq (qibtə etmək) olar! O şəxsə ki, Allah ona elm (Quran, hikmət və s.) öyrədir və o da, bu elmə gecə-gündüz əməl edir. Bir də o şəxsə ki, Allah ona var-dövlət verir və o da, bu var-dövlətdən gecə-gündüz Onun yolunda sərf edir.»[128] Yəni elm və var-dövlətə malik şəxsə bir halda qibtə oluna bilər ki: «Nə olardı Allah mənə də bu cür elm öyrədəydi və mən də onun kimi gecə-gündüz o elmə əməl edəydim.» – «Nə olar-

---

[125] Muslimin «Səhih» əsəri 6477.
[126] «Fətvalar toplusu», 10/124-125
[127] «Siyəru aləmu-n-nubələ», 4/94.
[128] Muslimin «Səhih» əsəri 1891,1892,1893 .

dı Allah mənə də bu qədər var-dövlət verəydi və mən də onun kimi gecə-gündüz Allah yolunda sərf edəydim.»[129]

Baxın görün dinimiz insan hislərini və duyğularını necə tərbiyə edir. Dinimiz həsədin əlamətlərini də insanlara bəyan edir ki, bu əlamətlərdən hansınısa insan özündə hiss etdikdə qəlbini bu günahdan islah etsin. Beləliklə, insan öz din qardaşına qarşı aşağıdakı hisləri keçirirsə, deməli ona qarşı həsəd aparmış olur:

– Həmkarının (məsləkdaşının) xətasına sevinmək;

– Həmkarının hər hansı bir məclisdə iştirak etməməsinə sevinmək;

– Həmkarının tənə edilməsinə sevinmək və bununla Rahatlıq tapmaq;

– Həmkarının haqqında soruşulduqda onu məzəmmətlə xatırlamaq;

– Həmkarına hər hansı bir məsələyə görə müraciət edildikdə qəlbində sıxıntı keçirmək;

– Həmkarının elminin az və dediyinin faydasız olmasını iddia etmək;

– Həmkarının səhv etməsi üçün səy göstərmək və verdiyi cavabları tənqid etmək;

– Həmkarının xeyirxah işlərindən danışmamaq.

Bu əlamətlərin hər hansınınsa birinin daşıyıcısı olan qardaşım! Bunu dərhal müalicə etməyi sənə məsləhət görürəm. Çünki qeyd etdiyim kimi, həsəd insanı əsassız fikirlər söyləməyə sövq edən xəstəlikdir. Həsəd elm öyrənən hər bir kəsin niyyətinə təsir göstərə biləcək ən təhlükəli amillərdən hesab olunur. Şübhəsiz ki, bu məsələyə səhlənkar yanaşan şəxs sonradan həsədi özündən uzaqlaşdırmaq istəsə belə bu istə-

---

[129] «Şərhu Səhih Muslim» 6/338.

yinə asanlıqla nail ola bilmir. Bu xəstəliyə tutulmamaqdan isə heç kəs sığortalanmayıb. Quran və Peyğəmbərimizin - **səllallahu aleyhi və səlləm** – sünnəsi insan nəfsi, insan fəaliyyəti və ümumiyyətlə yaşayışın hər sferasında baş verə biləcək suallara cavab verdiyi üçün bu xəstəliyin müalicəsini də bizə çatdırıb. Bunlar aşağıdakılardır:

– Həmkarının xeyir-bərəkətə nail olması və tutduğu doğru yoldan dönməməsi üçün Allaha dua etmək. Uca Allah buyurur:

﴿ وَٱلَّذِينَ جَآءُو مِنۢ بَعۡدِهِمۡ يَقُولُونَ رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلۡإِيمَٰنِ وَلَا تَجۡعَلۡ فِي قُلُوبِنَا غِلّٗا لِّلَّذِينَ ءَامَنُواْ رَبَّنَآ إِنَّكَ رَءُوفٞ رَّحِيمٌ ١٠ ﴾

**«Onlardan** (mühacirlərdən və ənsardan) **sonra gələnlər** (tabiin) **belə deyirlər: Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş** (din) **qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə, həsədə yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətli və mərhəmətlisən!»**[130]

– Həmkarını sevməyə çalışmaq, ondan özü və ailəsi haqqında hal-əhval tutmaq. Uca Allah buyurur:

---

[130] «əl-Həşr» surəsi, 10.

﴿ وَلَا تَسۡتَوِي ٱلۡحَسَنَةُ وَلَا ٱلسَّيِّئَةُۚ ٱدۡفَعۡ بِٱلَّتِي هِيَ أَحۡسَنُ فَإِذَا ٱلَّذِي بَيۡنَكَ وَبَيۡنَهُۥ عَدَٰوَةٞ كَأَنَّهُۥ وَلِيٌّ حَمِيمٞ ﴿٣٤﴾ ﴾

**«Yaxşılıqla pislik eyni ola bilməz! Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!»**[131]

– Həmkarını ziyarət etmək və onun xeyirxah işlərindən danışmaq.

Əbu Hüreyrə (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Kim Allah xatirinə xəstəni və ya müsəlman qardaşını ziyarət edərsə, (qeyb aləmində olan) carçı onu çağırıb deyər: "Sən bu əməlinlə zövq verdin və Cənnətdə bir yer tutdun"[132]»[133]

Əbu Hüreyrə (r.a.) rəvayət edir ki, «Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** üzünü səhabələrə tutub soruşdu: "Hansı biriniz bu gün oruc tutub?" Əbu Bəkr: "Mən" – deyə cavab verdi. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** yenə soruşdu: "Hansı biriniz bu gün cənazəni təqib edib?" Əbu Bəkr: "Mən" – deyə cavab verdi. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** yenə soruşdu: "Hansı biriniz bu gün kasıbı yedizdirib?" Əbu Bəkr: "Mən" – deyə cavab verdi. Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** yenə soruşdu: "Hansı biriniz bu gün xəstəni ziyarət edib?" Əbu Bəkr: "Mən" – deyə cavab verdi. Peyğəmbər **- səllallahu aleyhi və**

---

131 «Fussilət» surəsi, 34.
132 Carçının çağırışını eşitməyə lüzum yoxdur.
133 «Səhihu-l-cami» 6387. **[Hədis həsəndir].**

**səlləm -** dedi: "Bu dörd gözəl xisləti özündə cəm edən cənnətə daxil olar"»[134]

– Həmkarının tənə edilməsinə razı olmamaq və onun haqqında qeybət etməyi qadağan etmək. Uca Allah buyurur:

وَلَا يَغْتَب بَّعْضُكُم بَعْضًا ۚ أَيُحِبُّ أَحَدُكُمْ أَن يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ ۚ

**«Bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar** [qeybət də belədir]»[135]

Əbu Hureyrə (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** dedi: "Bilirsinizmi qeybət nədir?" Onlar: "Allah və Onun Rəsulu daha yaxşı bilir!" – deyə cavab verdilər. Peyğəmbər **- səllallahu aleyhi və səlləm –** dedi: "Qardaşını, onda ikrah hissi oyadan bir xatirə ilə yad etmək!" – Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** "Əgər qardaşım haqqında dediklərim doğrudursa onda necə?" deyə soruşulduqda o dedi: "Əgər qardaşın haqqında dediklərin doğrudursa onun qeybətini qırmış, doğru deyilsə ona böhtan atmış hesab olunursan!"[136]

– Həmkarını özündən üstün hesab etmək. Uca Allah buyurur:

---

134 «Səhih Müslim», 6132.
135 «əl-Hucurat» surəsi, 12.
136 «Səhih Müslim», 6536.

﴿ وَٱلَّذِينَ تَبَوَّءُو ٱلدَّارَ وَٱلْإِيمَـٰنَ مِن قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِى صُدُورِهِمْ حَاجَةً مِّمَّآ أُوتُوا۟ وَيُؤْثِرُونَ عَلَىٰٓ أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ ۚ وَمَن يُوقَ شُحَّ نَفْسِهِۦ فَأُو۟لَـٰٓئِكَ هُمُ ٱلْمُفْلِحُونَ ﴿٩﴾ ﴾

**«Mühacirlərdən əvvəl** [Mədinədə] **yurd salmış və iman gətirmiş kimsələr [ənsar] öz yanlarına** [şəhərlərinə] **mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd, qəzəb duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. [Allah tərəfindən] nəfsinin xəsisliyindən, tamahından qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə** [Cənnətə] **qovuşanlardır!»**[137]

– Həmkarı ilə məsləhətləşmək və ondan öyüd-nəsihət istəmək. Uca Allah buyurur:

فَٱعْفُ عَنْهُمْ وَٱسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِى ٱلْأَمْرِ ۖ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى ٱللَّهِ ۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلْمُتَوَكِّلِينَ ﴿١٥٩﴾

**«Artıq sən onları əfv et, onlar üçün** [Allahdan] **bağışlanma dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah** [Ona] **təvəkkül edənləri sevər!»**[138]

---

137 «əl-Həşr» surəsi, 9.
138 «Ali İmran» surəsi, 159.

﴿ وَٱلَّذِينَ ٱسۡتَجَابُواْ لِرَبِّهِمۡ وَأَقَامُواْ ٱلصَّلَوٰةَ وَأَمۡرُهُمۡ شُورَىٰ
بَيۡنَهُمۡ وَمِمَّا رَزَقۡنَٰهُمۡ يُنفِقُونَ ٣٨ ﴾

**«O kəslər üçün ki, Rəbinin dəvətini qəbul edər, namaz qılar, işlərini öz aralarında məsləhətlə-məşvərətlə görər, onlara verdiyimiz ruzidən** [Allah yolunda] **sərf edərlər.»**[139]

İnsanı əsassız danışmağa vadar edən amllərdən ikisinə – bidətə və həsədə ayrıca toxunsam da, toxunmadığım bir çox başqa amillər də mövcuddur ki, buna da gələcək yazılarımda inşaallah toxunacağam.

Kitabın bu bölməsində sizə çatdırmaq istədiyim fikirlərdən biri də elm əhlinin danışdığı fikirlərə daim dəlil göstərməli olmasıdır ki, buna bu gün bir çox hallarda riayət olunmur. Bu gün biz Allahın elmindən, Allahın dinindən danışmaq kimi çox ağır bir yükü çiyinlərimizə götürmüşüksə etdiyimiz əməllərin məsuliyyətini də düzgün anlamalıyıq. Bizdən əvvəl yaşamış sələfilər bu məsələyə çox ehtiyatla yanaşmış, dəlilsiz, sübutsuz heç bir fikir söyləməmişlər. Bu gün yeganə təhrifsiz səmavi din olan İslamı xurafata, mifalogiyaya çevirənlər dinimizin adına ləkə gətirməklə bərabər həm də özlərini həlaka sürükləyirlər. Onlar törətdikləri əməllərə, dindəki faktları təhrif etməyə cəhd etdiklərinə, xurafata aludə olduqlarına görə Allah qarşısında cavab verməli olacaqlar. İslam dini xurafatdan uzaq bir dindir. Həqiqi insan azadlığı məhz İslamda təcəssüm edir. Həqiqi vətəndaş cəmiyyətinin qurulmasının prinsip və mexanizmi də məhz Qurani Kərimdədir. Odur ki, gəlin dinimizin gözəlliyini, demokratikliyini qey-

---

[139] «əş-Şura» surəsi, 38.

ri inanc sahiblərinə də məhz dəlil və sübutlarla, elmi müddəalarla göstərək. Bunun üçün bütün din adından danışanları əfsanələr uydurmaqla deyil, milləti, xalqı firqələrə parçalamaqla deyil, məhz əsaslı dəlillərlə dinimizin gözəlliklərini xalqımıza tanıtmağa çağırıram. Bunun üçün sözün həqiqi mənasında elmli olmaq lazımdır. Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm** – bizə qoyub getdiyi mirasdan bildiklərini dəqiqləşdirdikdən sonra xalqa çatdır, bilmədiklərinə isə «bilmirəm» de! Bunda heç bir qəbahət yoxdur. Əli ibn Əbu Talib (r.a.) demişdir: «Elmi olan hər bir kəs bilmədiyi bir şey haqqında – Allah daha yaxşı bilir! – deməlidir. Çünki Uca Allah Öz elçisinə **- səllallahu aleyhi və səlləm** – əmr edib demişdir:

﴿ قُلْ مَآ أَسْـَٔلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ وَمَآ أَنَا۠ مِنَ ٱلْمُتَكَلِّفِينَ ﴿٨٦﴾ ﴾

**«De ki: «Mən buna** [risaləti, Allahın hökmlərini təbliğ etməyə] **görə sizdən heç bir əcr, mükafat istəmirəm. Və mən özümdən bir şey uydurub deyənlərdən də deyiləm!»**[140]

Yenə Əli ibn Əbu Talib (r.a.) beş gözəl xislət haqqında belə demişdir: «O bəndə ki yalnız Allahdan qorxur, etdiyi günahlara görə məsuliyyətini dərk edir, bilmədiyini öyrəndiyinə görə utanmır, həmçinin bilmədiyi şeylərə – Allah daha yaxşı bilir! – deməyə görə də utanmır və səbr edir, bütün bunlara görə savab qazanır. Və dində olan səbr, bədəndə olan başa bənzəyir. O da kəsilib atılarsa bədən məhv olar».[141] Burada Əli ibn Əbu Talibin (r.a.) söylədiyi fikirlər necə də mənalıdır. Əlbəttə başqa cür ola da bilməzdi. Bu cür gözəl insan və əxlaq sahibi, hələ sağ ikən Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm** – tərəfin-

---

140 «Sad» surəsi, 86.

141

dən cənnətlə müjdələnmişdir. Səid bin Zeyd (r.a.) demişdir: «Mən şəhadət verirəm ki, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm** – belə dediyini eşitdim: "On nəfər cənnətlikdir: Əbu Bəkr, Ömər, Osman, Əli, Talhə, Zubeyr ibnul-Əvvam, Səʻd bin Malik, Əbdürrəhman bin Auf, Səid bin Zeyd, Əbu Ubeydə ibnul-Cərrah"».[142]

Lakin cəmiyyətimizdə hətta Əli ibn Əbu Talibin (r.a.) adından belə o qədər uydurma fikirlər və rəvayətlər söylənilib və söylənilir. Belə fikirləri söyləyənlər yəqin ki, Əli ibn Əbu Talibin (r.a.) bu söhbətlərdən çox-çox uzaq olmasından xəbərsizdilər. O, elmli bir şəxsiyyət və bütün mifaloji fikirlərdən uzaq bir insan idi. Bu gün ona ilahi xüsusiyyətlər aid edən o qədər savadsız insanlar mövcuddur ki, etdikləri bu cür günahın həcmindən çox güman ki, xəbərsizdilər. Onun haqqında o qədər əfsanələr uydurulur ki, heç antik mifoloqlar öz uydurma qəhrəmanlarını bu qədər ilahiləşdirmirlər. Unutmaq olmaz ki, biz artıq iyirmi birinci əsrdə yaşayırıq. Biz dinimizi başqasına mifologiyalar vasitəsilə deyil, real olan əlamətlərlə çatdırmalıyıq. İslamdan başqa bütün dinlərdə kifayət qədər əfsanə və mif mövcuddur. lakin İslam mifsiz, dəqiq və həqiqi səmavi dindir. Əsassız danışmaq bütün dövrlərdə qəbahət sayılıb. Əbu Bəkrə (r.a.), Ömərə (r.a.), Osmana (r.a.) və Əliyə (r.a.) gəlincə isə bunu deyə bilərəm: Onları sevən onlar kimi Peyğəmbərimizə **- səllallahu aleyhi və səlləm -** və onun sünnəsinə sadiq olmalı, onlar kimi elmə həvəs göstərməli və onlar kimi qardaş olmağı öyrənməlidir. Elə Nizaminininin söylədiyi kimi:

Əlinin eşqinidə sabitqədəməm,

[142] Əbu Davudun «Sünən» kitabı, 12/262, 3635-ci hədis; «Səhih hədislər silsiləsi», 3/879 - 3886-cı hədis.

Ömər sevgisindən uzaq deyiləm.
Hər ikisi nur ilə nurlanır dimaq:
Əbu Bəkr bir şamdır, Osman bir çıraq.
Bu dərviş sifətli dörd böyük soltan,
Dünyaya olmuş dörd təkbir oxuyan.[143]

Bilmədiyiniz şeylər haqqında susmağa gəlincə bu həm də Peyğəmbərlərin əxlaqı olub. Malik demişdir: Peyğəmbər - **səllallahu aleyhi və səlləm** – müsəlmanların imamı və bütün aləmlərin ən əfzəl məxluqu idi. Lakin buna baxmayaraq o, bilmədiyi bir şey haqqında soruşulduqda səmadan vəhy gələnə qədər suala cavab verməzdi. Yenə o, alimi tərifləyib demişdir: Elmi olan hər bir kəs (bilmədiyi məsələlərə) - bilmirəm – deməlidir ki, bəlkə bunula xeyir əldə edə bilsin. Şabi demişdir: «Bilmirəm» – demək elmin yarısıdır. Mərvəzi deyir ki, mən Əhməd ibn Hənbəldən «insanların fikrincə hər şeyi bilən alim» barəsində soruşdum və o dedi: İbn Məsud (r.a.) demişdir: «İnsanların bütün suallarına cavab verən şəxs məcnundur!» İbn Sirin demişdir: İnsanın cahil kimi (savadsız) ölməsi, onun üçün bilmədiyini danışmasından daha xeyirlidir! Sufyan demişdir: Elmi olan şəxsin danışmağı susmaqdan üstün sayması, özünü təhlükəyə atması üçün səbəbdir! Səid ibn Cubeyr demişdir: Vay olsun bilmədiyinə «bilirəm» deyən hər bir kəsə!"[144]

---

[143] Nizami Gəncəvi, «İskəndərnamə», səh.28

[144] ««əl-Ədabu-ş-şəriyyə» 2/64-69, Məalimu fi tariqi taləbi-l-elm» səh: 207-208.

Elm öyrənən şəxsə yaraşmayan bir xüsusiyyət də heç bir dəlilə sübuta əsaslanmayan fikirləri eşitdikdə onu dəqiqləşdirməmiş nəticə çıxarmaq və bu xəbəri insanlar arasında yaymaqdır. Bu fikirlər bəzən böhtan həddinə qədər də çatdırılır. Yaddan çıxarmaq olmaz ki, belə hallar həm Allahı qəzəbləndirir, həm də insanların narazıçılığına səbəb olur. Tarixə nəzər salsaq o qədər insanın böhtan və cəfəngiüyyat danışıqları nəticəsində şəxsiyyət kimi heç bir şey əldə etməyib dünyadan köçdüklərinin şahidi olarıq. Elə insanlar çox qısa bir müddət ərzində hamı tərəfindən unudulmuş və etdikləri «əməllər» də insanların xatirindən silinmişdir. Allahın elçiləri olan Peyğəmbərlər - **səllallahu aleyhim və səlləm** – və sonra onların səhabələri haqqında oxusaq görərik ki, onlar əvvəllər sevildikləri kimi indi də sevilir və bundan sonra da seviləcəkdir. Onlar bəşəriyyətin unudulmaz bir hissəsidir. Gəlin cəmiyyətimizin saflığı naminə yalan, böhtan, insanlar arasında şayə yaymaq kimi bəd əməllərdən uzaq olaq və bu barədə olan ayə və hədislərdən ibrət alaq. Uca Allah buyurur:

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِن جَآءَكُمۡ فَاسِقُۢ بِنَبَإٖ فَتَبَيَّنُوٓاْ أَن تُصِيبُواْ قَوۡمَۢا بِجَهَٰلَةٖ فَتُصۡبِحُواْ عَلَىٰ مَا فَعَلۡتُمۡ نَٰدِمِينَ ٦ ﴾

**«Ey iman gətirənlər! Əgər bir fasiq sizə pis bir xəbər gətirsə, dərhal onun doğruluğunu yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!»**[145]

---

145 «əl-Hucurat» surəsi, 6.

وَٱعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ يَعۡلَمُ مَا فِيٓ أَنفُسِكُمۡ

**«Bilin ki, Allah sizin qəlbinizdə olanı bilir.»**[146]

﴿ يَعۡلَمُ خَآئِنَةَ ٱلۡأَعۡيُنِ وَمَا تُخۡفِي ٱلصُّدُورُ ١٩ ﴾

**«Allah gözlərin xəyanətini və ürəklərin gizlətdiyini biləndir!»**[147]

﴿ وَإِنَّ عَلَيۡكُمۡ لَحَٰفِظِينَ ١٠ كِرَامٗا كَٰتِبِينَ ١١ يَعۡلَمُونَ مَا تَفۡعَلُونَ ١٢ ﴾

**«Sizin üstünüzdə gözətçi mələklər,** [əməllərinizi] **yazan və** [Allah dərgahında] **çox hörmətli olan mələklər vardır. Onlar sizin nə etdiklərinizi bilirlər»**[148]

Əbu Hureyrə (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Kişinin yalançı sayılmasına, eşitdiyi hər bir şeyi danışması kifayət edər!»[149] İyas ibn Muaviyə, Sufyan ibn Həsənə tövsiyə edib demişdir: «Yadında saxla! Hədis elmində qarma-qarışıqlığa yol vermək qətiyyən qadağandır! Doğrudan da bir çoxları bu xətaya yol vermiş, nəticədə də yalan hədislər söyləmiş və özlərini rüsvay etmişlər.»[150]

---

146 «əl-Bəqərə» surəsi, 235.
147 «Ğafir» surəsi, 19.
148 «əl-İnfitar» surəsi, 10-12.
149 Muslimin «Səhih» əsəri 7.
150 «Muqaddimətu Səhih Muslim» 1/75-76.

İnsanlar arasında şayiələr yayan şəxsə aşağıdakı nəsihətləri etmək olar.

– Allahdan qorxmağı ona tövsiyə etmək və dediyi hər bir sözün, etdiyi hər bir əməlin Allahın nəzarəti altında olduğunu ona bildirmək;

– Hər bir sözünə və hər bir əməlinə görə Qiyamət günü Allahın hüzurunda haqq-hesab olunacağı barədə ona xəbər vermək;

– Yaydığı hər bir sözü əsaslandırmağı ondan tələb etmək;

– Yersiz danışmağın fəsadla nəticələnməsini, xüsusən də bəzi şəxsiyyətlər barəsində yəqin bilmədiyi müddəalarını yaymaqla ziyana uğrayacağını ona başa salmaq;

– İnsanlar arasında şayiələr yayan şəxsə nəsihət etməyi ona tövsiyə etmək.

## Elmi mübahisə

Tarix boyu elm əhli arasında müxtəlif formalarda və vəziyyətlərdə mübahisələr olub və bu indii də var. Əslində bu mübahisələr nəticəsində haqq ortaya çıxır desəm bəlkə də mənə etiraz etməzsiniz. Əgər mübahisə edən tərəflər yüksək əxlaqa və intellektə malikdirsə və söylədikləri fikirləri də tutarlı dəlillərlə sübuta yetirsə, belə mübahisələr həm maraqlı və həm də faydalı olur. Yəni qaldırılan problem üzərində bilavasitə iş getdiyi üçün bu məsələlər insanın yaddaşında uzun müddət qalır. Odur ki, hər bir elm öyrənən şəxs belə mübahisələrlə qarşılaşacağını yəqin bilməli və əvvəlcədən lazımı tədbirlər görməlidir. Elmi mübahisənin (xüsusən də dini məsələlərdədə) öz metod və prinsipləri mövcuddur ki, elm öyrənən hər bir şəxsin bunları bilməsi vacibdir. Elmi mübahisə bu prinsiplərə əsaslanarsa onda həqiqət tez üzə çıxar.

**– Yalnız Allahın razılığını qazanmaq və həqiqəti üzə çıxarmaq məqsədilə mübahisə etmək;**

Yəni bu o deməkdir ki, elmi mübahisə kiminsə elminin az olmasını və ya onun hörmətini insanlar arasında aşağı salmaq naminə deyil, məhz həqiqətin aşkar olması məqsədilə aparılmalıdır. Bu gün cəmiyyətdə kifayət qədər «elm xadiminə» rast gəlmək olar ki, onlar mübahisəni çirkin qaydalar və pis niyyət üzərində qurur. Hələ bu azmış kimi özünü daha savadlı göstərmək üçün müəyyən çətin terminlərdən də istifadə edir. Həqiqi elm xadimi bacardıqca səlis və insanların hamısına aydın olan tərzdə danışmalıdır. Bu həmin insanın sadəliyinə və sadəlik də öz növbəsində onun gözəlliyinə dəlalət edir. Allahın razı qalacağı mübahisə insana əlavə savab gətirir. Bunu heç vaxt unutmaq olmaz. Savabı itirməmək naminə də mübahisəni Allahın razılığı və həqiqətin aşkar olması üçün etmək lazımdır. Uca Allah buyurur:

﴿ وَلَقَدْ أَرْسَلْنَا نُوحًا وَإِبْرَٰهِيمَ وَجَعَلْنَا فِى ذُرِّيَّتِهِمَا ٱلنُّبُوَّةَ
وَٱلْكِتَٰبَ ۖ فَمِنْهُم مُّهْتَدٍ ۖ وَكَثِيرٌ مِّنْهُمْ فَٰسِقُونَ ﴿٢٦﴾ ثُمَّ قَفَّيْنَا
عَلَىٰٓ ءَاثَٰرِهِم بِرُسُلِنَا وَقَفَّيْنَا بِعِيسَى ٱبْنِ مَرْيَمَ وَءَاتَيْنَٰهُ
ٱلْإِنجِيلَ وَجَعَلْنَا فِى قُلُوبِ ٱلَّذِينَ ٱتَّبَعُوهُ رَأْفَةً وَرَحْمَةً
وَرَهْبَانِيَّةً ٱبْتَدَعُوهَا مَا كَتَبْنَٰهَا عَلَيْهِمْ إِلَّا ٱبْتِغَآءَ رِضْوَٰنِ ٱللَّهِ

فَمَا رَعَوْهَا حَقَّ رِعَايَتِهَا ۖ فَـَٔاتَيْنَا ٱلَّذِينَ ءَامَنُوا۟ مِنْهُمْ أَجْرَهُمْ ۖ

وَكَثِيرٌ مِّنْهُمْ فَـٰسِقُونَ ﴿٢٧﴾

**«And olsun ki, Biz Nuhu və İbrahimi peyğəmbər göndərdik, peyğəmbərliyi və kitabı** [Tövratı, Zəburu, İncili və Quranı] **onların nəslinə verdik. Onlardan doğru yolda olan da vardır, çoxu isə** [Allahın itaətindən çıxmış] **fasiqlərdir. Sonra onların ardınca** [Musa, İlyas, Davud, Süleyman, Yunus və başqa] **peyğəmbərləri yolladıq.** [Onlardan sonra] **Məryəm oğlu İsanı göndərib ona İncil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq. Onlar özlərindən rahiblik** [tərkidünyalıq] **icad etdilər. Biz rahibliyi onlara vacib buyurmamışdıq. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl** [riayət] **etmədilər** [İncili təhrif edib İsanı Allah bildilər, Məhəmmədin peyğəmbərliyini dandılar]**. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə** [Allaha asi olan] **fasiqlərdir.»**[151]

İbnu-l-Cövzi demişdir: «Mübahisə etmək həqiqəti aşkara çıxarmaq üçündür! Bizdən əvvəl yaşamış alimlərin mübahisə etməkdə məqsədləri yalnız həqiqəti aşkara çıxarmaq və bir-birinə nəsihət etmək olmuşdur. Onlar dəlilləri lazımınca araşdırıb bir-birinə bilmədiklərini öyrədər və beləliklə də haqqı bəyan edərdilər.»[152]

**– Mübahisəni ədəb-ərkanla, gözəl tərzdə etmək;**

Uca Allah buyurur:

---

[151] «əl-Hədid» surəsi, 26-27.

[152] «Təlbis İblis» səh:120.

﴿ ٱدْعُ إِلَىٰ سَبِيلِ رَبِّكَ بِٱلْحِكْمَةِ وَٱلْمَوْعِظَةِ ٱلْحَسَنَةِ ۖ وَجَٰدِلْهُم بِٱلَّتِى هِىَ أَحْسَنُ ۚ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِۦ ۖ وَهُوَ أَعْلَمُ بِٱلْمُهْتَدِينَ ﴿١٢٥﴾ ﴾

«[Ya Məhəmməd!] **İnsanları hikmətlə** [Quranla, tutarlı dəlillərlə], **gözəl öyüd-nəsihət** [moizə] **ilə Rəbinin yoluna** [İslama] **dəvət et, onlarla ən gözəl surətdə** [şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə] **mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!»**[153]

İbn Qudamə həmişə mübahisə etdikdə üzündə təbəssüm olardı, hətta bəziləri deyərdilər ki, o, mübahisə etdiyi şəxsi öz təbəssümü ilə sarsıdır.[154]

Mömin olan insan öz əxlaqı ilə həmişə digərlərindən seçilir və seçilməlidir də. Mübahisə zamanı isə o mömünə layiq keyfiyyətləri ilə xüsusilə fərqlənməlidir. Yəni mübahisənin gedişində səbrli olub qarşı tərəfi dinləməyi bacarmalı, onun fikirlərinə də hörmətlə yanaşmalıdır. Əgər qarşı tərəfin söylədiyi xəta və ya küfrdürsə o bunu da gözəl tərzdə ona bildirməli və özünün tutarlı dəlillərini ortaya qoymalıdır. Ümumiyyətlə tarix boyu ən tutarlı dəlillər Peyğəmbərimizin - **səllallahu aleyhim və səlləm** – ardıcıllarında, yəni sələf əqidəsinin daşıyıcılarında olub. Bu toplumun istənilən mübahisələrdə haqqı sübut edərək qalib olacağı şübhəsizdir. Birinci ona görə ki, sələf bütün məsələlərdə Peyğəmbərdən **- səllallahu aleyhim və səlləm** – örnək götürür və hökümləri Peyğəmbərin **- səllallahu**

---

153 «Ən-Nəhl» surəsi, 125.
154 «Zeylu təbəqatu-l-hənabilə» 2/137.

**aleyhim və sələm** – izah etdiyi və səhabələrin başa düşdüyü kimi qəbul edir, qeybi məsələlər barəsində susur və ən əsası bilmədiyi məsələlər barəsində «Allah və Rəsulu bilir!» deyə cavab verir. Onların mübahisələr zamanı üstünlüyünün ikinci səbəbi sələflərin məhz Peyğəmbərimiz **- səllallahu aleyhim və səlləm** – tərəfindən «taifatun mənsura», yəni «qalib tayfa» adlandırılmasıdır. Bəli «sələfu-s-saleh» qalib tayfadır. Çünki, şəriət məsələlərində Quran, sunnə (səhih hədislərə) və icma alimlərinin rəyinə əsaslanır.

**– Bilmədiyi bir məsələni müzakirə etməmək;**

Uca Allah buyurur:

﴿ وَلَا تَقْفُ مَا لَيْسَ لَكَ بِهِۦ عِلْمٌۚ إِنَّ ٱلسَّمْعَ وَٱلْبَصَرَ وَٱلْفُؤَادَ كُلُّ أُوْلَـٰٓئِكَ كَانَ عَنْهُ مَسْـُٔولًا ﴿٣٦﴾ ﴾

**«Bilmədiyin bir şeyin ardınca getmə** [bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü demə]. **Çünki qulaq, göz və ürək – bunların hamısı** [sahibinin etdiyi əməl, dediyi söz barəsində] **sorğu-sual olunacaqdır.»**[155]

Əbu Hüreyrədən (r.a.) rəvayət olunan hədisdə Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** demişdir: «Kişinin (və ya qadının) islamının gözəlliyi, ona aid olmayan şeyləri tərk etməsindədir»[156]

Doğrudan da, əgər hər bir kəs bacardığı işin qulpundan yapışsa cəmiyyətdə hərc-mərclik deyilən arzuolunmaz hallar da baş verməz. Məsələn, əgər kimsə həkim olmaq kimi çox

---

155 «əl-İsra» surəsi, 36.
156 «Sunənu-t-Tirmizi» 2317.

məsuliyyətli bir sahədə işləmək istəyirsə, nə qədər çətinliklərlə üzləşəcəyini qabaqcadan ölçüb-biçməli, bunun üçün öz potensial imkanlarını yəni, ən azı o sahəyə aid orta məktəb bilgilərini nə dərəcə də bilib-bilmədiyini hesablayıb qərar verməlidir. Bunun əksinə olaraq dolayı yollar arayıb həkim olmaq, insanlara əlavə problemlər yaratmaq, müəyyən bir iş yerini tutub bir bilikli həkimi kənarda qoymaq istənilən halda günahdır. Belə insanlar, heç öz sahələri ilə bağlı məsələlərdə belə mübahisəyə girişməməlidirlər. Yuxarıdakı ayə və hədisdə qeyd olunduğu kimi.

**– Mübahisə doğuran məsələni diqqətlə araşdırmaq;**

Bəli, bu da vacibdir. İnsan heç bir zaman arxayınçılıq nümayiş etdirməməlidir. Hətta bildiyin məsələni belə təkrar nəzərdən keçirmək məsləhətdir. Disputa girişən adam üçün isə bu mütləq lazımdır. Bu zaman əvvələr tərtib etdiyin qısa icmallar da sənin köməyinə gələ bilər. Mübahisə doğuran məsələləri iki qismə ayırmaq olar: Dini və dünyəvi. Dini məsələlər yalnız Quran, mötəbər hədislər və icma alimlərinin yekdil rəyi əsasında dəqiqləşdirilir. Bu barədə Uca Allah belə buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَطِيعُواْ ٱللَّهَ وَأَطِيعُواْ ٱلرَّسُولَ وَأُوْلِي ٱلۡأَمۡرِ
مِنكُمۡۖ فَإِن تَنَٰزَعۡتُمۡ فِي شَيۡءٖ فَرُدُّوهُ إِلَى ٱللَّهِ وَٱلرَّسُولِ إِن كُنتُمۡ
تُؤۡمِنُونَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِۚ ذَٰلِكَ خَيۡرٞ وَأَحۡسَنُ تَأۡوِيلًا ٥٩﴾

**«Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə (hakimlərə) itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsı-**

**nızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!** [Qurana və mötəbər hədislərə müraciət edin!] **Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.»**[157]

Dini məsələ ilə bağlı mübahisə etməmişdən öncə qarşı tərəfin mənsub olduğu etiqad və əqidə barəsində məlumatlı olmaq da, bu işdə yüngüllük gətirir. Əgər o, kitab əhli (yəhudi və xristian) və ya bidətçidirsə onun söykənəcəyi dəlilləri də qabaqcadan nəzərdən keçirmək faydalı olardı. Əgər bu imkan xaricində olsa belə narahatçılığa heç bir əsas yoxdur. Əvvəl qeyd etdiyim kimi bir daha bəyan edirəm ki, ən tutarlı dəlillər sələf əqidəsinin daşıyıcılarına yəni, İslam Peyğəmbərinin - **səllallahu aleyhi və səlləm** – ardıcıllarına mənsubdur. Çünki, sələf alimləri ayədə qeyd olunduğu kimi mübahisə doğuran məsələlərdə Allah və Onun Rəsuluna - **səllallahu aleyhi və səlləm** – istinad edir və bu məsələdə ağlına gələn fikirləri söyləməkdən çəkinir. Bu barədə sələf məktəbinin ən sadiq nümayəndələrindən biri olan Əli ibn Əbu Talibin (r.a.) fikri çox qiymətlidir. O deyir ki; «Əgər şəriət hökmləri ağıl ilə ölçülsəydi onda dəstəmaz aldıqda məshi ayağın üstünə deyil altına çəkmək lazım gələrdi»[158]

Dünyəvi məsələlərlə bağlı mübahisəyə gəldikdə isə burada da bu işi həmin sahənin mütəxəssisinə həvalə etmək lazımdır. Bu barədə Uca Allah belə buyurur:

فَسْـَٔلُوٓاْ أَهْلَ ٱلذِّكْرِ إِن كُنتُمْ لَا تَعْلَمُونَ ﴿٧﴾

---

[157] «ən-Nisa» surəsi, 59.

[158] Əbu Davudun «Sünən» əsəri, 9/142; İbn Həcərin «Fəthul-Bari» əsəri, 13/289.

**«Əgər bilmirsinizsə, zikr əhlindən** (alimlərdən) **soruşun!»**[159]

**– Həqiqət bəyan olan kimi onu qəbul etmək;**

Yəni haqq bəyan olduqda təkəbbürlük göstərib onu rədd etmək əsla düzgün deyildir. Qurani Kərimdə peyğəmbərlərin **- səllallahu aleyhim və səlləm** – aşkar dəlillərlə müxtəlif gövmlərə göndərildiyi və onların qəbul edilməməsi haqqında çoxlu ayələr vardır. Belə olan təqdirdə Uca Allah onlara çox şiddətli bəlalar göndərmişdər. Haqqa boyun əyməkdən insanı heçnə çəkindirməməlidir. Əgər vaxtı ilə müşrik olan bəzi səhabələr də Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm** – gətirdiyi dinə, onun bəyan etdiyi şəriətə tabe olmasaydılar şübhəsiz ki, ilk öncə özlərini həlak etmiş olardılar, sonrası isə biz İslamın bu gün bütün dünyaya yayılmasının şahidi olmazdıq. Haqqa tabe olmayanların, həqiqəti qəbul etməyənlərin barəsində Uca Allah belə buyurur:

﴿ ۞ لَتَجِدَنَّ أَشَدَّ ٱلنَّاسِ عَدَٰوَةً لِّلَّذِينَ ءَامَنُواْ ٱلۡيَهُودَ وَٱلَّذِينَ
أَشۡرَكُواْۖ وَلَتَجِدَنَّ أَقۡرَبَهُم مَّوَدَّةً لِّلَّذِينَ ءَامَنُواْ ٱلَّذِينَ
قَالُوٓاْ إِنَّا نَصَٰرَىٰۚ ذَٰلِكَ بِأَنَّ مِنۡهُمۡ قِسِّيسِينَ وَرُهۡبَانٗا
وَأَنَّهُمۡ لَا يَسۡتَكۡبِرُونَ ٨٢ وَإِذَا سَمِعُواْ مَآ أُنزِلَ إِلَى ٱلرَّسُولِ
تَرَىٰٓ أَعۡيُنَهُمۡ تَفِيضُ مِنَ ٱلدَّمۡعِ مِمَّا عَرَفُواْ مِنَ ٱلۡحَقِّۖ

---

[159] «əl-Ənbiya» surəsi, 7.

يَقُولُونَ رَبَّنَآ ءَامَنَّا فَٱكۡتُبۡنَا مَعَ ٱلشَّٰهِدِينَ ﴿٨٣﴾ وَمَا لَنَا لَا
نُؤۡمِنُ بِٱللَّهِ وَمَا جَآءَنَا مِنَ ٱلۡحَقِّ وَنَطۡمَعُ أَن يُدۡخِلَنَا رَبُّنَا مَعَ
ٱلۡقَوۡمِ ٱلصَّٰلِحِينَ ﴿٨٤﴾ فَأَثَٰبَهُمُ ٱللَّهُ بِمَا قَالُواْ جَنَّٰتٖ تَجۡرِي مِن
تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَاۚ وَذَٰلِكَ جَزَآءُ ٱلۡمُحۡسِنِينَ ﴿٨٥﴾

«[Ya Məhəmməd!] **Yəhudiləri və müşrikləri iman gətirənlərin ən pis düşməni, "Biz xaçpərəstik", – deyənləri isə onların ən yaxın dostu görəcəksən. Bu onların içində** [bilikli, abid] **keşiş və rahiblərin olması və onların özlərini yuxarı tutmamalarına görədir. Peyğəmbərə nazil olanı dinlədikləri zaman haqqı bildikləri üçün onların gözlərinin yaşla dolduğunu görürsən. Onlar belə deyirlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi** [haqqa] **şahid olanlarla bir yerdə yaz! Rəbbimizin bizi əməlisaleh camaatla birlikdə** [Cənnətə] **daxil etməsini umduğumuz halda, biz nə üçün Allaha və bizə haqdan gələnə inanmayaq?!" Allah da bu sözlərinə görə onlara** [ağacları] **altından çaylar axan Cənnətlər əta etdi. Onlar orada əbədi qalacaqlar. Yaxşı işlər görənlərin mükafatı budur!»**[160]

**– Mübahisə edən şəxs haqqı qəbul etdikdən sonra, onu düz yola qaytaran Allaha həmd etməli və adil olduğuna görə həmin şəxsə təşəkkür etməli;**

Həqiqətən də insanları düz yola yönəldən Allahdır. Digər insanlar bu mənada yalnız səbəbdir. Uca Allah bu barədə belə buyurur:

---

160 «əl-Maidə» surəsi, 82-85.

﴿ إِنَّكَ لَا تَهْدِي مَنْ أَحْبَبْتَ وَلَٰكِنَّ ٱللَّهَ يَهْدِي مَن يَشَآءُ ۚ وَهُوَ أَعْلَمُ بِٱلْمُهْتَدِينَ ٥٦ ﴾

«[Ya Məhəmməd!] **Şübşəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri** [Öz əzəli elmi ilə] **daha yaxşı O bilir!** [Və buna görə də onları haqq yola müvəffəq edir!]»[161]

وَإِنَّكَ لَتَهْدِيٓ إِلَىٰ صِرَٰطٍ مُّسْتَقِيمٍ ٥٢

«**Sən** [Quranla insanları] **düz yola yönəldirsən.**»[162]

Əgər biz də haqqı qəbul edib Allaha və rəsuluna **- səllallahu aleyhi və səlləm** – itaət etməsəydik ya hansısa sonRadan uydurulmuş firqələrdən və ya İslamdan kənar dinlərin birində idik. Bizə haqq yolu göstərən və bizi bu yola yönəldən Allaha şükürlər və həmd olsun!

**– Mübahisə edən şəxsin məğlub olduğunu camaat arasında yaymamaq;**

Əlbəttə bu çox ucuz bir hərəkət, çirkin bir əməl olardı. Əgər kimsə haqqı görüb onu qəbul edirsə bu onun layiqli insan olması məntiqi ilə bağlıdır. Sonra da ki, deməli o buna layiq idi ki, Allah onun qarşısına haqqı çıxartdı və qəlbini bu haqqa yönəltdi. Əgər kimsə bu gün haqqı tapa bilmirsə bu onun imtahanıdır. Kimsə haqqı görüb ondan üz çevirirsə bu heç də onun çox bilməsinə dəlalət etmir. Bu onun hələ

---

161 «əl-Qəsəs» surəsi, 56.
162 «əş-Şura» surəsi, 52.

buna layiq olmadığı üçün Allah tərəfindən hidayət olunmaması həqiqətinə söykənir. Odur ki, haqqı qəbul edib ona tabe olan insanın əvvəlki hərəkətlərini camaat arasında yaymaq müsəlmana yaraşan hərəkət deyil.

Əbu Hüreyrədən (r.a.) rəvayət olunan hədisdə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - demişdir: «…kim bir müsəlmanın eybini gizlədərsə, Allah da onun eyblərini dünya və axirətdə gizlədər!…»[163]

**– Mübahisə edən şəxs inadkarlığından haqqı qəbul etməyib bidətinə israr edərsə, camaatı çaşdırmasın deyə onun səhvlərini onlara bəyan etmək;**

İslam dininin gözəlliyini bir daha sübut edən bu fakt cəmiyyətin başının üstünü ala biləcək fitnə-fəsadın qarşısını almaqdan ötrü onu hamıya bəyan etmək, hamını bu barədə məlumatlandırmaq kimi vəzifəni elm əhlinin üzərinə qoyur. Belə məsələləri cahil insanlara həvalə etmək olmaz. Fitnəkar, yalançı və bidətçilər vaxtında ifşa olunub xalqa çatdırılmalıdır. Ümmət uydurulmuş bidətin məzmununu bilməli və ondan imtina edərək üzərinə düşən həqiqi vəzifəni bilərək haqqa boyun əyməlidir.

Əbu Səid əl-Xudri (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** – qəniməti bölərkən Abdullah ibn zil-Xueysirə ət-Təmimi gəlib dedi: «Ədalətlə böl ey Allahın elçisi!» O dedi: «Vay sənin halına! Mən ədalətlə bölməyəndən sonra kim ədalətlə bölə bilər?!» Bunu görən Ömər ibnul-Xattab (r.a.) onun boynunu vurmaq istədikdə Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - ona dedi: «Toxunma ona, doğrudan-

163 Muslimin «Səhih» əsəri 6793.

da onun məsləkdaşları olacaq ki, ox yayından çıxdığı kimi onlarda dindən çıxacaqlar!..»[164]

**– Mübahisə edən şəxsin inadkarlıq göstərdiyini və haqqa istehza etdiyini gördükdə dərhal mübahisəni dayandırmaq;**

İslam bütün gözəl münasibətlərin həyata keçirilməsini insan qarşısında bir tələb kimi qoyur. Yaxşı ilə pis, xeyirlə-şər arasında seçim etmək insanın ixtiyarına verilir. İnsan Allahın bizə təyin etdiyi şəriətlə yaşamağı seçərsə həm dünyada həm də axirətdə səadətə qovuşar. İnsan əgər fərqli mövqe nümayiş etdirərsə dünyada nə isə əldə edə bilsə də (bu da Allahın əlindədir…) axirətdə əbədi olaraq əzaba düçar olur. Bu, səmanın, yerin və onların arasında olanların Yaradıcısı, qüdrət və qüvvət sahibinin qoyduğu rəbbani qaydalardır. Bu qayda-qanunlar, elmi ilə hər şeyi əhatə edən Uca Allah tərəfindən təyin edildiyi üçün onlarda heç bir boşluq, naqislik yoxdur. Bu hökmlər, qaydalar, qadağalar bunları dərk edə bilməyən insan təfəkküründən çox-çox yüksəkdə durduğu üçün onlara istehza edən insanla aparılan mübahisəyə mütləq son qoyulmalı və o insan tərk edilməlidir. Allahın, o insanın nəisə başa düşüb-düşməməsinə əsla ehtiyacı yoxdur. Əksinə insan özü daim nəyəsə möhtacdır. Uca Allah Qurani kərimdə belə buyurur:

﴿ قُلْ هُوَ ٱللَّهُ أَحَدٌ ١ ٱللَّهُ ٱلصَّمَدُ ٢ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ٣
وَلَمْ يَكُن لَّهُۥ كُفُوًا أَحَدٌۢ ٤ ﴾

---

164 Buxarinin «Səhih» əsəri 6933.

«[Ya Məhəmməd!] Allahın zatı və sifətləri səndən soruşan müşriklərə] **de ki:** «[mənim Rəbim olan] **O Allah birdir.** [heç bir şəriki yoxdur]; **Allah** [heç kəsə, heç nəyə] **möhtac deyildir!** [Hamı Ona möhtacdır, O əzəli və əbədidir!] **O, nə doğmuş, nə də doğulmuşdur! Allah** [Allah özünə heç bir övlad götürməmişdir!] **Onun heç bir tayı-bərabəri, bənzəri də yoxdur!».**[165]

**– Elmsiz (cahil) insanlara gəldikdə isə onlarla qəti mübahisə etməmək.**

Uca Allah buyurur:

﴿ خُذِ ٱلۡعَفۡوَ وَأۡمُرۡ بِٱلۡعُرۡفِ وَأَعۡرِضۡ عَنِ ٱلۡجَٰهِلِينَ ١٩٩ ﴾

**«Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!»**[166]

## Elm öyrənən şəxsin əməllərinə görə özünə hesabat verməsi

Uca Allahın insanlara bəxş etdiyi xüsusiyyətlər içərisində düşünmək, fikirləşmək, nəticə çıxarmaq kimi keyfiyyətlər də mövcuddur ki, bunlar bir tərəfdən insanı başqa canlılardan fərqləndirir, digər tərəfdən isə insanın özü ilə bağlı məsələlərdə seçim etməsi üçün geniş imkanlar yaradır. Bu xüsusiyyətlər insanın atacağı hər bir addımı əvvəlcə düşünüb ölçübbiçməsi və sonra isə qərar verməsinə xidmət edir. Bu üstünlüklərə malik canlı, atacağı hər bir addımın, görəcəyi hər bir əməlin Allahın, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** və ən

165 «əl-İxlas» surəsi, 1-4.
166 «əl-Əraf» surəsi, 199.

nəhayət yaşadığı ərazidəki mövcud qanunların tələblərinə zidd olub-olmamasının fərqində olmalıdır. Bu barədə Uca Allah belə buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَطِيعُواْ ٱللَّهَ وَأَطِيعُواْ ٱلرَّسُولَ وَأُوْلِي ٱلۡأَمۡرِ مِنكُمۡۖ

**«Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə** (hakimlərə) **itaət edin!»**[167]

Uca Allahın bu əmrinin təmin olunması üçün hər bir insan, xüsusilə də elm əhli əməllərinə görə daim özünə hesabat verməlidir. Bu səbəbdən o mütləq münasib vaxt seçməli və özünə qarşı bacardıqca tənqidi mövqe tutmalıdır. Münasib vaxt dedikdə mən gündəlik və illik hesabatın veriləcəyi və şəxsin özü tərəfindən təyin etdiyi vaxtı nəzərdə tuturam. Gündəlik hesabat məsələsinə toxunan məhşur İslam alimi ibn Teymiyyənin tələbəsi olmuş ibn Qeyyim demişdir: «Hər bir insan yatmazdan bir saat əvvəl Allah xatirinə oturub gün ərzində etidiyi yaxşı və pis əməllərinə görə özünə hesabsat verməli, sonra yenidən tövbə edib o halda da yatmalıdır».[168] İllik hesabata gəldikdə bu elm əhlinin, insanın mövcud təqvimlə ilin tamam olduğu vaxt etdiyi əməllər barəsində öz vicdanı qarşısında verdiyi hesabatlardır. Lakin təssüflər olsun ki, soydaşlarımızın böyük əksəriyyəti təzə ilin astanasında özünə hesabat vermək əvəzinə yeni ilə elə ilk dəqiqələrdən günahla başlayırlar. «İlin ilk dəqəqələri» Allahın içilməsini qadağan etdiyi şərabla açılır. Görəsən əlinə badə götürüb

---

[167] «ən-Nisa» surəsi, 59.
[168] «ər-Ruh», 1/345.

dostuna nəisə arzulayan soydaşım bu arzunun həyata keçəcəyinə özü inanırmı? Görəsən şərab içən həmvətənlərimin Allahın Qurani Kərimdə buyurduğu:

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِنَّمَا ٱلۡخَمۡرُ وَٱلۡمَيۡسِرُ وَٱلۡأَنصَابُ وَٱلۡأَزۡلَٰمُ رِجۡسٞ مِّنۡ عَمَلِ ٱلشَّيۡطَٰنِ فَٱجۡتَنِبُوهُ لَعَلَّكُمۡ تُفۡلِحُونَ ٩٠ إِنَّمَا يُرِيدُ ٱلشَّيۡطَٰنُ أَن يُوقِعَ بَيۡنَكُمُ ٱلۡعَدَٰوَةَ وَٱلۡبَغۡضَآءَ فِي ٱلۡخَمۡرِ وَٱلۡمَيۡسِرِ وَيَصُدَّكُمۡ عَن ذِكۡرِ ٱللَّهِ وَعَنِ ٱلصَّلَوٰةِۖ فَهَلۡ أَنتُم مُّنتَهُونَ ٩١ ﴾

**«Ey imna gətirənlər! Şərab da** (içkidə), **qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, şeytan içki və qumarla aramıza ədavət və kin salmaq, sizi Allahı yada salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?»[169]** – əmrindən xəbərləri varmı? Xəbəri olan kəs heç şübhəsiz ki, əldə şərab Allahın adını çəkərək arzular və dualar etməz. Bu dualar istənilən halda qəbul deyildir və onu edənə çoxlu günahlar gətirir. Əslində dünyanın yaranma tarixini Allahdan başqa heç kəs bilməz. Bəs görəsən həmin gecə böyük həyacan və ehtirasla saniyələrin tamam olmasını gözləyən insan doğurdanmı ilin həmin anda dəyişdiyinə əmindir? Gülməlidir, elə deyilmi? Əgər ilin dəyişməsini təntənə ilə qeyd etmək lazım olsaydı bunu insan-

169 «əl-Maidə» surəsi, 90-91.

ların ən xeyirlisi və ağıllısı olan Peyğəmbərimiz - **səllallahu aleyhi və səlləm -** edərdi. Əgər ilin dəyişmə tarixinin bəşəriyyətə məlum olması vacib olsaydı bu barədə ilk xəbər tutan da heç şübhəsiz ki, Allahın elçiləri olardı. Təbii ki, gündəlik qayğılarımız və cəmiyyətin işlərinin tənzimlənməsi üçün müəyyən təqvimə ehtiyac var. Elə məhz zərurət ucbatından da müsəlman təqvimində məhərrəm ayı yeni il kimi tarixə düşdü və bu gün də belədir. Müsəlman təqviminə görə məhərrəm ayı yeni ilə başlanğıcdır. Təbii ki, bu da formaldır. Elə bu səbəbdən də müsəlmanlar bunu bayram etmir. Möminlər isə təbii ki, ötən ilin hesabatı ilə məşğul olur. Başını qaldırıb ulduzlu səmanı seyr edib və bunun boşuna yaradılmadığının fərqində olan insan başqa cür hərəkət edə də bilməz. Çünki yaşanan hər dəqiqənin onu bu ulduzlu səmanın Yaradıcısının hər bir kəs üçün hazırladığı haqq-hesab gününə yaxınlaşdırmasının məsuliyyətini dərk edir. İnsanın əməllərinə özünə görə hesabat verməsi həm də arxayınçılıq yaratmamaq üçün bir vasitədir. İslam əqidəsini daşımaq kimi xoşbəxtliyi yaşayan kəs bu işdə tənbəllik etməməlidir. Həqiqi müsəlman daim orta mövqe tutur. Yəni o, nə tam arxayın olur ki, hər şey onun üçün qaydasında olacaq və cənnət əhlindəndir, nə də ki, ümidini üzür ki, nə etsəm də heç bir faydası yoxdur. Həqiqi müsəlman bütün məsələlərdə dəlilə əsaslandığı kimi bu məsələdə də dəlilə əsaslanır. Uca Allah buyurur:

﴿ تَتَجَافَىٰ جُنُوبُهُمْ عَنِ ٱلْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَٰهُمْ يُنفِقُونَ ﴿١٦﴾ ﴾

**«Onlar ibadət üçün yataqlarından qalxar** [gecələr az yatar]**, qorxu və ümid içində** [Allahın əzabından qorxaraq,

mərhəmətinə ümid bəsləyərək] **Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən** [ehtiyacı olanlara] **sərf edərlər».**[170]

Məni təəccübləndirən bir şey də insanların bəzilərinin «mənim qəlbim təmizdir», «ürəyim Allahla düzdür» ifadələrini çox tez-tez işlətmələridir. Allahın əmrlərini bacardığı qədər yerinə yetirməyən insanın ürəyi Allahla necə düz ola bilər? Əmrləri yerinə yetirmədən də ürəyin Allahla düz olacağını iddia edənlər görəsən hansı sübuta və dəlilə əsaslanırlar? Məgər Uca Allah bu barədə kiməsə vəd verib? Əlbəttə ki, yox. Allaha ən yaxın insan Peyğəmbərimiz **- səllallahu aleyhi və səlləm -** idi ki, gecələr namaz qılmaqdan dabanları şişiərdi. Əksinə, Uca Allah insanların bu cürə düşünmələrini yalnız zənn kimi qiymətləndirmiş və onlar üçün şiddətli bir əzab hazırladığını söz vermişdir. Əgər kimsə iddiasında özünü haqlı sayırsa buyursun Qurandan bircə ayə gətirsin. Allah insanlara Onun əmrinə bacardıqları qədər tabe olmağı əmr edib. Fərqli yanaşma olacağı təqdirdə şiddətli bir əzab verəcəyini isə demək olar ki, Quranın hər bir səhifəsində qeyd edib:

﴿ أَفَمَن كَانَ مُؤۡمِنٗا كَمَن كَانَ فَاسِقٗاۚ لَّا يَسۡتَوُۥنَ ١٨ أَمَّا ٱلَّذِينَ
ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ فَلَهُمۡ جَنَّٰتُ ٱلۡمَأۡوَىٰ نُزُلَۢا بِمَا
كَانُواْ يَعۡمَلُونَ ١٩ وَأَمَّا ٱلَّذِينَ فَسَقُواْ فَمَأۡوَىٰهُمُ ٱلنَّارُۖ كُلَّمَآ
أَرَادُوٓاْ أَن يَخۡرُجُواْ مِنۡهَآ أُعِيدُواْ فِيهَا وَقِيلَ لَهُمۡ ذُوقُواْ عَذَابَ

---

[170] «əs-Səcdə» surəsi, 16.

ٱلنَّارِ ٱلَّذِى كُنتُم بِهِۦ تُكَذِّبُونَ ﴿٢٠﴾ وَلَنُذِيقَنَّهُم مِّنَ ٱلْعَذَابِ
ٱلْأَدْنَىٰ دُونَ ٱلْعَذَابِ ٱلْأَكْبَرِ لَعَلَّهُمْ يَرْجِعُونَ ﴿٢١﴾

**«Məgər mömin kimsə ilə** (Allahın ibadətindən çıxmış) **fasiq eynidirmi?! Əlbəttə onlar eyni ola bilməzlər! İman gətirib yaxşı işlər görənləri etdikləri əməl müqabilində qonaq qalacaqları** (sakin olacaqları) **Məva cənnətləri gözləyir** (onlar orada Allahın əbədi qonaqları olacaqlar)**. Fasiqlərə gəldikdə isə, onların məskəni cəhənnəm odudur. Onlar hər dəfə oddan çıxmaq istədikdə yenə ora qaytarılacaq və onlara: «Dadın yalan hesab etdiyiniz cəhənnəm odunun əzabını!» – deyiləcəkdir. Biz ən böyük əzabdan** (axirət əzabından) **əvvəl onlara mütləq dünya əzabından daddıracağıq. Bəlkə,** (tövbə edib düz yola) **qayıdalar!».** [171]

Qurandakı əs-Səcdə surəsindəki bu ayələrlə Uca Allah Onun əmrlərini yerinə yetirməyənlərə və ən qorxulusu isə axirəti - yəni cənnəti və cəhənnəmi yalan sayanlara şiddətli bir əzab verəcəyini insanlara söz verir. Allah verdiyi vədə xilaf çıxan deyil!

Dəyərli həmvətənlərim, bu ayələri oxuduqdan sonra bu günə qədər yaşadığınız həyatın hesabını aparın! Baxın görün bu sizi qane edirmi? Əgər qane edirsə bu nəticələri şəriətin qanunları ilə tutuşdurun. Unutmayın ki, bu yolda nə isə bir uyğunsuzluqla qarşılaşsanız Allahın razı qalacağı yolu seçin.

İnsanın həddən artıq tərif olunması da arxayınçılığa səbəb olan amillərdəndir. İnsanın yaxşı işlərə görə təriflənməsi iki cür nəticə verə bilər. Ya bu tərif onu xeyirxah işlər görməyə sövq edər və beləliklə də Allahın rizasını qazanar, ya-

---

[171] «əs-Səcdə» surəsi, 18-21.

xud da arxayınçılıq yaradar, o şəxsi xeyirxah işlərdən yayındırar və beləliklə də Allahın qəzəbinə səbəb olar. Başqa sözlə desək tərif ya insanın imanını və təvəzökarlığını artırır, yaxud da onu azğınlığa, təkəbbürlü olmağa sövq edir. Əbu Bəkr (r.a.) insanların onu ifrat dərəcədə tərif etdiklərini eşitdikdən sonra Allaha yalvarıb demişdir: «Allahım! Sən məni daha yaxşı tanıyırsan və mən də özümü onlara nisbətdə daha yaxşı tanıyıram. Elə isə Sən məni, onların zənn etdiklərindən də yaxşı et, dediklərinə görə məni qınama və onlara məlum olmayan əməllərimə görə də məni bağışla!»[172]

Müsəlman bacı və qardaşlarım! Baxın, bu o Əbu Bəkrdir (r.a.) ki, Uca Allah Qurani Kərimdə onu Peyğəmbərin - **səllallahu aleyhi və səlləm** - dostu[173] adlandırıb. Bu o Əbu Bəkrdir (r.a.) ki, hələ sağlığında Peyğəmbərimiz - **səllallahu aleyhi və səlləm** - tərəfindən cənnətlə müjdələnib. Və, ən nəhayət, bu o şəxsdir ki, qədərinə İslamın birinci xəlifəsi olmaq kimi şərəfli bir tale yazılmışdır. Bütün bu sadalanan və sadalamadığımız gözəl xüsusiyyətləri ilə əbu Bəkr (r.a.) sonda hər şeyin yaxşı olacağına arxayın deyildi. Ümidini də üzməmişdi və yalnız Allaha təvəkkül edirdi. Bəs biz necə? Məgər biz onun etdiklərinin heç olmasa yüzdə birini etmişikmi ki, bu qədər arxayın dolanırıq? Yox əlbəttə. Elə isə arxayınçılığı qırağa qoy! Qurtuluş elmdə və yaxşı əməldədir. Bu cür arxayınçılıqdan yaxa qurtarmaq üçün isə aşağıdakılara əməl et;

– sidq-ürəklə Allaha dua et;
– bu mövzu ilə əlaqəli elmi əsərlər oxu;
– elm əhlindən nəsihət istə və onlardan ibrət götür;
– nəsihətlərə laqeyd yanaşma;

---

172 «əz-Zuhd» səh:14.
173 «ət-Tövbə» surəsi, 40.

– xeyirxah insanlarla yoldaşlıq et.

## Quranı öyrənməyin fəziləti

Elmdən söhbət açdıqda bütün elmləri özündə birləşdirən, yeganə təhrifsiz səmavi kitab olan Qur’an haqqında ayrıca danışmamaq, bu ecazkar kitaba xüsusi münasibət ifadə etməmək əsla düz olmazdı. Bu kitab əsrləri aşaraq dövrümüzə qədər təhrifsiz gəlib çıxan və qiyamətə qədər də təhrifsiz qalacaq İlahi kəlamdır. Quranın ecazkrlığı zaman-zaman minlərlə dahiləri valeh etmiş, bir çoxları onun kimi nə isə yaratmaq istəmiş lakin əziyyətləri boşa çıxmışdır. Bu da təbiidir, çünki Quran bayaq qeyd etdiyim kimi İlahi kəlamlar toplusudur. Allahın sözünə bərabər söz gətirmək qeyri mümkündür. Bir çox elm sahibləri Qurandakı məlumatlardan faydalanaraq öz elmi fəaliyyətində uğurlar qazanmışlar. Bu səmavi kitabda keçmiş, indiki və gələcək zamanlarda olan hadisələrdən bəhs olunur və zaman keçdikcə, cəmiyyət inkişaf etdikcə bu faktlar öz təsdiqini tapır. Uca Allah bu barədə Öz qullarını hələ on dörd əsr bundan əvvəl xəbərdar etmişdir:

﴿ وَيَرَى ٱلَّذِينَ أُوتُواْ ٱلۡعِلۡمَ ٱلَّذِيٓ أُنزِلَ إِلَيۡكَ مِن رَّبِّكَ هُوَ ٱلۡحَقَّ
وَيَهۡدِيٓ إِلَىٰ صِرَٰطِ ٱلۡعَزِيزِ ٱلۡحَمِيدِ ٦ ﴾

**«Elm verilmiş şəxslər Rəbbindən sənə nazil edilənin** [Quranın] **haqq olduğunu və onun** [möminlərə] **yenilməz qüvvət**

**sahibi və hər cür şükrə, tərifə layiq olan Allahın yolunu göstərdiyini görürlər.»**[174]

Qurana müxtəlif quruluşlarda, siyasi rejimlərdə çox fərqli münasibətlər olub. Elə quruluş olub ki, o dövr alimləri əsərlərinə ön söz kimi məhz Quran ayələrini seçmiş və əksinə elə rejimlər də olub ki, Quranın qiymətini aşağı salmağa cəhdlər göstərib. Məsələn «qırmızı imperiya» dövründə insanların həqiqi Quran elmindən ayrı salınması bu əvəzsiz kitaba layiq olmayan münasibətlərin ortaya çıxması ilə nəticələndi. Millətin əvvəlki illərdə ateist ruhda tərbiyə olunması mənəviyyatımıza öz təsirini göstərmiş və bunun nəticəsində illər ötdükcə xalqımız bu ecazkar kitabdan tədricən uzaq düşməyə başlamışdır. Bunun da nəticəsində şəriətə aid olmayan normalar, bidətlər və bəzi el adətləri dini hökmlər kimi qəbul edilmişdir. Unutmamalıyıq ki, hər bir müsəlman digərlərinin adət-ənənələrinə hikmətlə yanaşmalı, lakin onların Allah tərəfindən təyin olunduğuna əsassız olaraq etiqad etməməlidir. Təbii ki, o dövrdə həqiqətən savadlı, millətini və dinini sevən insanlar da olmuşdur. Lakin onların sayca çox az olması bu mənada müsbət effekt yarada bilməmişdir. Qurandan baxıcılıq və falçılıq kimi Allah və Onun rəsulunun **- səllallahu aleyhi və səlləm -** haram buyurduğu «peşələrdə» istifadə olunması, bu kitabı oxumaq əvəzinə ya qalın parçalara bükülüb çox gizli yerdə saxlanılması, ya da bəzək əşyası kimi istifadə olunması - bir sözlə onlarla hələ adını çəkmədiyim lüzümsuz hallar, bidətlər və haramların Qurana aid edilməsi kimi hallar - məhz bu dövrün təsiri nəticəsində baş vermişdir. Şükürlər olsun ki, Allahın köməyi və vətənimizin mərd oğullarının səbəbkar olması sayəsində

---

[174] «Səba» surəsi, 6.

Azərbaycanımız öz müstəqilliyini bərpa etdikdən sonra belə halların qarşısını almağa, milləti bu sahədə maarifləndirməyə də şərait yarandı. Quranı bircə dəfə tərcümədən mütaliə etmiş şəxs bilir ki, bu kitabda kiminsə itmiş inəyi, yoxa çıxmış qohum-əqrəbası və ya hansısa şəxsin keçmiş və ya gələcəkdə olacaq qədəri barəsində heç bir məlumat verilmir.

Qurani Kərim, nazil olmuş bütün səmavi kitabların içərisində ən kamili hesab olunur və öz üstünlükləri ilə digər kitablardan seçilir. Onun əsas məziyyətləri isə aşağıdakılardan ibarətdir:

– Quranın yeganə təhrif olunmamış kitab sayılması. Uca Allah buyurur:

﴿إِنَّا نَحۡنُ نَزَّلۡنَا ٱلذِّكۡرَ وَإِنَّا لَهُۥ لَحَٰفِظُونَ ٩﴾

**«Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu** [hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən] **qoruyub saxlayacağıq!»**[175]

– Qurana bənzər kitabın yazılmasının mümkün olmaması. Uca Allah buyurur:

﴿وَإِن كُنتُمۡ فِي رَيۡبٖ مِّمَّا نَزَّلۡنَا عَلَىٰ عَبۡدِنَا فَأۡتُواْ بِسُورَةٖ مِّن
مِّثۡلِهِۦ وَٱدۡعُواْ شُهَدَآءَكُم مِّن دُونِ ٱللَّهِ إِن كُنتُمۡ صَٰدِقِينَ ٢٣ فَإِن

[175] «əl-Hicr» surəsi, 9.

لَّمْ تَفْعَلُواْ وَلَن تَفْعَلُواْ فَٱتَّقُواْ ٱلنَّارَ ٱلَّتِى وَقُودُهَا ٱلنَّاسُ وَٱلْحِجَارَةُ أُعِدَّتْ لِلْكَٰفِرِينَ ﴿٢٤﴾

**«Əgər bəndəmizə** [Məhəmmədə] **nazil etdiyimizə** [Qurana] **şəkkiniz varsa, siz də** [fəsahətdə və bəlağətdə] **ona bənzər bir surə gətirin və əgər sizin** [bu, bəşər kəlamıdır] **iddianız doğrudursa, Allahdan savayı bütün şahidlərinizi** [bütlərinizi, şair və alimlərinizi] **bu işdə köməyə çağırın! Madam ki, belə bir iş bacarmırsınız, heç bacara da bilməzsiniz, o halda kafirlər üçün hazırlanmış, yanacağı** [günahkar] **insanlardan və kibrit daşlarından ibarət olan oddan** [Cəhənnəmdən] **həzər edin!»**[176]

– Quranın sonuncu kitab olması və özündən əvvəlki səmavi kitabları nəsx etməsi. Uca Allah buyurur:

﴿ مَّا كَانَ مُحَمَّدٌ أَبَآ أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَٰكِن رَّسُولَ ٱللَّهِ وَخَاتَمَ ٱلنَّبِيِّـۧنَ وَكَانَ ٱللَّهُ بِكُلِّ شَىْءٍ عَلِيمًا ﴿٤٠﴾

**«Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!»**[177]

Məhəmməd **- səllallahu aleyhi və səlləm -** peyğəmbərlərin sonuncusu olduğu üçün ondan sonra qiyamətə qədər ona nazil olanı nəsx edən və ya qüvvədən salan bir kitab olmayacaqdır.

– Bu səmavi kitabda keçmiş, indiki və gələcək zamanlarda olan hadisələrdən, xüsusəndə qeybi məsələlərdən bəhs

---

[176] «əl-Bəqərə» surəsi, 23-24.
[177] «Əl-Əhzab» surəsi, 40.

olunur ki, buna bənzər heç bir kitab, heç bir məxluq (kahinlər, cinlər və s. qeybdən) dəqiq xəbər verə bilməz;

– Quran ən çox oxunan, əzbərlənən, çap olunan, hədiyyə edilən, izah olunan və ən nəhayət ehtiram göstərilən yeganə kitabdır.

Quranı özbaşına oxuyub dərk etmək mümkün deyil. Elə olsa idi Uca Allah Peyğəmbəri **- səllallahu aleyhi və səlləm -** onu insanlara başa salmaq üçün seçməzdi. Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** hədislərini inkar edənlərə Allahın bu ayəsi kifayətdir:

وَأَنزَلْنَآ إِلَيْكَ ٱلذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ ﴿٤٤﴾

**«Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni izah edəsən və, bəlkə, onlar da düşünüb dərk edələr!»**[178]

Təkcə Quran bizə kifayət etsəydi onu izah edən şəxsə ehtiyac olmazdı və Peyğəmbərə **- səllallahu aleyhi və səlləm -** onu izah etmədən yalnız təbliğ etmək əmr olunardı. Qeyd etmək lazımdır ki, Quranı lazımı şəkildə öyrənməyənlərin aqibəti çox pis olur.

Ömər ibnu-l-Xattab (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Həqiqətən Allah bu kitabla bir qism insanları ucaldır, digərlərini isə alçaldır».[179]

---

[178] «ən-Nəhl» surəsi, 44.
[179] Muslimin «Səhih» əsəri 1894.

Quranı başa düşmək, xüsusən də əzbərdən yadda saxlamaq böyük nemətdir və Uca Allah onu yalnız istədiyi bəndələrinə bəxş edir. Bu böyük neməti əldə etmək üçün ilk əvvəl onu sidq-ürəklə Allahdan istəmək, sonra Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** izahlarını diqqətlə oxumaq və başqa mühüm vasitələrdən də istifadə etmək lazımdır. Quranı əzbərləmək üçün mühüm vasitələrdən bəziləri aşağıdakılardır:

– bunun üçün müəyyən vaxt ayırmaq;
– əzbərlənən ayələrin oxunuşunu qaridən dinləmək;
– təkrarlamaq üçün müəyyən vaxt ayırmaq;
– ayələri eyni nüsxəli Qurandan əzbərləmək;
– fürsət əldə etdikcə ayələri təkrar etmək;
– günahlardan çəkinmək;
– Allahın mərhəmətindən ümidü üzməmək:
– yeni əzbərlənən ayələri namazlarda oxumaq;
– ayənin mənasını anlamaq üçün onun təfsirini oxumaq;
– ilk dəfədən çox əzbərləməklə beyni yormamaq;

Əbu Əbdürrəhman əs-Suləmi rəvayət edir ki, Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** səhabələri Qurandan on ayə öyrənib ona əməl etməyincə növbəti ayələri öyrənməzdilər»[180]

– daima aşağıdakı hədis haqqında düşünmək.

Osman ibn Affan (r.a.) rəvayət edir ki, Peyğəmbər – **səllallahu aleyhi və səlləm** – dedi: «Sizin ən xeyirliniz Quranı öyrənən və (onu insanlara) öyrədəndir!»[181]

Hər bir müsəlman Qurandan əzbərlədiyini gecə namazında təkrarlayarsa, Allahın izni ilə o ayələr onun yadından heç

---

180 «ibn Kəsirin təfsiri» 1/2.
181 Buxarinin «Səhih» əsəri 5027.

zaman çıxmaz. Doğrudan da gecə namazı fərz namazlarından sonra ən əfzəl namaz hesab olunur. Gecə namazı ilə əlaqəli neçə-neçə əsərlər yazılmış və onun fəziləti haqqında varid olan hədislər orada açıqlanmışdır ki, onlardan bəzilərini oxucularımıza təqdim edirik.

**– Fərz namazlarından sonra ən əfzəl namaz hesab olunması;**

Əbu Hureyrə (r.a.) rəvayət edir ki, Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** - " fərz namazlarından sonra hansı namazın ən əfzəl sayılması" barəsində soruşdular və o dedi: «Fərz namazlarından sonra ən əfzəl sayılan namaz gecə qılınan namazdır!»[182]

**– Mömininin şərəfi olması;**

Əbu Hureyrə (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Mömininin şərəfi gecə namazını qılmasındadır…»[183]

**– Saleh insanların adətlərindən hesab olunması;**

**– İnsanı Allaha yaxınlaşdıran vasitələrdən olması;**

**– İnsanı pis əməllərdən çəkindirən amil olması;**

**– Kiçik günahları silən amil olması;**

– **Bədən xəstəliklərini** (keylik, ölüvaylıq, tənbəllik və s.) **aradan qaldıran amil olması;**

Bilal (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm** - dedi: «Gecə namazı qılın! Həqiqətən o, sizdən əvvəlki saleh insanların adətlərindən, Allaha yaxınlaşdıran vasitələrdən, pis əməllərdən çəkindirən, kiçik günahları silən və bədən xəstəliklərini aradan qalldıran amillərdəndir!»[184]

---

182 Muslimin «Səhih» əsəri 2748.

183 «Silsilətu-l-əhadisi-sahihə» 1903, «Səhihu-l-cami» 3710. **[Hədis həsəndir]**

184 «Səhihu-l-cami» 4079; «İrvau-l-Ğalil» 452.

**– Peyğəmbərin - səllallahu aleyhi və səlləm - Mədinə əhlinə tövsiyə etdiyi ilk nəsihətlərdən olması;**

Abdullah ibn Salam (r.a.) rəvayət edir ki, Peyğəmbər - **səllallahu aleyhi və səlləm -** Mədinəyə gəldikdə insanlar "Allahın elçisi gəlib, Allahın elçisi gəlib!" – deyə tələm-tələsik onun yanına getdilər. Mən də onlarla bərabər Peyğəmbərin - **səllallahu aleyhi və səlləm -** yanına getdim. Mən Peyğəmbərin - **səllallahu aleyhi və səlləm -** üzünə baxan kimi onun yalançı olmadığını başa düşdüm. Onun Mədinə əhlinə tövsiyə etdiyi ilk nəsihəti belə oldu: «Ey insanlar! Salamı yayın, kasıbları yedizdirin, insanlar yatan zaman namaz qılın və beləliklə də Cənnətə daxil olun!»[185]

**– Gizlində qılındığı üçün savabının daha çox olması;**

Suheyb (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Kişinin (və ya qadının) gizlində qıldığı nafilə namazının savabı, insanlar arasında qıldığı nafilə namazından iyirmi beş dəfə artıqdır.» [186]

**– Bu namazın, Allahın dünya səmasına** (keyfiyyəti bizə məlum olmayan halda) **nüzul etdiyi zaman qılınması;**

Əbu Hureyrə (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Uca Rəbbimiz gecənin axır üçdə birində dünya səmasına nüzul edir və deyir: Mənə dua edənin duasını qəbul edərəm, istədiyini verərəm, bağışlanma diləyəni də bağışlayaram!»[187]

**– Dərəcələrin (savabların) artmasına səbəb olması;**

**– Xeyir qapılarından bir qapı olması;**

Muaz ibn Cəbəl (r.a.) rəvayət edir: «Mən Peyğəmbərə - **səllallahu aleyhi və səlləm -** dedim: Ey Allahın elçisi! Cənnətə da-

---

185 «Sünənu-t-Tirmizi» 2490.

186 «Səhihu-l-cami» 3821.

187 Buxarinin «Səhih» əsəri 1145.

xil edən, Cəhənnəmdən uzaqlaşdıran bir əməli mənə öyrət! O dedi: Sən çətin şey haqqında soruşdun, lakin o, Allahın istədiyi bəndəsi üçün sadələşdirdiyi asan əməldir. Allaha ibadət et və ona heç kəsi şərik qoşma! Namaz qıl, zəkat ver, oruc tut və Allahın evini ziyarət et! İstəyirsən sənə xeyir qapılarını göstərim? Oruc (pis əməllərə qarşı müqavimət göstərən bir) qaladır. Sədəqə su odu söndürdüyü kimi, günahları silir. Həmçinin kişinin (və ya qadının) gecə qıldığı nafilə namazı da (bu qapılardandır) deyib bu ayələri oxudu:

﴿ تَتَجَافَىٰ جُنُوبُهُمْ عَنِ ٱلْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَٰهُمْ يُنفِقُونَ ﴿١٦﴾ فَلَا تَعْلَمُ نَفْسٌ مَّآ أُخْفِىَ لَهُم مِّن قُرَّةِ أَعْيُنٍ جَزَآءًۢ بِمَا كَانُوا۟ يَعْمَلُونَ ﴿١٧﴾ ﴾

**"Onlar ibadət üçün yataqlarından qalxar, qorxu və ümid içində** [Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək] **Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən** [ehtiyacı olanlara] **sərf edərlər. Etdikləri əməllərin mükafatı olaraq** [Allah dərgahında] **möminlər üçün göz oxşayan** [onları sevindirəcək] **nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!"[188]...**»[189]

Lakin qeyd etmək lazımdır ki, gecə namazını qılmaq üçün şirin yuxudan oyanmaq çox çətindir. Elə isə nəfsimizlə mübarizə aparmaq üçün aşağıdakı amillərdən istifadə edək:

– Gecə namazını qılmaq üçün səmimi qəlbdən Allaha dua etmək;

---

[188] «əs-Səcdə» surəsi, 16-17.

[189] «Müsnəd» 5/230, «Sünənu-t-Tirmizi» 2616.

– Fərz namazlarını vaxtında qılmaq;

– İşa namazından sonra məşğuliyyət olmadığı halda vaxtında yatmaq;

– Günortalar dincəlmək;

– Pis əməllərdən çəkinmək;

– Nəfslə mübarizə aparmaq və bu gözəl əməli sonraya saxlamamaq;

– Zəngli saat və s. bu kimi vasitələrdən istifadə etmək.

– Daima aşağıdakı hədis haqqında düşünmək.

Əbu Hureyrə (r.a.) rəvayət edir ki, Peyğəmbər **- səllallahu aleyhi və səlləm -** dedi: «Uca Rəbbimiz gecənin axır üçdə birində dünya səmasına nüzul edir və deyir: Mənə dua edənin duasını qəbul edərəm, istədiyini verərəm, bağışlanma diləyəni də bağışlayaram!»[190]

Gecə namazını qılmağın əsas faydaları bunlardır:

– hafizənin qüvvətlənməsi;

– Fəcr namazının vaxtında qılınmasına səbəb olması;

– gecə namazı qılanın əvvəlki saleh insanlara oxşaması.

## Elm əhlindən nümunələr və sələfin (keçmiş nəslin) bir-birinə olan münasibəti

Müsəlman bacı və qardaşlarım! Kitabın bu bölməsində elm əhlindən bizə gəlib çatan və onlara aid bəzi xüsusiyyətləri, bizdən öncə yaşamış və Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** sünnəsinə (yoluna) daim sadiq olmuş sələflərimizə (keçmiş nəslə) aid misalları nəzərinizə çatdırmaq istəyirəm. Onların bir-birinə olan münasibəti İslam mühitinin insana

[190] Buxarinin «Səhih» əsəri 1145.

təsirinin bariz nümunəsidir. Onların təvəzökarlığına, mərdliyinə və mədəniyyətinə qibtə etməmək mümkün deyil. Başqa cür ola da bilməzdi. Çünki, onlar İslam kimi əzəmətli dinin təmsilçiləri idi. Peyğəmbərimizin **- səllallahu aleyhi və səlləm -** gətirdiyi şəriətə daim diqqət və ehtiram göstərən bu sələflər tarixdə iz qoymuş, Allahın razılığını və iman sahiblərinin məhəbbətini qazanmış insanlar kimi bu gün də xatırlanılır. Yaranmışların ən şərəflisi, Allahın seçdiyi, insanların böyük əksəriyyətinin seçdiyi və hamıya nümunə Məhəmməd Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** olması Quran və mötəbər hədislərlə sabitdir. Həmçinin onun ümməti, insanlar arasına çıxarılmış ən xeyirli ümmətdir. Uca Allah buyurur:

كُنتُمۡ خَيۡرَ أُمَّةٍ أُخۡرِجَتۡ لِلنَّاسِ تَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَتَنۡهَوۡنَ
عَنِ ٱلۡمُنكَرِ وَتُؤۡمِنُونَ بِٱللَّهِۗ وَلَوۡ ءَامَنَ أَهۡلُ ٱلۡكِتَٰبِ لَكَانَ خَيۡرٗا لَّهُمۚ

**«Siz insanlar üçün çıxarılmış ən yaxşı ümmətsiniz. Yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınz. Əgər kitab əhli də** [sizin kimi] **iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı.»**[191]

– Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri otuz min səhifədən ibarət təfsir (və ya tarix) kitabı yazmış, tələbələrinin narazıçılığından sonra isə onu üç min səhifəyə qədər azaltmış və demişdir: «Allahu Əkbər! Məhv oldu elm öyrənmək üçün göstərilən səy!»[192]

– İbn Teymiyyə demişdir: «Həqiqətən səhabələr Allahın sifətləri ilə əlaqəli olan ayə və hədislərə istədikləri kimi məna

---

[191] «Ali İmran» surəsi, 110.
[192] «Təzkiratu-l-huffaz» 2/712.

vermәmişlәr. Onlardan rәvayәt olunan hәdislәrә vә tәfsirlәrә baxdım, yüzdәn çox tәfsir kitablarını araşdırdım vә onlardan hәr birinin Allahın sifәtlәri ilә әlaqәli olan ayә vә hәdislәrә istәdiyi kimi mәna vermәdiyinin şahidi oldum».[193]

– Zәhәbi rәvayәt edir ki, әl-Bәrzali mәnim xәttimi görüb dedi: «Hәqiqәtәn sәnin xәttin mühәddislәrin (hәdis alimlәrinin) xәttinә oxşayır». Bununla da Allah hәdis elmini mәnә sevdirdi.[194]

Doğrudan da, Zәhәbi böyük hәdis alimlәrindәn sayılır.

– Hәdis elmindә şeyxu-l-islam sayılan Әhmәd ibn Hәcәr әl-Әsqalani qiymәtli әsәrlәrin müәllifidir. Әn mәhşur kitabı isә «Fәthu-l-Bari» adlı Sәhihu-l-Buxarinin şәrhidir. İbn Xaldun demişdir: «Sәhihu-l-Buxarini şәrh etmәk ümmәtin boynunda qalan haqdır». Әbu-l-Xeyr әs-Sәxavi demişdir: «Әgәr ibn Xaldun, ibn Hәcәrin şәrhini görsә idi gözlәri yaşla dolardı vә görәrdi ki, hәqiqәtәn ümmәtin haqqı lazımınca ödәndi».[195]

– әl-Muzәni üsuli fiqh elminә aid Şafeinin «Risalә» kitabını әlli dәfә oxmuşdur.[196]

– Әbu-l-Huseyn әl-Әsәdi әlli il insanlara elm öyrәtmişdir.[197]

– Hәmәdan ibn Hani rәvayәt edir ki; «Mәn qrammatikadan başa düşmәdiyim bir fәsli başa düşmәk üçün sәkkiz min dirhәm xәrclәdim».

– Zәhәbi rәvayәt edir ki, Zeyd ibnu-l-Hәsәn әl-Kindi on yaşında on növ qiraәtlә әzbәrdәn Quran oxuyurdu.[198]

---

193 «әn-Nur» surәsinin tәfsiri, sәh: 210.
194 «Siyәru alәmu-n-nubәlә», 1/36.
195 «Siratu-l-imamu-l-Buxari» sәh:123.
196 «Muqәddimәtu-r-risalә» sәh:4.
197 «Tәhzibu-t-tәhzib» 7/127.
198 «Mәrifәtu-l-qurrau-l-kibar» 2/468.

– Nueym əl-Mucmir iyirmi il ardıcıl olaraq Əbu Hureyrənin yanında dərs alıb.[199]

– Abdullah ibn Nafi otuz beş il imam Malikin yanında dərs alıb.[200]

– İsmail əl-Curcani hər gecə diqqətlə doxsan səhifə yazardı. Zəhəbi deyir ki; «O, bu minvalla bir həftə ərzində "Səhih Muslimi" yaza bilərdi.[201]

– ibn Əbdürrəhman rəvayət edir ki; «Mən Quranın erabını (qrammatik təhlilini) qırx və ya qırx beş ilə öyrəndim.[202]

– Malik rəvayət edir ki, «Əbu Bəkrin (r.a.) xilafəti dövründə bir kişi yuxuda görür ki, artıq qiyamət qopub, insanlar məhşərə toplanıblar və Ömər ibnu-l-Xattab (r.a.) da onların arasında fəzilət və şərəflə seçilir. O deyir ki, "Mən soruşdum: Nəyə görə Ömər ibnu-l-Xattab (r.a.) onların arasında fəzilət və şərəflə seçilir? Mənə deyildi ki, bu fəzilət onun xəlifə və şəhid olmasına, həmçinin Allah xatirinə heç bir tənə və məzəmmətdən qorxmadığına görədir." Yuxudan oyandıqdan sonra kişi gedib yuxusunu Ömərə (r.a.) danışdı. Bu vaxt Ömər (r.a.) Əbu Bəkr (r.a.) ilə bir məclisdə idi. O, kişinin röyasını dinlədikdən sonra ona məclisi tərk etməyi əmr etdi. Əbu Bəkrin (r.a.) vəfatından sonra xilafətə gəldikdə isə onu çağırıb röyasını təkrar danışmağı ona əmr etdi. Kişi təəccüblə dedi: "Məgər sən o zaman mənim dedikilərimi rədd etmədinmi?" Ömər (r.a.) dedi: "Məgər sən, Əbu Bəkr (r.a.) iştirak edən məclisdə mənim fəzilətimdən danışmağa utanmadınmı?!"[203]

---

199 «Siyəru aləmu-n-nubələ», 5/227.

200 «Siyəru aləmu-n-nubələ», 8/108.

201 «Siyəru aləmu-n-nubələ», 13/54.

202 «ət-Tarixu-l-kəbir» 3/82.

203 «əl-Mudəvvənətu-l-kubra» 1/304-305.

– Əli bin Əbu Talib (r.a.) Kufə məscidində xütbə verdiyi zaman demişdir: «Ey insanlar! Osmanın əleyhinə danışırsınız, lakin həqiqətən, mən və Osman Allahın müjdələdiyi müsəlmanlardanıq" – deyib bu ayəni oxudu:

﴿ وَنَزَعْنَا مَا فِي صُدُورِهِم مِّنْ غِلٍّ إِخْوَانًا عَلَىٰ سُرُرٍ مُّتَقَابِلِينَ ﴾ ٤٧

**«Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər.»**[204]

– İbn Əbi-d-Dunya rəvayət edir ki, Səd (r.a.) və Xalidin (r.a.) arasına ixtilaf düşür. Bir nəfər Sədin (r.a.) yanına gəlib Xalidi (r.a.) məzəmmət edir. Bunu eşidən Səd (r.a.) ona susmağı əmr edir və deyir: «Bizim aramıza düşən ixtilafın dinimizə heç bir aidiyyəti yoxdur.»[205]

– Yunus əs-Sədəfi rəvayət edir ki, «Bir məsələdə mənimlə imam Şafei arasında fikir ayrılığı var idi. Bir gün biz rastlaşdıq və o mənim əlimdən tutub dedi: "Ey Yunus! Məgər bizim aramızda olan fikir ayrılığı qardaş olmağımıza mane ola bilərmi?" Doğrudan da mən ondan ağıllısını görmədim.»[206]

– Əhməd ibn Hənbəl məclislərin birində Şafeinin fəzilətini, əxlaqını xüsusən vurğuladı, onu təriflədi və onun üçün dua etdi. Məclisdə iştirak edənlirin bəziləri ona xəbər verdi ki, bir neçə alim Şafeini məzəmmət edir. Əhməd ibn Hənbəl dərhal məsələnin nə yerdə olduğunu başa düşüb dedi: «Bilin ki, Uca Allah hər hansı bir şəxsə elm bəxş edib həmkarlarını

---

204 «əl-Hicr» surəsi, 47-ci ayə.

205 «əs-Samt və hifzu-l-lisan» səh:137.

206 «Siyəru aləmu-n-nubələ», 10/16.

bundan məhrum etdikdə onlar ona həsəd aparar və onun haqqında olmayan şeylər danışarlar. Elm əhlində olan bu xislət nə pisdir!»[207]

– Bir nəfər ibn Teymiyyəni sevindirmək üçün düşmənlərindən birinin ölüm xəbərini müjdə olaraq ona xəbər verdi. Lakin ibn Teymiyyə qəzəbləndi və onu məzəmmət edərək buyurdu: «Müsəlmanın ölümünə sevinirsən?! Buna nə Allah, nə də qəlbində islama və müsəlmanlara məhəbbət olan şəxs sevinməz!» Sonra ibn Teymiyyə ölən şəxsin əhli-əyalının yanına getdi və dedi: «Bu gündən etibarən mən sizin valideyninizəm!»[208] – (yəni, hər bir ehtiyacınızı ödəməyə hazıram.)

– Zəhəbi rəvayət edir ki, Məhəmməd ibn Səlləm və Əbu Həfsin arasında olan fikir ayrılığına baxmayaraq onlar bir-birini çox sevir və çox mehriban münasibətdə idilər.»[209]

– Süfyan ibn Uyeynə Misirin şeyxi ibn Vahb ilə bir məclisdə ikən ondan bir məsələ barəsində soruşdular. O, bu məsələ barəsində məclisdə iştirak edən ibn Vahbdan soruşmağı məsləhət bilib dedi: «Bu şeyx Misir alimidir və sizin sualınıza da lazımi cavabı o verəcək.»[210]

– Qrammatika üzrə böyük alimlərdən sayılan əl-Əxfəş, Siybaveyhdən yaşlı olmağına baxmayaraq uzun müddət ondan dərs almışdır ki, bu da onun təvəzökarlığına və elmə olan hərisliyinə dəlalət edir.[211]

---

207 «Siyəru aləmu-n-nubələ», 10/45-58.
208 «Məalimu fi tariqi taləbi-l-elm» səh:107.
209 «Siyəru aləmu-n-nubələ», 10/630.
210 «Siyəru aləmu-n-nubələ», 9/233.
211 «Siyəru aləmu-n-nubələ», 10/206.

– Sələmə deyir ki, «Mən Fərraya təəccüb edirəm ki, o, Kisaidən yaşda böyük, elmdə də üstün olmağına baxmayaraq onu çox tərifləyib ucaldır»[212]

– Məkkə alimlərindən olan Vakiy ibnu-l-Cərrah Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** vəfatı ilə bağlı hədis rəvayət edir və bu hədis bir çoxlarının, xüsusən də Haşimilərin ona qarşı çıxmağına səbəb olur. Onlar Məkkənin əmirinə şikayət edirlər və o da Vakiy ibnu-l-Cərrahı zindana salır. Onun haqqında yayılan şayiələr Süfyan əs-Səuriyə də gəlib çatır. Onunla Vakiy ibnu-l-Cərrah arsında mövcud olan fikir ayrılığına məhəl qoymayan Süfyan əs-Səuri əmirin yanına gəlib ona Vakiy ibnu-l-Cərrahın insanlar arasında olan hörmətini xatırladır və onu azad etməsini nəsihət edir. Əmir də öz növbəsində Süfyan əs-Səurinin nəsihətini qəbul edir və onu azad edir.[213]

– Əhməd ibn Hənbəl, İshaq ibn Rahaveyhi tərifləyib demişdir: «İshaqın mislində Xorasana qədər körpü salınmamışdır (onun kimisi gəlməmişdir.) Onunla bizim aramızda olan fikir ayrılığı isə, insanlar (alimlər) arsında hər zaman mövcud olan fikir ayrılığı kimidir.[214]

– Əhməd ibn Hənbəl və ustadı İsmail ibn Uleyyə elm məclisində iştirak edirdilər. İsmail ibn Uleyyə öz tələbəsinin elmini yüksək qiymətləndirdiyi üçün, camata namaz qıldırmağı ona təklif etdi.[215]

Yuxarıda qeyd olunan misallardan açıq aydın görünür ki, sələf bir-birinə qarşı çox mehriban və alicənab olmuşlar.

---

212 «Məalimu fi tariqi tələbi-l-elm» səh:107.
213 «Siyəru aləmu-n-nubələ», 9/159.
214 «Siyəru aləmu-n-nubələ», 11/371.
215 «Siyəru aləmu-n-nubələ», 11/194.

Doğrudan da, bu xislət həqiqi müsəlmana yaraşan bir xislətdir. Uca Allah buyurur:

﴿ وَلَا تَسْتَوِي ٱلْحَسَنَةُ وَلَا ٱلسَّيِّئَةُ ۚ ٱدْفَعْ بِٱلَّتِي هِيَ أَحْسَنُ فَإِذَا
ٱلَّذِي بَيْنَكَ وَبَيْنَهُۥ عَدَٰوَةٌ كَأَنَّهُۥ وَلِيٌّ حَمِيمٌ ﴿٣٤﴾ ﴾

**«Yaxşılıqla pislik eyni ola bilməz! Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!»**[216]

مُّحَمَّدٌ رَّسُولُ ٱللَّهِ ۚ وَٱلَّذِينَ مَعَهُۥٓ أَشِدَّآءُ عَلَى ٱلْكُفَّارِ رُحَمَآءُ بَيْنَهُمْ ۖ

**«Məhəmməd Allahın elçisidir. Onunla birlikdə olanlar** [möminlər] **kafirlərə qarşı sərt, bir-birinə** [öz aralarında] **isə mərhəmətlidirlər.»**[217]

## Tövsiyələr

Müsəlman sözü dilə gələn kimi əxlaq anlayışının da ondan uzaq olmaması fikri, o an təsəvvürümüzdə canlanır. Əgər hansısa bir müsəlman adlandırılan şəxs bu anlayışdan uzaqdırsa bu onun sadəcə coğrafi müsəlman olması ilə bağlıdır. Əlbəttə ki, mən coğrafi müsəlman anlayışını bəzi həmvətənlərimə aid etmək istəməzdim. Lakin hər şey mənim istəyim ilə bağlı deyildir. Uca Allah insanları həm ruzi, həm əxlaq, həm davranış və s. baxımdan fərqli yaradıb. Bütün in-

---

[216] «Fussilət» surəsi, 34.
[217] «əl-Fəth» surəsi, 29.

sanlar dünya imtahanlarının tərkib hissəsidir. Əxlaqın tərkibinə aid bir məsələ də nəsihətdir. Nəsihətə qulaq asmaq isə məhz müsəlmana xas xüsusiyyətdir. Bu məsələlərə əvvəlki bölmələrdə toxunmuşam. İndi isə kitabın bu sonuncu bölməsində bəzi tövsiyələri sizin nəzərinizə çatdırmaq istərdim. İnanıram ki, təvəzökarlıq nümayiş etdirərək onları qiymətləndirəcək və həyatınıza tətbiq edəcəksiniz.

*** Oxumaqla əlaqəli faydalı məsələlər;**

– Elm öyrənməyə rəğbətləndirən kitablar oxumaq;
– Elm əhlinin tərcümeyi-halını oxumaq;
– Kitabın içndəki faydaları ayrıca kitabın arxasına qeyd etmək;
– Kitablarda olan mühüm faydaları müəyyən bir yerə qeyd etmək;
– Mərasimlərdən (oruc, qurban və s.) bir müddət əvvəl onlarla əlaqəli mövzuları oxumaq;
– Mühüm məsələlərlə əlaqəli kitablar almağa daha çox səy göstərmək;
– Çətin başa düşülən kitabları və ya mövzuları başa düşmək üçün bir neçə dəfə təkrar oxumaq;
– Oxumaq üçün ayrıca vaxt təyin etmək;
– Kitab aldıqda onu vərəqləyib naqis olub-olmadığını yoxlamaq;
– Kitabı diqqəti yayındıran şeylərdən kənarda oxumaq.

*** Elm öyrənən şəxsin kitab aldıqda və verdikdə riayət edəcəyi qaydalar;**

Hər bir işin qayda-qanunu olduğu kimi, bu işin də öz prinsipləri mövcuddur. Elə isə hər bir elm öyrənən şəxs bilməlidir ki, kitab alıb-vermək özü də bir elmdir və bunun da öz əsasları vardır. Bu əsasları lazımınca yerinə yetirməmək isə kitablardan düzgün istifadə etməmək və onları itirməklə nəticələnir. Elə buna görə də oxucuların kitablardan düzgün istifadə etməsi üçün bu kitabda həmin qaydaları qeyd etmək münasibdir. Bu qaydalar aşağıdakılardır:

– kitabı, şkafın rəflərini doldurmaq və bunula da fəxr etmək niyyəti ilə almamaq;

– kitab aldıqda, onu oxumuş və ya kitab haqqında məlumatı olan şəxslə məsləhətləşmək;

– kitabın bir neçə şərhi varsa, bu şərhlər barəsində məlumatı olan şəxslə məsləhətləşib ən yaxşı şərhi almaq;

– kitab bir neçə dəfə çap olunubsa axırıncı dəfə çap olunmuş nüsxəni almaq;

– kitabın tədqiq olunmuş nüsxəsi varsa yalnız onu almaq;

– alınan kitabı dərhal vərəqləmək və onun naqis olub olmadığını yoxlamaq;

– alınan kitabın müqəddiməsinə və mündəricatına nəzər salıb içində olan mövzularla tanış olmaq;

– kitabı sərfəli qiymətə almaq üçün, satılan bütün yerlərdən onun qiymətini öyrənmək;

– alınan kitabı bəyənmədikdə onu yerinə qoymaq və hara gəldi atmamaq;

– alınan kitabı bəyənmədikdə onu başqalarına pisləməmək (bidət olan kitablardan başqa);

– yalnız kitabın həqiqi naqisliyini həm satana, həm də alana bəyan etmək;

– kitabı yalnız oxuyub faydalanmaq və ondan lazımi qədər məlumat əldə etmək istəyən şəxsə vermək;

– kitabın sahibinin ona ehtiyacı olduğu zaman, ondan kitabı istəməmək;

– kitabı yalnız onun qədrini bilən, öz kitabı kimi qoruyub saxlayan layiqli şəxsə vermək;

– kitab verilən şəxsə, onu qorumağı tövsiyə etmək;

– kitab iki nüsxədən ibarətdirsə, onun yaxşı nüsxəsini verməmək;

– kitabın içində olan lazımi məlumatları qeyd etməmiş onu başqasına verməmək;

– verilmiş kitabları unutmamaq üçün onların adlarını bir yerə qeyd etmək;

– kitabı qorumayan və ya vaxtından gec qaytaran şəxsə bir daha kitab verməmək.

– kitabı qaytardıqda onun sahibinə təşəkkür etmək;

*** Ümumi tövsiyələr**

Hər bir elm öyrənən şəxs bilməlidir ki, öyrəndiyi elmə əməl etməsə gec-tez öyrəndiklərini unudacaq və çəkdiyi əziyyətlər puç olacaq. Elə buna görə də o ilk əvvəl bizi yaradan Uca Allahın bu barədə buyuruqlarına nəzər salmalı sonra da, bu sahədə təcrübəsi olan alimlərə müraciət etməlidir. Bütün bunları araşdıran şəxs görər ki, Uca Allah öyrəndiyimiz faydalı elmi tətbiq etməyi və bu sahədə təcrübəsi olan alimlərə müraciət etməyi bizə əmr etmişdir. Lakin, O, bundan başqa həmdə onu tövsiyə edərək (məcbur etmədən) insanlara öyrətməyimizi də bizə buyurmuşdur. Biz yalnız bizi özümüzdən də yaxşı tanıyan Yaradanmızın əmrlərini yerinə yetirməklə müvəffəqiyyətlər əldə edə bilərik. Uca Allah buyurur:

﴿ وَٱلۡعَصۡرِ ۝١ إِنَّ ٱلۡإِنسَٰنَ لَفِي خُسۡرٍ ۝٢ إِلَّا ٱلَّذِينَ ءَامَنُواْ
وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ وَتَوَاصَوۡاْ بِٱلۡحَقِّ وَتَوَاصَوۡاْ بِٱلصَّبۡرِ ۝٣ ﴾

**«And olsun axşam çağına** [ikindi vaxtına, əsr namazına, zamana və ya Peyğəmbərin əsrinə] **ki, insan** [ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla] **ziyan içindədir! Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!** [Belələri Cənnətə nail olub əbədi səadətə qovuşanlardır!]»[218]

Ayədən göründüyü kimi, hər bir faydalı elm öyrənən şəxs, öyrəndiyi elmə əməl etdikdən sonra mütləq onu (o elmə marağı olanlara) öyrətməlidir ki, həmən elm sahəsində təcrübəsi artsın. Xüsusən də, o, din sahəsində öyrənilən ayə və mötəbər hədisləri başqalarına hikmətlə təbliğ etməklə Allahın əmrini yerinə yetirmiş və Cənnətə nail olub əbədi səadətə qovuşmuş insanlardan ola bilər. Aşağıdakı tövsiyələri oxuyub onlara əməl etməkdə Uca Allah bizə yardım etsin!

– elmi, səmimi qəlblə, Allah xatirinə öyrənmək;

– elmlə və onun fəziləti ilə əlaqəli kitablar oxumaq;

– elmə ömürlərini sərf etmiş alimlərin tərcümeyi-halını oxuyub onların həyat tərzi ilə tanış olmaq;

– elm öyrənməyə təzə qədəm qoymuş və ya başqa elmi sahə ilə məşğul olmaq istəyən hər bir şəxsə, öyrənilən sahənin ilk mərhələsindən başlamaq;

– özünü başqalarından üstün sayıb hər şeyi bilən kimi göstərməmək.

---

218 «əl-Əsr» surəsi.

– Allahı xatırlamazdan öncə Ona həmd-səna etmək və şəninə təriflər demək;

– Məhəmməd Peyğəmbəri xatırladıqda «səllallahu əleyhi (və alə alihi) və səlləm» (Allahın salamı və xeyir-bərəkəti onun (və ailəsinin) üzərinə olsun!) demək;

– digər Peyğəmbəri xatırladıqda «əleyhissəlam» (Allahın salamı onun üzərinə olsun!) demək;

– səhabəni xatırladıqda «radıyallahu anhu (anhə)» (Allah ondan razı olsun!) demək;

– vəfat etmiş müsəlman alimini xatırladıqda «rahiməhullah» (Allah ona rəhmət etsin!) demək;

– sağ olan (kafir, müşrik olmayan) müsəlman alimini xatırladıqda «hafizəhullah» (Allah onu qorusun!) demək;

– hər hansı bir məlumatı qeyd etdikdə onun mənbəyini dəqiqləşdirib sonra qəti söz demək və əsassız (havadan) danışmamaq;

– istənilən məlumatın doğru olub-olmadığını tədqiq etmək;

– hörmət qazanmaq üçün başqa alimin dediyini öz adından insanlar arasında yaymamaq;

– başqalarının dediklərində fayda azda olsa belə onlara qarşı əxlaqsızlıq göstərməmək;

– həqiqəti gizlətməmək;

– haqqa batil donu geyindirmək üçün zəif və ya uydurma xəbərlərdən sitat gətirməmək;

– yalnız tədqiq edib araşdırdıqdan sonra hər hansı bir məlumatı zəif və ya uydurma hesab etmək;

– soruşulan məsələlərə səhlənkar yanaşmamaq və imkan daxilində araşdırıb suallara cavab tapmaq;

– mühüm məsələləri və sairə faydalı söhbətləri qeyd etmək üçün balaca dəftərçə götürmək;

– çox vaxt insanların tələbatı ilə əlaqəli şəriət və qeyri şəriət məsələlərini araşdırmaq;

– faydasız işlərlə (haram olmasa da belə) vaxtı bihudə keçirməmək;

– ikinci planda olan işləri sonraya saxlamaqla ən əfzəl işlərlə məşğul olmaq;

– kitabxanaları gəzmək və nadir kitablardan maksimum istifadə emək;

– danışıq zamanı bir-birinə oxşar elmi, istilahi kəlmələr istifadə etməklə dinləyiciləri çaşdırmamaq;

– qəliz kəlmələrin mənasını, dinləyiciləri başa salmaq üçün araşdırıb öyrənmək;

– məsələni tez-tələsik başa düşməyə və ya başa salmağa çalışmamaq;

– hər hansı bir hökmü inkar etməyə tələsməmək;

– Quran ayələrini və Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** hədislərini ərəbcə əzbərdən dedikdə xətalara yol verməmək;

– Peyğəmbərin **- səllallahu aleyhi və səlləm -** hədislərini məna ilə rəvayət etdikdə onu bəyan etmək;

– nitq söylədikdə şirkə və ya küfrə gətirib çıxaran kəlmələr istifadə etməmək;

– başqalarının verdiyi ağıllı nəsihətləri səmimiyyətlə qəbul etmək və onları təhqir etməmək;

– tövsiyələri qəbul edənlərin sayının az olmasına görə məyus olmamaq və yalnız Allaha təvəkkül etmək;

– elm öyrəndikdə, diqqəti yayındıran başqa işlərlə məşğul olmamaq;

– dini işlərdə şəriət tərəfindən qadağan olunmuş, dünyəvi işlərdə isə dövlət tərəfindən qadağan olunmuş işlərdən çəkinmək;

– eyni vaxtda bir neçə kitab oxumamaq;

– əsassız danışmaqdan həzər etmək;

– cahil, savadsız insanların dediyi əsassız böhtənlara idtihamlara məhəl qoymamaq;

– Allahdan ümidi üzməmək və elm öyrənməyin artıq gec olduğunu zənn etməmək;

– hər dəfə hər hansı bir məsələni araşdırmağa başlamazdan əvvəl Uca Allaha dua edib haqqı ona göstərməsini Ondan istəmək.

## SON SÖZ

Bu risaləni yalnız şəriksiz Allahın köməyi ilə bitirdim. Ümidvaram ki, gənclərimiz buradakı ayə, hədis və rəvayətlərə laqeyid olmayacaq, kitabda Quran ayələri isitifadə olunduğu üçün onu natəmiz yerə atmayacaqlar və ən nəhayət Allah və Onun Rəsulunun - **səllallahu aleyhi və səlləm** - əmr və tövsiyələrini heç bir sıxıntı duymadan həyatlarına tətbiq edə-

cəklər. İnanıram ki, bu kitabı oxuyan müsəlman bacı və qardaşlarım elmə daim can atacaq və yalnız xeyirli işlər görməyə çalışacaqdır. Lakin cəmiyyətdə yanlış olaraq belə bir fikir yayılıb ki, guya Peyğəmbərimizdən - **səllallahu aleyhi və səlləm** – bizə gəlib çatan hansısa bir hədisdə o - **səllallahu aleyhi və səlləm** – bir gün elm öyrənməyi altmış il ibadətdən üstün olduğunu bildirib. Qeyd edim ki, bu da uydurma hədisdir. Çünki bu «hədis» Qurani kərimdəki yüzlərlə ayələrə və Peyğəmbərdən - **səllallahu aleyhi və səlləm** – rəvayət olunan mötəbər hədislərə bir başa ziddir. Unutmayaq ki, Uca Allahın heç nəyə ehtiyacı olmadığı halda biz Ona daim möhtacıq. Son dönüş isə heç şübhəsiz ki, aləmlərin Rəbbi və yenilməz qüdərət və qüvvət sahibi olan Allahadır. Kitabı Uca Allahın kəlamı ilə başladığım üçün Onun kəlamı ilə də bitirirəm:

﴿ وَتِلْكَ ٱلْأَمْثَـٰلُ نَضْرِبُهَا لِلنَّاسِ ۖ وَمَا يَعْقِلُهَآ إِلَّا ٱلْعَـٰلِمُونَ ﴿٤٣﴾ ﴾

**«Biz bu məsəllləri insanlar üçün çəkirik. Onları yalnız haqqı bilənlər anlayarlar».**[219]

## KİTABDA İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


əl-Qur'anu-l-Kərim;
Qur'an. [Z.Bünyadov; V.Məmmədəliyevin tərcüməsində];
Albani. «İrvau-l-Ğalil»;
Albani. «Səhihu-l-cami»;
Albani. «Silsilətu-l-əhadisi-sahihə»;
Buxari. «Səhih»;


---

[219] «əl-Ənkəbut» surəsi, 43.

Əbdül-Əziz. «Məalim fi tariq taləbil-elm»;
Əbu Davud. «Sünən»;
Əhvədi. «Cami-cəm»;
Əhməd. «Müsnəd»;
İbn Abdi-l-Bər. «Cami bəyanul-elm və fədlihi»;
İbn Həcər. «Təhzibu-t-təhzib»;
İbn Həcər. «Fəthu-l-Bari»;
İbn Kəsir. «Təfsir ibn Kəsir»;
İbnu-l-Qeyyim. «Ruh»;
İbnu-l-Qeyyim. «Miftahu-d-daru-s-səadə»;
İbnu-l-Mübarək. «Zuhd»;
Nəvəvi. «Şərhu Səhih-Muslim»;
Nəvəvi. «əl-Məcmu şərhul-muhəzzəb»;
Nizami Gəncəvi. «İskəndərnamə»;
Nizami Gəncəvi. «Xosrov və Şirin»;
Nizami Gəncəvi. «Leyli və Məcnun»;
Nizami Gəncəvi. «Yeddi gözəl»;
Şafei. «Risalə»;
Muslim. «Səhih»;
Tirmizi. «Sünən»;
Zəhəbi. «Siyəru aləmu-n-nubələ»;
Zəhəbi. «Təzkiratu-l-huffaz»;
Zəhəbi. «Mərifətu-l-qurrau-l-kibar»;

## MÜNDƏRİCAT

Müqəddimə……………………………………………3
Elmə yiyələnmək yolunda atacağımız ilk addımlar.......................................................11
Elmə yiyələnmək yolunda qarşıya çıxan maneə və çətinliklər……………………………….....15

Elm məclislərindən faydalanmağın yolları………35
Elm öyrənən şəxsin əsaslı danışması……………..55
Elmi mübahisə………………………………….77
Elm öyrənən şəxsin əməllərinə görə özünə hesabat verməsi……………………………………………..89
Quranı öyrənməyin fəziləti……………………….95
Elm əhlindən nümunələr və sələfin bir-birinə olan münasibəti…………………………………………..105
Tövsiyələr…………………………………….......112
Son söz…………………………………………119
Kitabda istifadə olunan ədəbiyyat……………...120